RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 18 (9473) 28 YANVAR 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Antiazərbaycançı qüvvələrin “səlib yürüşü” darmadağın edilir




**Bu ilin elə ilk ayındaca cəmi bir neçə gün ara ilə Fransa Senatı Azərbaycana qarşı qətnamə qəbul etdi, Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borel ölkəmizə qarşı əsassız iddialar səsləndirdi, Avropa Şurası Parlament Assambleyası heç bir hüquqi əsasa söykənmədən Azərbaycanın səsini dondurmaq kimi çirkin təşəbbüs göstərdi.**

Bütün bunlar isə təsadüf yox, Qərbin bəzi ölkə və qurumlarının Azərbaycana qarşı təşkilatlanmış şəkildə hücuma keçmələrini gün kimi ortaya qoyan təkzibolunmaz faktlardır.

Son üç il ərzində Cənubi Qafqazda baş verən proseslərin, Azərbaycanın ard-arda qazandığı qələbələrin fonunda islamofob, türkofob siyasət yürüdən Qərbin ölkəmizə qarşı "səlib yürüşü"nə çıxması təsadüfi deyildi. Çünki 30 ili əhatə edən böyük bir zaman müddətində bu bölgədə münaqişənin nizamlana bilməməsinin başlıca səbəbi də məhz demokratiya libaslı qərəzli Qərb ölkə və qurumlarının daim təcavüzkar Ermənistanın mövqeyindən çıxış etmələri, separatizmi dəstəkləmələri, ərazilərimizin işğalının sonsuzadək sürməsinə tərəfdar çıxmaları ilə bağlı idi.

Buna görə idi ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini öz gücü ilə yerinə yetirərək torpaqlarını işğaldan qurtaran, suverenliyini bərpa edən və ərazisindəki separatizm yuvasını dağıdan Azərbaycana qarşı Qərbdə dərhal düşmən mövqedən çıxış etməyə başladılar. Azərbaycanın Qarabağ zəfərini həzm edə bilməyən bu köhnə qitənin bütün bu riyakarlıq oyunbazlığına isə Fransa başçılıq edir.

3

# Seçkilərin şəffaf və ədalətli keçirilməsi üçün bütün tədbirlər görülür

Mərkəzi Seçki Komissiyasının "Seçki-2024" Müstəqil Media Mərkəzi də yaradılıb. Mərkəzin yaradılmasında başlıca məqsəd seçkilərdə aşkarlığın və şəffaflığın yüksək səviyyədə təmin edilməsində mühüm rolu olan yerli və beynəlxalq media nümayəndələrinə daha geniş imkanlar təmin etməkdir. Mərkəz seçkiləri hərtərəfli, operativ və obyektiv işıqlandırmaqda, habelə məlumatları almaqda və dərhal ictimailəşdirməkdə onlara yardımçı olacaq. Media nümayəndələri müasir informasiya-kommunikasiya texnologiyaları və zəruri texniki avadanlıqlarla tam təchiz olunan mərkəzdəki kompüterlər, telefon və faks aparatlarından, o cümlədən ödənişsiz internetdən sərbəst istifadə edə biləcəklər.

Müstəqil Media Mərkəzində Azərbaycan, ingilis və rus dillərində müntəzəm olaraq seçkilərə dair ən son məlumatlar təqdim ediləcək. Seçki prosesi ilə bağlı müxtəlif məsələlər barədə səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, habelə açıqlama və bəyanatlar dərhal ictimailəşdiriləcək, foto və videogörüntülər yayılacaq.

7

# Bərabər imkanlar, azad seçim

## Qalib xalq möhtəşəm gələcəyə səs verəcək

Bu prezident seçkiləri tək Azərbaycan üçün deyil, həmçinin Cənubi Qafqaz, bütün dünya üçün mühüm əhəmiyyət kəsb edir. Bu gün geosiyasi vəziyyət elədir ki, məhz seçkilərin keçirilməsi bütün daxili və xarici siyasətə təsir edə biləcək amil kimi qiymətləndirilir. Başlıca məsələ odur ki, bütün namizədlərə eyni şərait yaradılıb - istər kütləvi informasiya vasitələrində özlərinin təbliğatı, proqramlarının ortaya qoyulması, istərsə də seçicilərlə görüşlərinin keçirilməsi. Ən ucqar məntəqələrdə belə bu, mümkündür. Həm namizədləri təmsil edən şəxslərin, həm də onların nümayəndələrinin görüşlərinin keçirilməsi üçün tam şərait yaradılıb.

Fevralın 7-də Azərbaycan xalqı, seçki hüququ olan hər bir vətəndaş öz sözünü deyəcək. Hər kəs gələcək perspektivlər naminə öz səsini verəcək. Dünyada seçib, seçilmək kimi çox mühüm bir məfhum var.

7

# AŞPA Fransa və Almaniyanın əlində oyuncağa çevrilib

Bu il yanvarın 22-də, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış yarımsessiyasının açılış günündə AŞPA-da ölkəmizin nümayəndə heyətinin etimadnamələri təsdiq edilmədi. Deputatların etimadnamələrinin substantiv əsaslarla mübahisələndirilməsi ilə bağlı təşəbbüsü Sosialistlər siyasi qrupunun rəhbəri Frank Şvabe irəli sürdü. O, çıxışında "100 mindən artıq Qarabağ ermənilərinin zorakılıqla qovulması və AŞPA məruzəçilərinin Laçın yoluna buraxılmaması Azərbaycanın təşkilatla əməkdaşlıqdan yayınması kimi qiymətləndirdi".

3

# Başqasına "əriştə kəsmək" istəyir

Nümayişçilərin qəzəbi getdikcə daha da artır. Fermerlərin həmkarlar ittifaqı (FNSEA) böhrandan çıxmaq üçün hökumətə yüzə yaxın tələbin siyahısını göndərib. Bu sorğular 24 bənddə qruplaşdırılıb. İki kənd təsərrüfatı ittifaqı tərəfindən xüsusilə "təcili" yardıma və ekoloji məhdudiyyətlərin azaldılmasına çağırış olub. Onlar həmçinin əməkhaqqı ilə bağlı məsələlərə dərhal cavab tədbirlərini tələb edirlər.

Yollarda olmazın tıxac yaranır, bəzən qəza, hətta ölümlə, xəsarətlə nəticələnən hadisələr baş verir. Hələ bir neçə gün əvvəl Fransanın cənub-qərbində, Pamiers kommunasında RD119 körpüsünün yaxınlığında sürücü avtomobili sürətlə təsərrüfatçıların üzərinə sürüb və etirazçılardan bir nəfər dünyasını dəyişib, iki nəfər isə ağır yaralanıb.

4

# Fransa regionda sülhə və sabitliyə mane olur

Fransa parlamentinin hər iki palatası ölkəmiz əleyhinə ədalətsiz qətnamələr istehsal edən bir quruma çevrilib. Lakin ədalətsiz hücumlarının nəticə vermədiyini anlayan Emmanuel Makron anti-Azərbaycan koalisiyasını genişləndirməyə, AŞPA-nı da öz siyasi oyunlarına cəlb etməyə çalışır.

Aydın məsələdir ki, Avropa İttifaqını da, AŞPA-nı da, Fransanı da Azərbaycan vətəndaşının hüququ və taleyi qətiyyən düşündürmür. Bu təşkilatların bəzi dövlətlərin maraqlarını həyata keçirmək üçün təzyiq vasitəsi olduğu da heç kimə sirr deyil.

4






















Prezidentliyə namizədlərin ödənişsiz təşviqat materialları 9-15

# Karbamid, metanol, polietilen borular...

## Azərbaycanın yeni müəssisələrində istehsal edilən qeyri-neft məhsullarının siyahısını uzatmaq da olar

İstehsal olunan metanolun satışı SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi tərəfindən həyata keçirilir. Ümumi satışın əksəriyyəti ixraca yönəldilir.

Zavodun yerləşmə mövqeyi istehsal olunan məhsulun səmərəli şəkildə xarici bazarlara daşınmasında əhəmiyyətli rol oynayır. Belə ki, ixraca göndərilən məhsul "Azərbaycan Dəmir Yolları" QSC-nin Qaradağ stansiyasından Gürcüstan Dəmir Yolu İdarəsinin Parto-Tskali stansiyasına, oradan isə Gürcüstanda yerləşən Kulevi dəniz limanına göndərilir. Daşınma zavoda məxsus 252 çənli vaqonlar vasitəsilə aparılır. Öhdəliklərin vaxtında və keyfiyyətli şəkildə yerinə yetirilməsi üçün müəssisənin ərazisində hazır məhsulun saxlanılması üçün ümumi tutumu 48 min ton olan iki rezervuar var.

Daxili bazara satışlar zamanı isə məhsul vaqon-sisternlərlə Qaradağ stansiyasından Səngəçal stansiyasına göndərilir, eyni zamanda alıcılara məxsus xüsusi yük avtomobilləri vasitəsilə daşınır. Daxili bazar üzrə məhsulun böyük hissəsi "Azneft" İstehsalat Birliyinə tədarük olunur.

8

# Orta dəhliz ortaq maraqların təminatına hesablanıb




## Azərbaycan bu qlobal beynəlxalq nəqliyyat marşrutunda da açar ölkə olmaq iddiasındadır

Ölkəmizdə Orta dəhlizin və "Şimal-Cənub" marşrutunun fəaliyyəti üçün çox iş görülsə də, bu istiqamətdə əlavə tədbirlər də həyata keçirilib. Xəzər dənizindən yüklərin bir sahildən digərinə qısa zamanda və fasiləsiz daşınması üçün güclü donanma yaradılıb, avtomobil yollarımız beynəlxalq standartlara uyğun yenidən qurulub. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı iritutumlu gəmilərin giriş-çıxışının təmin edilməsinə hazırlanıb. Bunlarla yanaşı, ölkəmizdə beynəlxalq tələblərə cavab verən hava limanları fəaliyyət göstərir. Ərazilərimizin işğaldan azad edildiyi qısa zaman kəsiyində Füzuli, Zəngilan Beynəlxalq Hava limanları tikilib. Laçın hava limanında isə inşaat işləri sürətlə davam edir.

8

## Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 7, maddə 602, № 8, maddə 695, № 12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, № 5, maddə 501, № 10, maddə 1086, № 11, maddə 1250; 2016, № 1, maddə 16; 2017, № 3, maddə 328, № 12 (I kitab), maddə 2207; 2018, № 12 (I kitab), maddə 2488; 2019, № 2, maddə 180; 2020, № 6, maddə 669, № 7, maddə 827; 2021, № 6 (I kitab), maddə 544, № 7, maddə 699, № 8, maddə 897; 2022, № 8, maddə 830; 2023, № 2, maddə 189) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 57-ci maddəsinin birinci hissəsinin "e" bəndinə "təyin edilmiş" sözlərindən sonra "tam orta (yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövr ərzində)," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

## Azərbaycan Respublikası dövlət büdcəsinin tərkibində "Nəqliyyat vasitələrinin utilizasiyası fondu"nun yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, güzəştin və birdəfəlik ödənişin maliyyələşdirilməsi, habelə nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun 14-3-cü maddəsinə və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası dövlət büdcəsinin tərkibində "Nəqliyyat vasitələrinin utilizasiyası fondu" yaradılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyəti bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.
3. Bu Sərəncam 2024-cü il fevralın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2024-cü il*

## "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 dekabr tarixli 1088-VIQD nömrəli Qanununun tətbiqi və "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 dekabr tarixli 1088-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 57-ci maddəsinin birinci hissəsinin "e" bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 57-ci maddəsinin birinci hissəsinin "e" bəndinə əsasən, gizir və miçman vəzifələrində beş il və daha çox xidmət etmiş zabit vəzifəsinə təyin edilmiş, orta ixtisas və ya natamam ali təhsilli olmayan, lakin tam orta təhsilli gizir və miçmanlara hərbi hazırlıq keçdikdən və müəyyən edilmiş qaydada imtahan verdikdən sonra "kiçik leytenant" hərbi rütbəsinin verilməsi 2028-ci il dekabrın 31-dək həyata keçirilir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 dekabr tarixli 1088-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176 (Cild I) 2-ci hissəsinin ikinci abzasına "66-cı" sözlərindən əvvəl "57-ci maddəsinin birinci hissəsinin "e" bəndində," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2024-cü il*

## "Ələt azad iqtisadi zonasının inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 sentyabr tarixli 487 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Ələt azad iqtisadi zonasının inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 sentyabr tarixli 487 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1872 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə ilə yaradılmış İşçi qrupun tərkibi aşağıdakı redaksiyada verilsin:

**"İşçi qrupun rəhbəri**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**İşçi qrupun üzvləri:**

Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri
Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi
Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı
Salyan Rayon İcra Hakimiyyətinin başçısı
Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri
"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti
"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri
"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri
"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru
"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti.".

2. 2-ci hissə üzrə:

2.1. birinci abzasdan "müvafiq sahədə nüfuzlu beynəlxalq məsləhətçi şirkətləri cəlb etməklə" sözləri çıxarılsın;

2.2. 2.1-ci bənddən "və onun həyata keçirilməsinin ətraflı planını" sözləri çıxarılsın;

2.3. 2.2-ci bənddən "ərazi sərhədləri, həmin sərhədlər daxilində" və "hüdudları, Azad Zona ərazisinin" sözləri çıxarılsın;

2.4. 2.4-cü bənd üzrə:

2.4.1. birinci abzasdan "ilkin mərhələdə" sözləri çıxarılsın;

2.4.2. 2.4.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.4.2. əsas nəqliyyat və mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərin, digər xidmətlərin təmin edilməsi planını;";

2.4.3. aşağıdakı məzmunda 2.4.3-2.4.5-ci yarımbəndlər əlavə edilsin:

"2.4.3. mühəndis-axtarış işlərinin nəticələrini, o cümlədən mühəndis-geoloji axtarışların nəticələrini əks etdirən materialları;

2.4.4. ətraf mühitin mövcud vəziyyəti barədə məlumatları;

2.4.5. aşağıdakı tədbirlərin həyata keçirilməsi üçün xərclər proqnozunu:

2.4.5.1. mövcud tikililərin və mühəndis-kommunikasiya qurğuları və xətlərinin köçürülməsi;

2.4.5.2. bu Sərəncamın 2.1-ci bəndində göstərilən inkişaf konsepsiyasının həyata keçirilməsi;

2.4.5.3. bu Sərəncamın 2.4.2-ci yarımbəndində göstərilən işlərin həyata keçirilməsi.";

2.5. 2.5-ci bənd ləğv edilsin.

3. 3-cü hissə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2024-cü il*

## Xarici İşlər Nazirliyinin rəhbər heyəti şəhid Orxan Əsgərovun məzarını ziyarət edib






**Yanvarın 27-də xarici işlər naziri Ceyhun Bayramov və nazirliyin rəhbər heyəti İkinci Şəhidlər xiyabanına gələrək Azərbaycanın Tehrandakı səfirliyinə xain terror hücumunun qarşısının alınması zamanı şəhid olan mühafizə xidmətinin rəisi Orxan Əsgərovun məzarını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, şəhidin məzarı ziyarət edilib, önünə tər güllər düzülüb, ruhuna dualar oxunub.

Xatırladaq ki, ötən il yanvarın 27-də səhər saat 08:30 radələrində avtomat silah və çoxlu sayda güllə daraqları ilə silahlanmış şəxs Azərbaycanın İrandakı səfirliyinə qarşı xain terror hücumu törədib. Hücumun qarşısının alınması zamanı səfirliyin mühafizə xidmətinin rəisi Orxan Əsgərov həlak olub, iki nəfər isə yaralanıb.

Səfirliyin mühafizə xidmətinin əməkdaşı Vasif Tağıyev əliyalın şəkildə terrorçunun üzərinə atılaraq qorxmaz və çevik hərəkətləri ilə onu tərk-silah edib.

Hadisədən sonra dövlətimizin başçısının tapşırığı ilə Azərbaycanın İrandakı səfirliyinin əməkdaşları və onların ailə üzvləri ölkəmizə təxliyə olunub. Azərbaycanın İrandakı səfirliyinin təxliyə edilmiş əməkdaşları və onların ailə üzvləri Bakıya gətirilib. Ümumilikdə 53 nəfər təxliyə olunub.



Qeyd edək ki, səfirliyimizə qarşı xain hücum dünya ölkələrinin və beynəlxalq təşkilatların rəsmiləri, xarici işlər nazirləri, səfirlər, XİN təmsilçiləri, siyasətçilər və jurnalistlər tərəfindən qətiyyətlə pislənib və qəbuledilməz hesab olunub. Bəyanat, açıqlama və paylaşımlarda terror hadisəsinin tam araşdırılması və təqsirkarların cəzalandırılması tələbi ifadə edilib.

## Azərbaycan XİN İrandakı səfirliyə qarşı terror hücumunun birinci ildönümü ilə bağlı bəyanat yayıb

**Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror hücumundan bir il ötür.**

Azərbaycanın Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir:

"Terror hücumu nəticəsində səfirliyin bir əməkdaşı həlak olmuş, digər iki əməkdaşı isə müxtəlif bədən xəsarətləri alaraq ağır yaralanmışdır. Hücumdan sonra insanların həyat və təhlükəsizliyinə yaranmış ciddi risk vəziyyəti nəzərə alınaraq, səfirliyin əməkdaşlarının və ailə üzvlərinin təxliyəsi həyata keçirilmişdir.

Səfirliyə qarşı törədilmiş terror aktı fonunda akkreditasiya ölkəsi kimi İran tərəfi "Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyası"ndan irəli gələrək səfirliyin binasının hər cür hücumlardan qorunması və onun əməkdaşlarının təhlükəsizliyinin təminatına dair öhdəliyini yerinə yetirməmişdir.

Terror aktından sonra bir çox dövlətlər və beynəlxalq təşkilatlar beynəlxalq münasibətlərdə diplomatik missiyalara hücumun qəbuledilməz olduğu, terror aktının qətiyyətlə pisləndiyi bəyanatlarla çıxış etmişlər.

Terror hücumu ilə bağlı Azərbaycanla İran arasında yaranmış vəziyyətin aradan qaldırılması, sözügedən terror aktının təşkili və törədilməsində əli olanların ən ağır şəkildə cəzalandırılması, səfirliyin təhlükəsizliyinə tam təminatın verilməsi istiqamətində son bir il ərzində iki ölkənin rəsmi şəxsləri və aidiyyəti qurumları arasında mütəmadi təmaslar davam etdirilmiş, Azərbaycan tərəfinin gözləntiləri qarşı tərəfə çatdırılmışdır. İran tərəfi aparılan istintaq tədbirləri barədə mütəmadi əsasda Azərbaycan tərəfini məlumatlandırmış, uzun müddət aparılmış prosesdən sonra terror aktını törədən şəxsin məhkəməsinin ilk iclasını 27 yanvar 2024-cü il tarixinə təyin etmişdir.

Səfirliyə qarşı törədilmiş terror aktının birinci ildönümündə şəhidimizin yaxınlarına dərin hüznlə başsağlığı verir, bu hücumu bir daha qətiyyətlə pisləyir, günahkarların öz layiqli cəzalarına çatmaları və gələcəkdə bu qəbildən əməllərin qarşısının alınması istiqamətində İran tərəfindən tezliklə nəticəyönümlü addımların atılacağını gözləyirik".

## Azərbaycanın XİN rəhbəri Fransa ilə münasibətlərdən danışıb

**"Fransa ilə Azərbaycan arasında olan münasibətlər tarixi mövqedən baxdıqda hazırda ən aşağı səviyyədədir. Hər kəs açıq şəkildə görə bilər ki, münasibətlərin pisləşməsinin əsas səbəbkarı Azərbaycan tərəfi deyil".**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Azərbaycan tərəfi Fransa ilə münasibətləri böhran səviyyəsinə çatdırmaq üçün heç bir təşəbbüs irəli sürməyib.

"Təəssüf ki, qəbul edilməyən münasibətlərin təşəbbüskarı həmişə Fransa olub. Bəzi hallarda bu kimi proseslər Fransa tərəfindən açıq bəyanatlar, ölkəmizə qarşı təhdid və hədə elementlərini özündə ehtiva edən açıqlamalardan ibarətdir. Bir çox hallarda Azərbaycan ictimaiyyəti bunlar barədə məlumatlı olmur. Tam məsuliyyətlə qeyd edə bilərəm ki, müxtəlif platformalarda örtülü şəkildə ölkəmizə qarşı aparılan sistemli işin arxasında dayanan əsas ölkə məhz Fransadır. Bu addımları atan ölkəyə qarşı da Azərbaycan adekvat cavab verəcək. Fransa atdığı addımların yanlış olduğunu nə zaman bildirərsə, biz o zaman onu dəyərləndirərik", - deyən nazir Fransanın gec-tez bu qənaətə gələcəyinə ümidvar olduğunu bildirib.

## *Ceyhun BAYRAMOV:* "AŞPA-nın qərəzli addımını qətiyyətlə pisləyirik"

**"Biz bir neçə gün bundan öncə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) ölkəmizə qarşı atılan tamamilə qərəzli və qəbul edilməyən addımı qətiyyətlə pisləyirik. Bununla bağlı Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti də çox açıq şəkildə etirazını ifadə edib".**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında deyib.

Nazir qeyd edib ki, Azərbaycan nümayəndə heyətinin rəsmi mövqeyi qurum üzvlərinin diqqətinə çatdırılıb. "Azərbaycana qarşı belə bir qərəzli münasibətin əsas səbəbi məhz ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə bağlıdır. Açıq deməliyik ki, ölkəmizdəki proseslərlə bağlı Avropa Şurası Parlament Assambleyasının müxtəlif rəyləri hər zaman mövcud idi. Azərbaycan nümayəndə heyəti də buna uyğun olaraq adekvat mövqe ifadə edirdi. Baş tutan müzakirələrdə hər hansı məsələlərlə bağlı razılaşmanın əldə edilib-edilməməsi halları da yaşanırdı. Ancaq bu, bir işçi prosesdir və bu proses 20 il ərzində davam edirdi", - deyə Azərbaycan XİN rəhbəri vurğulayıb.

## Energetika sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığının perspektivləri nəzərdən keçirilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov və SOCAR-ın prezidenti Rövşən Nəcəf ölkəmizdə səfərdə olan Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarla görüşüblər.**



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə iqtisadiyyat naziri ölkələrimiz arasında səmərəli enerji tərəfdaşlığını, birgə reallaşdırılan layihələrin regional inkişafa, stabilliyə və təhlükəsizliyə, Azərbaycan və Türkiyənin strateji maraqlarının təmin olunmasına xidmət etdiyini vurğulayıb. Bu xüsusda SOCAR-ın Türkiyədəki çoxşaxəli fəaliyyəti məmnunluqla qeyd olunub.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar enerji tərəfdaşlığının yeni qlobal trendlərə uyğun şəkildə inkişaf etdirilməsi barədə fikirlərini bölüşüb. Qeyd olunub ki, bu il Azərbaycanda təşkil olunacaq COP29 tədbiri də alternativ enerji və digər sahələrdə müzakirələrin aparılmasına və əməkdaşlıq üçün yeni imkanların açılmasına təkan verəcək.

Görüşdə Azərbaycan və Türkiyə arasında iqtisadiyyat, o cümlədən enerji sahələrində mövcud və gələcək əməkdaşlıq imkanları nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Niderland tərəfini bölgənin gələcək inkişafına maneçilik törədən bəyanatlar verməyə son qoymağa çağırırıq

**Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə Niderland Krallığının xarici işlər naziri Hanke Bruins Slotun parlamentdə səsləndirdiyi fikirlərlə bağlı yerli medianın sualını cavablandırıb.**

AZƏRTAC xəbər verir ki, XİN-in mətbuat katibi yerli medianın nazir Hanke Bruins Slotunun son dövrlərdə Azərbaycan tərəfindən verilən ictimai bəyanatların narahatlıq doğurması, ölkəmizi sanksiya ilə hədələməsi və Azərbaycan-Ermənistan normallaşma prosesi barədə bir sıra mənfi fikirləri ilə bağlı sualına cavabında deyib: "Niderland Krallığının xarici işlər naziri Hanke Bruins Slotun sözügedən açıqlamasında ölkəmizə qarşı səsləndirdiyi fikirlər qəbuledilməzdir.

Təəssüf ki, Niderland rəsmisi parlament nümayəndələrinin sorğusuna cavab olaraq növbəti dəfə ittihamedici açıqlama verərək, Azərbaycan tərəfinin bəyanatlarını açıq-aşkar təhrif edib. Avropa ölkələrinin rəsmiləri tərəfindən belə məsuliyyətsiz fikirlərin səsləndirilməsi ilk dəfə deyil. Bu açıqlamalar Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri olmaqla yanaşı, bölgəmizdə postmünaqişə reallıqlarına qərəzli yanaşmanın nümunələridir.

Belə bəyanatlar, eləcə də Azərbaycana qarşı sanksiya tətbiq edilməsi barədə hədələyici fikirlər ikitərəfli münasibətlərə və Azərbaycan-Avropa İttifaqı əlaqələrinə zərbədir.

Niderlandın xarici işlər nazirinin ölkəmizə səfər niyyətinə gəldikdə qeyd edək ki, belə bir səfərin Azərbaycan tərəfindən təxirə salındığı məlumdur. Azərbaycan tərəfi səfər zamanı Azərbaycan-Ermənistan normallaşma prosesinin və ya ölkəmizin daxili məsələlərinin deyil, yalnız ikitərəfli münasibətləri müzakirə etmək niyyətinin olduğunu qarşı tərəfə bildirib.

Niderland tərəfini bölgənin beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında gələcək inkişafına maneçilik törədən belə bəyanatlara son qoymağa çağırırıq".

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## AŞPA-nın gülünc doğuran bəhanələri

### Bu "fəaliyyəti" ilə təşkilat, sadəcə olaraq, özünü hörmətdən salır

**"Avropanın bəzi siyasi dairələrinin xeyir-duası ilə AŞPA Azərbaycanın qurumdakı fəaliyyətinə veto qoymağa çalışırdı. Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal ediləndə Avropa bizim heç bir çağırışımıza əhəmiyyət vermədi. Bəhanəsi də ondan ibarət idi ki, onlar guya insan hüquqları ilə məşğuldurlar".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. O bildirib ki, avropalılar 2024-cü ilin Azərbaycanı ilə 1990-cı illərin Azərbaycanının eyni olmadığını unudurlar: "AŞPA Azərbaycanı onların nümayəndələrinin növbədənkənar prezident seçkilərinə dəvət olunmamasına görə ttiham edir. Harda yazılıb ki, biz seçkilərə görə AŞPA üzvlərini dəvət etməliyik? ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun nümayəndələri dəvət olunub və gəlib. Əsas seçki izləyən institut Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosudur. Belə çıxır ki, Avropanın burada maraqları var. Onlar Qarabağdan köçən ermənilərə qarşı guya "etnik təmizləmə" həyata keçirildiyini iddia edirlər. Axı, Ermənistan özü etiraf edib ki, heç bir etnik təmizləmə, zorla çıxarılma olmayıb. Özləri etiraf edir ki, Qarabağ Azərbaycan torpağıdır. Onda AŞPA nə istəyir?"

Deputat qeyd edib ki, Avropaya zəif Azərbaycan, itaət edən ölkə lazımdır. Güclü, müstəqil siyasət yürüdən Azərbaycanı qəbul edə bilmirlər: "AŞPA-da "at oynadan" Fransa Azərbaycana qarşı düşmən siyasəti ilə tanınır. Hər kəsə məlumdur ki, ermənidən çox erməni olan Fransa Azərbaycanın heç bir uğurunu qəbul etmir. Azərbaycansız bizimlə bağlı qərar qəbul etmək istəyir. AŞPA-nın Azərbaycanı ittiham edən sənədlərindən biri odur ki, müşahidəçilər Qarabağ ərazisinə gəlmək istəyiblər və Azərbaycan qoymayıb. Hər məkrli niyyətlə gələnə icazə verilsə, onda necə suveren, müstəqil dövlət olmaq olar?"

A.İsgəndərov bildirib ki, Avropa Şurası bu əməlləri ilə əslində özünü hörmətdən salır: "Biz Avropa Şurasına 2001-ci ilin yanvarında üzv olanda ən böyük arzumuz və istəyimiz o idi ki, bu şura ölkəmizin haqq işini müdafiə edərək Ermənistanın işğalçı dövlət olduğunu dünyaya bəyan etsin. Amma bununla bağlı nə zaman məsələ qaldırılırdısa, Avropa siyasiləri, AŞPA-nın rəhbər şəxsləri deyirdilər bizim işimizin adı insan hüquqları ilə bağlıdır. Yəni Azərbaycana keçmiş münaqişə ilə bağlı heç bir dəstək olmadı".

Deputat vurğulayıb ki, Azərbaycan nümayəndə heyətinin qəbul etdiyi qərarı xalqımız dəstəkləyir. Çünki AŞPA-nın son hərəkəti bir qrup deputata qarşı deyil, ümumilikdə Azərbaycan əleyhinə təxribatdır. Azərbaycan da AŞPA-nın bu qərarına etiraz edir. AŞPA-nın bu ədalətsiz mövqeyi nə qədər davam edəcəksə, Azərbaycan da buna o qədər sərt münasibətini göstərəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Antiazərbaycançı qüvvələrin "səlib yürüşü" darmadağın edilir

*Əvvəli 1-ci səh.*



### Qərb bölgədə sülh istəmir

Hadisələrə başqa yöndən nəzər saldıqda aydın olur ki, hazırda Qərbin qarşısına qoyduğu başlıca məqsədi Ermənistan ilə Azərbaycan arasında sülhün əldə olunmasına bədnam yollarla mane olmaqdır.

Azərbaycanın illərdir "boz zona"ya çevrilmiş Qarabağ bölgəsində separatizmi məhv etməsindən sonra iki ölkə arasında sülh istiqamətində irəliləyişlər əldə olunması göz qabağındadır. Yaxşı xatırlayırıq, torpaqlarımızın 30 illik işğalı dövründə cidd-cəhdlə müharibə variantını inkar edən Qərb siyasi dairələri bizi işğalla barışmağa məcbur etmək istəyirdilər. İndi Azərbaycan bölgədə tam yeni reallıqlar formalaşdırıb və hazırda iki ölkə barışa heç bir dövrdə olmadığı kimi yaxındır. Bu Qərbi qane etmir. O, maraqları naminə Cənubi Qafqazda savaşı daha uyğun sayır. Ermənistanı silahlandıraraq, ona siyasi dəstək verərək revanşa qızışdırmağa çalışması da buna xidmət edir.

Təbii ki, ABŞ, Fransa, Almaniya kimi qərəzli ölkələrin, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası kimi erməni lobbisinin yuvasına çevrilmiş qurumların da gözündən yayınmayıb ki, Azərbaycanın siyasi iradəsinin, qətiyyətinin sayəsində Cənubi Qafqazda sülh əldə olunmasına çox az qalıb. Buna görə də bölgədə yenidən qarşıdurma yaratmaq, müharibə ocağını təzədən alovlandırmaq üçün meydana atılıblar. Bu dairələr ikiüzlülüklə demokratiyadan bəhs edirlər, insan hüquqlarından dəm vururlar, Qarabağın erməni sakinlərinin olmayan problemləri barədə hay-küy salırlar.

Amma Qərb siyasi dairələri 1990-cı illərin əvvəllərində Ermənistanın azərbaycanlılara qarşı soyqırımı, qətliamlar törətməsinə, yurdundan didərgin salınan yüz minlərlə vətəndaşımızın uzun illər acınacaqlı vəziyyətdə çadırlarda, vaqonlarda, yataqxanalarda zülm-zillət içərisində yaşamalarına erməni təəssübkeşliyi ilə biganəlik nümayiş etdirdilər. Bu günün özündə də həmin azərbaycanlıların insan haqlarından bir kəlmə belə kəsmirlər.

### AŞPA təzyiqetmə alətinə çevrilib

Konkret olaraq AŞPA-dan danışsaq, uzun illər ərzində bu qurum Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı bir dənə də olsa tədbir görməyib, yalnız ara-sıra heç bir hüquqi çəkisi olmayan bəyanatlar və qərarlar verməklə kifayətlənib. Halbuki bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi, amma biz tamamilə əks fəaliyyətlə, ölkəmizə qarşı ikili standartlarla, qərəzlərlə üzləşdik.

Avropa Şurası müxtəlif Avropa ölkələrinin Avropa Parlamentinə düşə bilməyən islamofob və türkofob təfəkkürlü nümayəndələrin düşərgəsinə çevrilib. 2001-ci ildə bu təşkilata üzv olandan sonrakı dövrə baxanda görürük ki, ermənipərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı təzyiq etmək aləti kimi istifadə ediblər.

2023-cü il oktyabrın 23-də qəbul etdiyi "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı qətnaməsində AŞPA açıq şəkildə Azərbaycanı təhdid edərək, 19 sentyabrda həyata keçirilən lokal xarakterli antiterror əməliyyatlarını hərbi əməliyyatlar kimi qiymətləndirərək, "Dağlıq Qarabağın erməni əhalisinin humanitar vəziyyəti"ndən ciddi narahatçılıq ifadə edib və Azərbaycan nümayəndə heyətinin etimadnaməsini 2024-cü ilin ilk iclasında tanımamaqla hədələyib. Bu il qış yarımsessiyasının açılış günündə isə AŞPA-da ölkəmizin nümayəndə heyətinin etimadnamələri təsdiq edilməyib.

Bir sözlə, AŞPA ölkəmizə "insan hüquqları" bəhanəsi ilə təzyiq etməyə qərar verdi. Qalmaqallı təşəbbüs formal olaraq almaniyalı deputat Frank Şvabe tərəfindən irəli sürülsə də, məsələnin arxasında AŞPA rəhbərliyinin özünün durduğu, sadəcə, sosialistləri qabağa verdiyi bilinən faktdır. AŞPA-nın sabiq və qüvvədə olan prezidentinin əleyhimizə səs verməsi təşkilat rəhbərliyinin mövqeyinin göstəricisidir.

### Fransa-Almaniya cütlüyünə zərbə

Bəllidir ki, Fransa və Almaniya tandem şəklində çıxış edirlər. Bir sıra hallarda Fransa öz istəklərini Almaniya vasitəsilə reallaşdırmağa çalışır.

Bakının müstəmləkəçi Fransanın neokolonializm siyasətini dünyada ifşa etməsi, onu ard-arda siyasi, diplomatik cəbhələrdə məğlub etməsi Parisin beynəlxalq nüfuzunu yerlə bir edib. Elə buna görə də Fransa indi arxa plana çəkilərək mənfur əməllərini Almaniyanın əli ilə həyata keçirmək istəyir.

AŞPA Azərbaycana qarşı qərəzini, riyakarlığını ört-basdır etmək üçün əsassız bəhanələr gətirir. Məsələn, nümayəndə heyətimizin etimadnamələrinin mübahisələndirilməsi təşəbbüsünü irəli sürərkən guya bunu 7 fevralda Azərbaycanda keçiriləcək seçkiləri müşayiət etməyə dəvət edilməməsi, ölkədə "siyasi məhbus"ların olması ilə əlaqələndirir. Lakin əsl səbəb gün kimi ortadadır. Xristian təəssübkeşliyi, erməni sevgisi ilə silahlanmış Qərbin bəzi ölkə və qurumları Azərbaycanın Şuşa, Xankəndi Zəfərini həzm edə bilmir və bunun qisasını bizdən almağa çalışır.

Amma müstəqil siyasət yürüdən Azərbaycan riyakar Qərb təsisatlarını hər zaman qabaqlayır və onları gülünc vəziyyətdə qoyaraq ard-arda məğlubiyyətlərə uğradır. Elə AŞPA-nın son iclasına qatılmayaraq qürurlu şəkildə riyakar qurum ilə münasibətləri kəsməsi də buna nümunədir.

Bir sözlə, Azərbaycan Qərbin "səlib yürüşü"nü darmadağın edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## AŞPA özünə böyük zərbə vurdu

**"Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycana qarşı qərəzli qətnaməsi qurumun özünün nüfuzuna ciddi xələl gətirdi. Qarabağ və Şərqi Zəngəzurun 30 il ərzində Ermənistan tərəfindən işğal altında qalmasına və tamamilə dağıdılaraq talan edilməsinə göz yuman AŞPA indi Qafqazdakı yeni düzəndən ciddi narahatlıq keçirir. AŞPA-nın "insan haqları", "seçkilərə AŞPA-nın dəvət olunmaması" və digər "arqumentlər"i bəhanədən başqa heç nə deyil".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, Azərbaycanın AŞPA-nı seçkilərə dəvət etmək öhdəliyi yoxdur. Seçkiləri izləyən əsas institut olan Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu Azərbaycanda fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərini müşayiət edəcək.

Deputat qeyd edib ki, Fransanın təsir dairəsində olan digər qurumlar kimi AŞPA da "sıfır cəmli" oyun oynayır. Azərbaycan postsovet məkanında münaqişəyə cəlb olunan ölkələr arasında öz ərazi bütövlüyünü və suverenliyini ilk bərpa edən dövlətdir. Təəssüf ki, bu reallığı bir sıra beynəlxalq qurumlar həzm edə bilmir. Bunun isə bircə adı var ki, o da rasizmdir. Azərbaycan haqlı mübarizəsində qalib gəlib və nəinki regionda, bütün dünyada sülh və əmin-amanlığın bərpa olunmasında maraqlıdır.

Vüqar Bayramov onu da deyib ki, AŞPA-nın türkofob və islamofob davranışları bizim üçün ciddi əhəmiyyət kəsb etmir: "Bu qurumun bütün cəhdləri uğursuz olub. Ölkəmizə "insan hüquqlarının pozulması" bəhanəsi ilə təzyiq etməyə çalışsalar da, Azərbaycan onları qabaqladı. Azərbaycan nümayəndə heyətinin AŞPA-nın son iclasına qatılmayaraq bu təşkilatdakı fəaliyyətini qeyri-müəyyən müddətə dondurması onlara əsl cavab oldu. Nəticədə, anti-Azərbaycan qurum ilə münasibətlərimiz kəsildi".

Vüqar Bayramov söyləyib ki, AŞPA və bu kimi qurumların ölkəmiz əleyhinə davamlı qərəzli münasibət sərgiləmələrində Fransanın əli var. Paris bu qurumlardan sui-istifadə etməklə ölkəmizə təzyiq göstərməyə çalışır. AŞPA-nın bu davranışını həm də Fransanın Azərbaycana qarşı apardığı kampaniyanın davamı da adlandırmaq olar. Ümumiyyətlə isə, təkcə Fransa deyil, Qərbdəki anti-Azərbaycan qüvvələrin əksəriyyəti bu qurumdan ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə edir.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## AŞPA Fransa və Almaniyanın əlində oyuncağa çevrilib




**Otuz il Azərbaycanın iyirmi faiz ərazisi Ermənistan silahlı qüvvələrinin işğalı altında qaldı. Bütün dünya bunu gördü... O əraziləri işğalçı Ermənistanın qansız-qadasız ələ keçirmədiyi də hər kəsin bildiyi faktlar idi.**

Təcavüzkar ermənilər Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqlarında 1980-cı illərin sonlarından qanlı cinayətlər, dəhşətli faciələr törətməyə başlamışdılar. Dinc, günahsız soydaşlarımız Ermənistanın işğalçılıq siyasətinin qurbanı olmuşdular. O vaxt cinayətləri cəzasız qalan erməni vandalları daha da azğınlaşmış, Qarabağ və Şərqi Zəngəzur ərazilərində yaratdıqları münaqişə ocağını alovlandırmışdılar. Birinci Qarabağ müharibəsinə başlayıb torpaqlarımızı zəbt etmişdilər. Minlərlə azərbaycanlıya işgəncələr verərək qətlə yetirmiş, ya da ömürlük şikəst etmişdilər. Bir milyon soydaşımız isə canını xilas etmək üçün doğma yurdundan, isti ocağından qaçmaq məcburiyyətində qalmışdı.

O zamanlar Qarabağ və Şərqi Zəngəzurda azərbaycanlıların ərşə qalxan nalələrini, fəryadlarını, söndürülən ocaqlarını, talan edilən, yandırılan evlərini, dağıdılan, xarabalığa çevrilən yurdlarını dünyanın aparıcı dövlətləri, insan hüquqlarının, demokratiyanın və qanunun aliliyinin müdafiəsi ilə məşğul olmaq məqsədilə yaradılmış Avropa Şurası Parlament Assambleyası (AŞPA) kimi böyük təşkilat görmüşdü. Ancaq haqqı müdafiə etməmişdilər.

Ermənistan silahlı qüvvələri otuz il Azərbaycanın ərazilərində sadəcə, qalmadı. Torpaqlarımızda gündən-günə, ildən-ilə möhkəmləndirdiyi mövqelərindən dinc əhalini daim hədəfə aldı. 1994-cü ilin mayında imzalanan atəşkəs haqqında sazişə məhəl qoymayan işğalçı ölkənin silahlı qüvvələri Azərbaycan Ordusunun bölmələrini, azərbaycanlıların yaşayış yerlərini intensiv olaraq avtomatlardan, iriçaplı pulemyotlardan atəşə tutdu. Əsgər və zabitlərimiz, dinc sakinlərimiz şəhid oldular. Demokratiyadan, haqdan, ədalətdən dəm vuran ermənipərəst Avropa ölkələri, onların başında dayandıqları AŞPA kimi beynəlxalq təşkilatlar bu cinayətlərinə görə rəsmi İrəvanı sorğu-sual belə etmədilər. İşğalçı, təcavüzkar Ermənistana heç gözün üstə qaşın var deyən də olmadı.

Əksinə, ermənipərəst, islamofob qüvvələr bir sıra dünyanın aparıcı dövlətlərinin gücündən, eləcə də Avropa Şurası Parlament Assambleyasından daim Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etdilər. Əslində, bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi. Ancaq AŞPA uzun illər Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı ara-sıra heç bir hüquqi çəkisi olmayan bəyanatlar və qərarlar verməkdən başqa heç bir tədbir görmədi.

Otuz il dünya birliyinin susduğu ədalətsizliyə Azərbaycan dövləti öz gücü ilə son qoydu. 2020-ci ilin payızında Ermənistan silahlı qüvvələrinin başladığı İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu qələbə çaldı. Əsgər və zabitlərimiz tarixi ərazilərimizi işğalçılardan azad etdilər. Ötən ilin sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrinin hələ də Qarabağı tərk etməmiş törtöküntüləri və separatçılar məğlubiyyətə uğradılar. Azərbaycan suverenliyini tam bərpa etdi.

Bunlar Azərbaycan xalqının XX əsrin sonlarından başlayaraq yaşamalı olduğu çox çətin, faciələrlə dolu, ancaq sonunda haqqın qalibiyyəti, Zəfərlə tamamlanmış tarixinin qısa xülasəsidir. Fransa başda olmaqla erməni-sevdalı Qərb ölkələri, Avropa Şurası Parlament Assambleyası kimi qurumlar Azərbaycan xalqının başına qəsbkar ermənilər bu qədər fəlakətlər gətirəndə, soyqırımları törədəndə səslərini çıxarmadılar. Ancaq elə ki, gördülər işğalçılıq mövqeyindən əl çəkməyən Ermənistan silahlı qüvvələrinin qarşısına Azərbaycan güclü ordusu ilə çıxır, qəsbkarlar məğlub olurlar, o zaman narahatlıqlarını büruzə verdilər. Hələ o vaxt - İkinci Qarabağ müharibəsi davam etdiyi günlərdə təlaşa düşən Fransa prezidenti Emmanuel Makron Azərbaycanın əleyhinə əsassız ittihamlar irəli sürməyə başladı. BMT-nin Təhlükəsizlik Şurasının müzakirəsinə çıxardığı saxta məlumatlarla həmin nüfuzlu beynəlxalq təşkilatın imkanlarından istifadə edib ölkəmizə təzyiq göstərməyə çalışdı. Amma bunu bacarmadı.

Bütün haqsızlıqlara, ikili standartlara rəğmən Azərbaycan ədaləti, beynəlxalq hüququn normalarını bərpa edərək suverenliyinə tam nail olduqdan sonra Ermənistanla sülh razılaşmasının imzalanması real göründüyü bir vaxtda bəzi Qərb ölkələrinin və beynəlxalq təşkilatların əsl siması daha da aydın göründü.

Avropa Şurası Parlament Assambleyasının 2023-cü il oktyabrın 23-də qəbul etdiyi "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı qətnamənin 23-cü bəndində Azərbaycan açıq-aşkar təhdid edildi. Təşkilat 19 sentyabrda baş tutan lokal xarakterli antiterror əməliyyatlarını hərbi əməliyyatlar kimi qiymətləndirərək, "Dağlıq Qarabağın erməni əhalisinin humanitar vəziyyəti"ndən ciddi narahatçılıq ifadə etdi və Azərbaycan nümayəndə heyətinin etimadnaməsini 2024-cü ilin ilk iclasında tanımamaqla hədələdi.

Bu il yanvarın 22-də, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış yarımsessiyasının açılış günündə AŞPA-da ölkəmizin nümayəndə heyətinin etimadnamələri təsdiq edilmədi. Deputatların etimadnamələrinin substantiv əsaslarla mübahisələndirilməsi ilə bağlı təşəbbüsü Sosialistlər siyasi qrupunun rəhbəri Frank Şvabe irəli sürdü. O, çıxışında "100 mindən artıq Qarabağ ermənilərinin zorakılıqla qovulması və AŞPA məruzəçilərinin Laçın yoluna buraxılmamasını Azərbaycanın təşkilatla əməkdaşlıqdan yayınması kimi qiymətləndirdi". Təşəbbüs təsdiqləndi. Çünki plan əvvəlcədən qurulmuşdu. Almaniyalı deputat Frank Şvabenin yalan, böhtan dolu, qərəzli çıxışı da, irəli sürdüyü təşəbbüs də oyunun bir hissəsi idi. Sadəcə, sosialistlər qabağa verildi. Məsələnin arxasında AŞPA rəhbərliyinin özünün durduğu faktdır.

Özü kimi işğalçı olan Ermənistanın məğlubiyyətinin qarşısını almaqda aciz qalan Fransa Avropa Şurası Parlament Assambleyasından Azərbaycana qarşı istifadə etməyə, ölkəmizə təzyiq göstərməyə çalışır. Təəssüf ki, bu qurum Fransanın və Almaniyanın əlində oyuncağa çevrilib. Amma bütün bunlara baxmayaraq, heç nəyə nail ola bilməyəcək.

Dünyada nüfuzu gündən-günə artan Azərbaycan isə öz yolu ilə irəliləyir. Regionda, eləcə də dünyada sülhün bərqərar olmasına səy göstərir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycanın uğurları Fransanın kabusuna çevrilib

**"Azərbaycan nümayəndə heyətinin AŞPA ilə əməkdaşlığını və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarı alqışlanmalıdır. AŞPA-nın qış sessiyasının ilk iclasında Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnun müvəqqəti məhdudlaşdırılması təklifi uzun illərdir Avropa dövlətləri ilə qarşılıqlı əməkdaşlıq edən ölkəmizə qarşı hörmətsizlikdir. Azərbaycana qarşı qurulmuş bu riyakar oyunun əsas iştirakçılarından biri də Fransadır. Tarixən Azərbaycana, ümumilikdə türk dünyasına qarşı qərəzli münasibəti ilə tanınan Fransa ənənəvi riyakarlığından əl çəkmir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, burada Fransanı, Almaniyanı, eləcə də Avropanın bir sıra dairələrini narahat edən əsas məsələ erməni terrorçularının Qarabağdan çıxarılması və Qarabağ ermənilərini uzun illər siyasi girovluqda saxlayan qeyri-qanuni separatçı rejimin mövcudluğuna son qoyulmasıdır: "AŞPA-nın bu qərəzli addımı avropalı deputatların Azərbaycanın öz ərazisi üzərində suveren hüquqlarını tam bərpa etməsinə dözümsüzlüklərinin təzahürüdür. Ötən il AŞPA missiyalarının Azərbaycana səfər cəhdləri yalnız erməni məsələsi ilə bağlı olub. Proseslərə qərəzli yanaşan AŞPA ermənilərə və Ermənistanın müdafiəsinə qalxıb. AŞPA məhz ermənilərin müdafiəsinə yönəlik qətnamələr qəbul edib".

Deputatın sözlərinə görə, bütün bunlar sübut edir ki, bu qurum Azərbaycanın qələbəsindən narahatlığını açıq şəkildə ifadə etməkdən çəkinmir. Ədalətin təmin olunması, doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımızın tarixi yurdlarına qayıtması AŞPA-nı ciddi narahat edir. "Doğrudur, dövlətimiz hələ də Avropa Şurasının digər strukturlarında iştirakını davam etdirir. AŞ öz açıqlamasında bu qətnamənin Azərbaycanla əməkdaşlığın dayandırılması anlamına gəlmədiyini qeyd etsə də, düşünürəm ki, dövlətimizin bu mövzuda mövqeyi fərqlidir", - deyə müsahibimiz bildirib.

Müşfiq Cəfərov onu da söyləyib ki, AŞPA son addımı ilə siyasi riyakarlığını bir daha təsdiqlədi: "Orada mövcud olan dözülməz irqçilik, türkofobiya və islamofobiya getdikcə daha da kəskinləşir. Bütün bunların sayəsində dünyada nüfuzunu itirən Avropa Şurası Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmir. Ona görə də nəinki bu qurumda nümayəndə heyətimizin səsvermə hüququ, heç ümumilikdə AŞPA bizə maraqlı deyil. AŞPA-nın bu qərəzli təşəbbüsünü Azərbaycanda keçiriləcək seçkiləri müşayiət üçün dəvət edilməsi və ölkədə "siyasi məhbus"ların olması ilə əlaqələndirməsi əsassızdır".

Deputat bildirib ki, bu qurum Fransanın əlində alətə çevrilib: "44 günlük Vətən müharibəsində, xüsusilə də sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərində əldə etdiyimiz uğurlar Fransanın qorxulu kabusuna çevrilib. Azərbaycanın tarixi zəfərləri ilə barışa bilməyən Fransa və AŞPA kimi dövlət və qurumlar Ermənistana dəstək olmaq üçün hər vasitəyə əl atırlar. Bu dəfə isə antiazərbaycançı kampaniyasını Almaniya vasitəsilə reallaşdırmağa çalışan Makron Fransası uğursuzluğa düçar olub. Erməni lobbisinin diktəsi ilə oturub-duran Paris AŞPA-nı Azərbaycan əleyhinə təşkilatlanmış bir platformaya çevirsə də, bu vasitə ilə Azərbaycana təzyiq göstərə bilməyib. Azərbaycan nümayəndə heyəti AŞPA-dakı fəaliyyətini qeyri-müəyyən müddətə özü dayandırıb".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Başqasına "əriştə kəsmək" istəyir

### Öz fermerinə sahib çıxa bilməyən Fransa özgəsinə "yol" göstərir

**Fransada kənd təsərrüfatı işçilərinin qəzəbi bütün ölkəni bürüyüb. Artıq xeyli vaxtdır fermerlər saman bağlamaları və traktorlarla bir çox şəhərlərdə aparıcı yolları bağlayaraq blokadaya alıblar.**



Fermerlər istehsal xərclərinin artmasından, kənd təsərrüfatı məhsullarının idxalına, suvarma suyundan istifadəyə məhdudiyyət qoyulmasından, dizel yanacağının qiymətinin artmasından, bürokratik əngəllərdən, onlara qarşı edilən ədalətsizliklərdən narazıdırlar. Hökumət yollara çıxan fermerlərə əhəmiyyət vermir, etirazçılar isə tələbləri yerinə yetirilməyincə geri çəkilməyəcəklərini bəyan edirlər. İş o yerə çatıb ki, onlar dövlət binalarının qarşısına zibil atır, şəhərlərin ortasında peyin yandırırlar. Xoşagəlməyən iy və tüstü ətrafa yayılır. Beləliklə, az qala bütün Fransa üfunətə qərq olub. Etirazçılar artıq Tuluza, Strasburq, Lion, Bordo, Kale, Bove və digər şəhərlərdə yolları bağlayıblar.

Nümayişçilərin qəzəbi getdikcə daha da artır. Fermerlərin həmkarlar ittifaqı (FNSEA) böhrandan çıxmaq üçün hökumətə yüzə yaxın tələbin siyahısını göndərib. Bu sorğular 24 bənddə qruplaşdırılıb. İki kənd təsərrüfatı ittifaqı tərəfindən xüsusilə "təcili" yardıma və ekoloji məhdudiyyətlərin azaldılmasına çağırış olub. Onlar həmçinin əməkhaqqı ilə bağlı məsələlərə dərhal cavab tədbirlərini tələb edirlər.

Yollarda olmazın tıxac yaranır, bəzən qəza, hətta ölümlə, xəsarətlə nəticələnən hadisələr baş verir. Hələ bir neçə gün əvvəl Fransanın cənub-qərbində, Pamiers kommunasında RD119 körpüsünün yaxınlığında sürücü avtomobili sürətlə təsərrüfatçıların üzərinə sürüb və etirazçılardan bir nəfər dünyasını dəyişib, iki nəfər isə ağır yaralanıb. Onların üçü də bir ailənin üzvləridir. Həlak olan fermer qadındır, o, təsərrüfatçıların nümayişinə əri və qızı ilə birlikdə qoşulubmuş.

Deyilənlərə görə, nümayişçilərin üstünə "yeriyən" avtomobildəkilər erməni millətindən olublar. Bax, belə! Qoy Fransa dövləti erməniləri nə qədər istəyir dəstəkləsin, əzizləsin, onlara yersiz olaraq qəhmər çıxsın. Makronun nə vecinə ki, ermənin maşınının təkəri altında qalan binəva fransız kəndlisidir. Deyə bilərlər ki, bu , tıxac olan yolda baş verən bir hadisə, bir təsadüfdür. Olsun. Amma bu da bir həqiqətdir ki, erməni onu qoltuğu altında saxlayanı hər an qapmağa, öldürməyə hazırdır. Bu, erməni xislətidir...

Kənd Təsərrüfatı Sahibkarları İttifaqları Milli Federasiyasının (FNSEA) prezidenti Arnaud Russo mətbuata bildirib ki, sözügedən hadisə yerinə fövqəladə hallar və təhlükəsizlik sisteminin nümayəndələri gəlib, yanğınsöndürənlər, polis əməkdaşları və jandarmlar səfərbər olunublar.

Bu cür hadisələr fermerlərin qəzəbini daha da artırır. Bir neçə gün əvvəl fermerlər həmçinin Parisin İle-de-Frans kommunasında hökumətin siyasətinə qarşı milli etiraz hərəkatı çərçivəsində Parisdə yol blokadası elan ediblər. Bu barədə BFMTV məlumat yayıb. Nəşr qeyd edir ki, həmkarlar ittifaqları, "Jeunes" kənd təsərrüfatı işçiləri və fermerlərin hüquqlarının müdafiəsi üzrə aparıcı təşkilatlar şəhərin bütün əsas nəqliyyat arteriyalarını bağlamağa çağırıblar.

Ötən gün isə təsərrüfatçılar ölkələrində üzləşdikləri böhrana etiraz edərək Nimes bələdiyyəsində gömrük idarəsini yandırıblar. "X" sosial şəbəkəsində Gare departamentinin prefekti Cerom Bonnetin verdiyi məlumata görə, bunun səbəbinin kənd təsərrüfatı texnikasından istifadə edən insanların içəriyə girməsi olduğu düşünülür.

Görəsən, öz gözündə tiri görməyən Fransa niyə başqalarının gözündə tük axtarır? Öz vətəndaşının səsinə qulaq asmayan, özünün zillət çəkən kəndlisinin qayğısına qalmayan, küçələrə çıxmasına rəvac verən bir ölkə niyə başqalarının işinə qarışır, haqlı hərəkətlərinə qara yaxır? Niyə Ermənistanın işğalçılıq siyasətinə daim haqq qazandırmaq üçün dəridən-qabıqdan çıxır? Suallar çox, onların cavabları da çoxdur. Beləbləri haqqında bizlərdə deyirlər ki, özünə umac ova bilmir, başqasına "əriştə kəsmək" istəyir.

Əlavə etmək istədiyimiz isə yalnız odur ki, Fransanın mütəmadi böhtanlar atdığı Azərbaycanda bircə fermer də öz dövlətindən narazı deyil. Belə ki, bizim olkəmizdə kənd təsərrüfatı da dövlətdən böyük dəstək alır. Məsələn, bitkiçilik sahəsində məhsul istehsalı üçün sərf edilən yanacaq və motor yağlarının dəyərinin 50 faizinin dövlət tərəfindən ödənilməsinin təmin edilməsi məqsədilə əkin sahələrinin hər hektarına (o cümlədən təkrar əkinlərə) görə 50 manat subsidiya verilir. Kənd təsərrüfatı istehsalı ilə məşğul olanlara hər min kubmetr suvarma suyunun qiyməti 0,5 manat müəyyən edilib. "Aqroservis" ASC tərəfindən satılan müasir suvarma avadanlıqlarının dəyərinin 40 faizi büdcədən ödənilir. Gübrələrin, pestisidlərin və sənaye üsulu ilə istehsal edilmiş biohumusun dəyərinin 70 faizi də həmçinin. Eləcə də toxum və ting istehsalına və satışına görə subsidiya verilir. Heyvandarlıq sahəsində fəaliyyət göstərənlərə də dövlətin kompleks dəstək tədbirləri var. Azərbaycan fermeri bu dəstəkdən istifadə edərək tezliklə Qarabağda və Şərqi Zəngəzurda da torpağı cana gətirəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Ermənilər Fransada qadın fermeri öldürdülər

### Ölkədə baş verən etiraz aksiyaları getdikcə daha da böyüyür



**Fransada on minlərlə fermer hökumətin siyasətindən narazı olduqları üçün, demək olar ki, bütün ölkədə genişmiqyaslı etirazlarda iştirak edir.**

Aksiyalara 41 mindən çox traktor və digər texnika cəlb edilib. Bu barədə aqrarilərin aparıcı həmkarlar ittifaqı - Fransa Milli Kənd Təsərrüfatı Həmkarlar İttifaqları Federasiyası (FNSEA) məlumat yayıb. Daha əvvəl FNSEA prezidenti Arno Russo fermerlərin etirazlarının Fransa metropoliyasının Avropa hissəsinin 96 departamentindən 85-nə yayılacağını bildirib.

Öz növbəsində, yerli media hökumətin siyasətindən narazı olan fermerlərin şənbə günü Makron və onun xanımı Bricitin ölkənin şimalındakı Le Touquet-Paris-Plage kommunasında yerləşən bağ evi yaxınlığında etiraz aksiyası keçirmək niyyətində olduqlarını bildirib. Fransada fermer etirazçıları Nim kommunasında gömrük idarəsini yandırıblar. Bunu Gard departamentinin prefekti Jerom Bonnet "X" sosial şəbəkəsində bildirib.

Bu, Fransada etiraz edən fermerlər tərəfindən törədilən ilk yanğın deyil. Belə ki, yanvarın 26-da etirazçılar Narbonnada sosial sığorta xidmətinin binasına od vurublar.

Bundan əvvəl nümayişçilər Ajen kommunasının prefekturasının binasına yanan təkərlər atıb və peyin səpiblər.

Yanvarın 18-dən Fransada fermerlərin kütləvi etirazları davam edir. Səbəb dizel yanacağının gözlənilən bahalaşması, Ukrayna taxılının ölkəyə idxalı ilə əlaqədar gəlirin azalması və bürokratik prosedurların mürəkkəbliyi olub. Fermerlər etiraz əlaməti olaraq daha çox yolları traktor və kombaynlarla bağlayırlar.

Fransanın yeni baş naziri Qabriel Attal etirazçıların tələblərini qismən təmin etməli olan bir sıra tədbirləri açıqlayıb. Bunlara fermerlər üçün 50 milyon avroluq təcili yardım fondunun yaradılması və kənd təsərrüfatı ilə bağlı qayda və normaların sadələşdirilməsi daxildir.

Bu arada Fransada məskunlaşmış qanunsuz erməni mühacirlər etiraz aksiyasında qadın fermeri maşınla vuraraq öldürüblər. "Le Parisien" qəzeti xəbər verir ki, qadın fermer etiraz aksiyasında həlak olub, onun ailəsinin iki üzvü isə qanunsuz erməni mühacirlərin avtomobillə vurulması nəticəsində ağır yaralanıb.

Məlumata görə, maşın bilərəkdən etiraz aksiyası iştirakçılarını yoldan ayıran saman baryeri vurub. Saman blokunun arxasında isə üç nəfərdən ibarət ailə olub. Qadın yerindəcə keçinib, azyaşlı qızı və əri isə ağır xəsarətlə xəstəxanaya yerləşdirilib. Qızın ürəyi dayanıb, lakin həkimlər onun həyatını xilas edə biliblər. Maşında evli cütlük və onun dostu olub. Onların Ermənistan vətəndaşlığı var və ağır çinayət törətdiklərinə baxmayaraq, hakimiyyət ermənilərə ölkəni tərk etməyi əmr etməklə kifayətlənib. Nəşrin yazdığına görə, Ermənistandan qaçan cütlük 2022-ci ilin martından Fransada sığınacaqla bağlı qərar gözləyirmiş.

Göründüyü kimi, ağır cinayət əməli olsa da, ermənilər həbs edilməyiblər. Amma hadisəni törədənlər müsəlman olsaydılar, bütün dünyaya car çəkərək bu olayı mütləq terror hadisəsi kimi qiymətləndirib onlara qarşı təqiblərə başlayacaqdılar.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Fransa regionda sülhə və sabitliyə mane olur

**Ermənistanın Qarabağ savaşındakı məğlubiyyəti Fransanın Cənubi Qafqaz planlarını alt-üst edib. Uzunmüddət Qarabağ münaqişəsinə vasitəçilik edən Fransa Vətən müharibəsi zamanı oyun qaydalarını kobud surətdə pozduğu üçün Azərbaycan ona "qırmızı vərəqə" göstərərək meydandan çıxarıb.**

Reallıq budur ki, ölkəmiz döyüş meydanında Ermənistanı, siyasi-diplomatik masada Fransanı sarsıdıcı məğlubiyyətə uğradıb. Əslinə qalsa, Fransa Emənistanı nümayişkaranə şəkildə müdafiə etməklə özünü ifşa etdi. "Vasitəçi" kimi etibardan düşdü, nüfuzunu itirdi... Bir sözlə, bu ölkənin Ermənistan üzərindən qurduğu Cənubi Qafqaz siyasəti bir mənalı olaraq iflasa uğradı.

Özünü Ermənistanın dostu, müttəfiqi, müdafiəçisi kimi göstərən rəsmi Paris, əslində, onun ən böyük düşmənidir. Heç sirr də deyil ki, Qarabağ münaqişəsinin ssenarisi Fransada hazırlanıb, Ermənistan bu bədnam layihənin ağılsız icraçısı olub.

Ermənistandan 200 min azərbaycanlını doğma yurdlarından didərgin salanlar, Qarabağda torpaqlarımızı işğal edib xarabazara çevirənlər bu gün ölkəmizə qarşı açıq düşmənçilik edən islamofob dövlətlərdən, xüsusilə də Fransadan razılıq almasaydılar belə, geniş miqyasda insanlığa və hüquqa zidd vəhşiliklər edə bilməzdilər.

Amma uduzublar. Planları pozulub. Hətta özlərinin də etiraf etdikləri kimi sarsılıblar. Öz məkrli niyyətlərini həyat keçirmək üçün hər gün hansısa bir uğursuz plan qururlar. Fransada fəaliyyət göstərən erməni lobbisinin və onların təsiri altında olan Fransa rəsmilərinin və siyasətçilərinin təhriki ilə həmin ölkənin siyasi dairələri, o cümlədən Senatı və Milli Assambleyası birbaşa Yelisey sarayından alınmış təlimat əsasında açıq irqçi, azərbaycanofob və islamofob fəaliyyətlərini daha da intensivləşdirmişdilər. Onlar beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirərək Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı ədalətsiz addımlar atmaqdan belə çəkinmirlər.

Fransa parlamentinin hər iki palatası ölkəmiz əleyhinə ədalətsiz qətnamələr istehsal edən bir quruma çevrilib. Lakin ədalətsiz hücumlarının nəticə vermədiyini anlayan Emmanuel Makron anti-Azərbaycan koalisiyasını genişləndirməyə, AŞPA-nı da öz siyasi oyunlarına cəlb etməyə çalışır.



Aydın məsələdir ki, Avropa İttifaqını da, AŞPA-nı da, Fransanı da Azərbaycan vətəndaşının hüququ və taleyi qətiyyən düşündürmür. Bu təşkilatların bəzi dövlətlərin maraqlarını həyata keçirmək üçün təzyiq vasitəsi olduğu da heç kimə sirr deyil. Bu gün Fransanın sifarişi ilə AŞPA Azərbaycanda insan hüquqlarının pozulmasını iddia edirsə, sabah da bu ölkənin yedəyində gedən digər bir beynəlxalq təşkilat başqa bir bəhanə ilə üstümüzə gələcəyi bizi təəccübləndirməməlidir və bu, gözləniləndir.

Azərbaycan həmişə regionda sülhün və sabitliyin tərəfdarı olub. 2020-ci il sentyabrın 27-də Ermənistanın təcavüzkar hücumunun qarşısı alınıb, torpaqlarımız işğaldan azad olunana kimi problemin sülh yolu ilə həllinin tərəfdarı olub. Bu illər ərzində dəfələrlə Ermənistanın hərbi-siyasi rəhbərliyinin Azərbaycanın yeni ərazilərini işğal edəcəkləri, tanklarını Bakıya sürəcəkləri haqqında sərsəmləmələrini eşitmişik də. Amma bunlara baxmayaraq, Azərbaycan Ermənistana sülh təklif edən və hər an sülhə sadiq olduğunu əməli ilə sübut edən ölkədir.

Yeri gəlmişkən, Tbilisidə səfərdə olan Ermənistanın baş naziri Nikol Paşinyan gürcü həmkarı ilə mətbuat konfransı keçirərkən deyib: "Biz ümumi qəbul edilmiş prinsiplərə əsaslanaraq Azərbaycanla sülh sazişinin imzalanması ilə bağlı razılıq əldə etdikdə və bunu imzaladıqdan sonra regionda sülh əldə olunacaq".

Nə yaxşı ki, Yelisey sarayının girovuna çevrilən Ermənistan rəhbərliyi bunu anlayır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 40 **QƏRAR** Bakı şəhəri, 24 yanvar 2024-cü il

## "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 768 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına "say həddinin" sözlərindən sonra ", onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin)" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin işçilərinin əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşına əlavələr, mükafatlar və digər ödənişlər)" təsdiq edilsin (əlavə olunur).";

1.3. 3-cü hissədə "10080 (on min səksən)" sözləri "31466 (otuz bir min dörd yüz altmış altı)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxs bu Qərardan irəli gələn məsələləri həll etsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

### Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin işçilərinin əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşına əlavələr, mükafatlar və digər ödənişlər)

| Sıra №-si | Vəzifələrin adı | Əməkhaqlarının məbləği | |
|---|---|---|---|
| | | aylıq vəzifə maaşı (manatla) | mükafat (manatla) |
| 1. | Direktor | 2100 | İl ərzində 2 (iki) aylıq vəzifə maaşı həcmində |
| 2. | Direktor müavini | 1850 | |
| 3. | Şöbə müdiri | 1500 | |
| 4. | Baş mütəxəssis, baş mühasib | 1300 | |
| 5. | Aparıcı mütəxəssis | 1150 | |
| 6. | Mütəxəssis | 1000 | |

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 42 **QƏRAR** Bakı şəhəri, 25 yanvar 2024-cü il

## "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nın təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xüsusi nəqliyyat almaq üçün tibbi göstərişləri olan əlillərin avtomobil və motorlu araba ilə təmin edilməsi qaydaları haqqında" 1993-cü il 5 avqust tarixli 433 nömrəli Qərarında dəyişiklik edilməsi və "İkinci Dünya müharibəsi iştirakçılarının protez-ortopediya məmulatları, əlillərin, sağlamlıq imkanları məhdud uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərək ziyan çəkmiş vətəndaşların protez-ortopediya məmulatları, əlil kreslo-veloarabaları, texniki və başqa reabilitasiya vasitələri ilə təmin edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2002-ci il 8 iyul tarixli 103 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı ilə təsdiq edilmiş "DOST" mərkəzlərində xidmət göstərilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında" 2023-cü il 26 iyul tarixli 2249 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli, "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2012-ci il 14 mart tarixli 600 nömrəli, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2013-cü il 4 iyul tarixli 936 nömrəli, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 18 iyul tarixli 213 nömrəli, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 24 avqust tarixli 233 nömrəli, "Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı tədbirlər və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 6 noyabr tarixli 326 nömrəli və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanununun tətbiqi və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 21 dekabr tarixli 421 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2023-cü il 14 dekabr tarixli 2386 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nın təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xüsusi nəqliyyat almaq üçün tibbi göstərişləri olan əlillərin avtomobil və motorlu araba ilə təmin edilməsi qaydaları haqqında" 1993-cü il 5 avqust tarixli 433 nömrəli Qərarında dəyişiklik edilməsi və "İkinci Dünya müharibəsi iştirakçılarının protez-ortopediya məmulatları, əlillərin, sağlamlıq imkanları məhdud uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərək ziyan çəkmiş vətəndaşların protez-ortopediya məmulatları, əlil kreslo-veloarabaları, texniki və başqa reabilitasiya vasitələri ilə təmin edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2002-ci il 8 iyul tarixli 103 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1602 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissə ləğv edilsin.
2. Həmin Qərarla təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"na aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. Bu Qaydanın 2.2-ci bəndində qeyd olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər vətəndaşdan tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vətəndaşın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya vətəndaş tərəfindən təmin edilir.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 43 **QƏRAR** Bakı şəhəri, 25 yanvar 2024-cü il

## "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Övladlığa götürməyə, qəyyumluğa və himayəyə imkan verməyən xəstəliklərin Siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 avqust tarixli 141 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 645 (Cild I) adına, 1-ci hissəsinə və həmin Qərarla təsdiq edilmiş "Övladlığa götürməyə, qəyyumluğa və himayəyə imkan verməyən xəstəliklərin Siyahısı"nın adına "Övladlığa götürməyə," sözlərindən sonra "himayədar ailə olmağa," sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 7-ci hissəsinin iyirmi səkkizinci abzası aşağıdakı redaksiyada verilsin:

"Valideyn himayəsindən məhrum olmuş uşaqları övladlığa götürməyi arzu edən şəxslərin (valideyn-namizəd) övladlığa uşaq götürmək və himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) himayədar valideyn olmaq barədə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığı ərizə notarial qaydada təsdiq edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"na müvafiq olaraq "Elektron notariat" informasiya sistemi vasitəsilə "Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığagötürmə" altsisteminə ötürülür. Valideyn-namizədin və himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) ərizədə qeyd etdiyi məlumatlarda, o cümlədən ailə tərkibində, eləcə də onların faktiki yaşadığı ünvanda dəyişiklik olduqda, həmin şəxslərin məlumatlar yenilənməklə yeni ərizəsi notarial qaydada təsdiqlənərək 10 (on) gün müddətində təkrar olaraq altsistemə ötürülür.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.7-1-ci bəndə "şəxslərin" sözündən sonra "himayədar ailəyə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin)" və "uşaqlar" sözündən sonra ", himayədar ailə" sözləri əlavə edilsin;

3.2. 2.19-cu bənd üzrə:

3.2.1. birinci abzasda "yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya (bundan sonra - Komissiya)" sözləri "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə" sözləri ilə əvəz edilsin;

3.2.2. ikinci abzasın birinci cümləsində "Komissiya" sözü "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə, "qəyyumluq orqanının razılığını və ya göstərişini" sözləri "məlumatı" sözü ilə əvəz edilsin;

3.2.3. ikinci abzasın üçüncü cümləsində "Komissiyanın" sözü "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin" sözləri ilə əvəz edilsin;

3.3. 2.19-1-ci bənd üzrə:

3.3.1. birinci abzasda "Komissiyaya" sözü "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə" sözləri ilə əvəz edilsin;

3.3.2. ikinci abzasın birinci cümləsində "Komissiya" sözü "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə, "qəyyumluq orqanının razılığını və ya göstərişini" sözləri "məlumatı" sözü ilə əvəz edilsin;

3.4. 9.15-ci bəndə birinci halda "Ədliyyə Nazirliyinin," sözlərindən sonra "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin," sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 66 (Cild I) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"na Əlavə - "Elektron anketin forması"nın 18-ci hissəsinə "olması" sözündən sonra ", himayədar ailənin tərbiyəsinə verilməsi" sözləri, "şəxs" sözündən sonra ", himayədar valideyn(lər)" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457 (Cild I) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1.1-ci yarımbənddə "yerli icra hakimiyyəti orqanlarına" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumlarına, "DOST" mərkəzlərinə və ya Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə" sözləri ilə əvəz edilsin;

5.2. 2.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.3. Müraciətə daxil olduqdan 10 (on) iş günü müddətində "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.4-cü maddəsi nəzərə alınaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən baxılır və Azərbaycan Respublikası Ailə Məcəlləsinin 116.7-ci və 116.8-ci maddələrinə uyğun olaraq, uşağın sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə qərar qəbul edilir.".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.3-cü bənddə "uşağın yaşayış yeri üzrə müvafiq yerli icra hakimiyyəti orqanına" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin (bundan sonra - Agentlik) yerli qurumlarına, "DOST" mərkəzlərinə və ya Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə" sözləri ilə əvəz edilsin;

6.2. 2.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.5. Müraciətə daxil olduqdan 10 (on) iş günü müddətində Agentlik tərəfindən baxılaraq, uşağın Azərbaycan Respublikası Ailə Məcəlləsinin 116.7-ci və 116.8-ci maddələrinə uyğun olaraq qrup evinə yerləşdirilməsi barədə qərar qəbul edilir və qərarın surəti qrup evinin tabe olduğu dövlət orqanına (qurumuna) göndərilir.";

6.3. 2.9-cu bənd üzrə:

6.3.1. 2.9-cu bəndə "Uşaq" sözündən sonra "Agentliyin qərarı əsasında" sözləri əlavə edilsin;

6.3.2. 2.9.1-ci yarımbənddən "qayğı başa çatdıqdan sonra" sözləri çıxarılsın;

6.3.3. 2.9.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.9.2. övladlığa və ya himayədar ailəyə verildikdə;";

6.4. aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

"2.9-1. Uşağı götürmək istəyən valideynləri (digər qanuni nümayəndələri) Agentliyin yerli qurumlarına, "DOST" mərkəzlərinə və ya Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə ərizə ilə müraciət edirlər. Agentlik tərəfindən müraciətə 5 (beş) iş günü müddətində baxılaraq, uşağın valideynlərinə (digər qanuni nümayəndələrinə) qaytarılmasının mümkünlüyü qiymətləndirilərək qərar qəbul edilir.".

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415 (Cild I) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.3-cü bənddə "uşağın yaşayış yeri üzrə müvafiq yerli icra hakimiyyəti orqanına" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin (bundan sonra - Agentlik) yerli qurumlarına, "DOST" mərkəzlərinə və ya Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə" sözləri ilə əvəz edilsin;

7.2. 2.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.5. Müraciətə daxil olduqdan 10 (on) iş günü müddətində Agentlik tərəfindən baxılaraq, uşağın Azərbaycan Respublikası Ailə Məcəlləsinin 116.7-ci və 116.8-ci maddələrinə uyğun olaraq müəssisəyə yerləşdirilməsi barədə qərar qəbul edilir və qərarın surəti müəssisənin tabe olduğu dövlət orqanına (qurumuna) göndərilir.";

7.3. 2.10-cu bənd üzrə:

7.3.1. 2.10-cu bəndə "Uşaq" sözündən sonra "Agentliyin qərarı əsasında" sözləri əlavə edilsin;

7.3.2. 2.10.1-ci yarımbənddən "qayğı başa çatdıqdan sonra" sözləri çıxarılsın;

7.3.3. 2.10.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.10.2. övladlığa və ya himayədar ailəyə verildikdə;";

7.4. aşağıdakı məzmunda 2.10-1-ci bənd əlavə edilsin:

"2.10-1. Uşağı götürmək istəyən valideynləri (digər qanuni nümayəndələri) Agentliyin yerli qurumlarına "DOST" mərkəzlərinə və ya Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə ərizə ilə müraciət edirlər. Agentlik tərəfindən müraciətə 5 (beş) iş günü müddətində baxılaraq, uşağın valideynlərinə (digər qanuni nümayəndələrinə) qaytarılmasının mümkünlüyü qiymətləndirilərək qərar qəbul edilir.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 41 **QƏRAR** Bakı şəhəri, 24 yanvar 2024-cü il

## "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1357 (Cild I) 3.2-ci bəndi ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 46 **QƏRAR** Bakı şəhəri, 25 yanvar 2024-cü il

## "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 935-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 935-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 aprel tarixli 77 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 285 (Cild I) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin "İqtisadi islahatların həyata keçirilməsi ilə bağlı xərclər" maddəsində nəzərdə tutulan vəsaitdən istifadə olunması haqqında Əsasnamə"nin 1.2.2-ci yarımbəndinin dördüncü abzasından "sistemi" sözü çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 3 yanvar tarixli 1 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 72 (Cild I) ilə təsdiq edilmiş "İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin) iş yerlərinin Siyahısı"nın 16-cı hissəsindən "sistemi" sözü çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 sentyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 9, maddə 575 (Cild I) ilə təsdiq edilmiş "Narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinin və vəzifələrin Siyahısı və məhdudiyyətin müddəti"nin 1-ci hissəsinin 11-ci bəndində "bank sistemində" sözləri "banklarda" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 15 fevral tarixli 23 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 138 (Cild I) ilə təsdiq edilmiş "Fəaliyyətin məhdudlaşdırılması tələb olunan ayrı-ayrı peşə növlərinin və yüksək təhlükə mənbəyi ilə bağlı işlərin Siyahısı"nın 17-ci hissəsində "bank sistemində" sözləri "banklarda" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 fevral tarixli 28 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 109 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın onuncu abzasında "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 977 (Cild I) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin (şəxslərinin), habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlığının və yenidən hazırlığının keçirilməsi Qaydası"na 1 nömrəli əlavə - "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin (şəxslərinin) peşəkarlıq səriştəsinə dair Proqram"ın 10.2-ci bəndinin 2-ci sütununun yeddinci abzasında "sistemi" sözü "fəaliyyəti" sözü ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 44 **QƏRAR** Bakı şəhəri, 25 yanvar 2024-cü il

## "AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 196 (Cild I) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamə"yə aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxsin və ya fərdi sahibkarın mülkiyyətində, icarəsində və ya istifadəsində olan avtonəqliyyat vasitələrinin dövlət texniki baxışından keçməsi barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə ötürülür.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197 (Cild I) ilə təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 1.8-ci bənd əlavə edilsin:

"1.8. Sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin sürücülük vəsiqəsi üzrə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə ötürülür.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 10 iyul tarixli 116 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 563 (Cild I) ilə təsdiq edilmiş "Notariat qaydasında təsdiq edilmiş sənədlərə bərabər tutulan sənədlərin müvafiq vəzifəli şəxslər tərəfindən təsdiq edilməsi Qaydası"nın I bölməsinə aşağıdakı məzmunda 27-ci hissə əlavə edilsin:

"27. Sərnişin və yük daşımaları üçün istifadə olunan avtonəqliyyat vasitələri ilə bağlı verilən etibarnamələr üzrə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə ötürülür.".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 7-ci hissəsinə aşağıdakı məzmunda otuz birinci abzas əlavə edilsin:

"Sərnişin və yük daşımaları üçün istifadə olunan avtonəqliyyat vasitələri ilə bağlı verilən etibarnamələr üzrə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə ötürülür.".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384 (Cild I) ilə təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"na aşağıdakı məzmunda 6.8-2-ci bənd əlavə edilsin:

"6.8-2. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər barədə dövlət reyestrinə daxil edilən məlumatlar (kommersiya hüquqi şəxslərinin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə ötürülür.".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 188 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"na aşağıdakı məzmunda 3.10-cu bənd əlavə edilsin:

"3.10. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslərin və fərdi sahibkarların vergi və məcburi dövlət sosial sığorta haqqı borcunun olub-olmaması barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə ötürülür.".

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 145 (Cild I) ilə təsdiq edilmiş "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. Avtovağzalın (avtostansiyanın) fəaliyyət göstərməsi üçün verilmiş pasport üzrə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə daxil edilir.".

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 601 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"na aşağıdakı məzmunda 3.21-ci bənd əlavə edilsin:

"3.21. Ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə verilmiş icazə üzrə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə daxil edilir.".

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 745 (Cild I) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. aşağıdakı məzmunda 4.33-cü bənd əlavə edilsin:

"4.33. Avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını həyata keçirən hüquqi şəxslər və fərdi sahibkarlar, onların mülkiyyətində, istifadəsində və ya icarəsində olan avtonəqliyyat vasitələri, avtomobil nəqliyyatı vasitəsilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası üzrə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, həmçinin avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanması tarixi və sığorta müqaviləsinin müddəti, sürücülərin sürücülük vəsiqəsi, habelə müntəzəm avtobus marşrutları və müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında bağlanılmış müqavilələr barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə daxil edilir (ötürülür).";

9.2. 6.3-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Şəhərdaxili (rayondaxili) müntəzəm marşrutlar üzrə sərnişin daşınması üçün ödəniş alətinə vəsait yüklənməsi, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sistemi vasitəsilə təmin edilir.";

9.3. 6.5-ci bəndin birinci abzasının üçüncü cümləsi dördüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Şəhərlərarası (rayonlararası) və beynəlxalq müntəzəm marşrutlar üzrə biletlərin elektron qaydada əldə edilməsi Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sistemi vasitəsilə təmin edilir və bilet üzrə məlumatlar informasiya sisteminə daxil edilir.";

9.4. aşağıdakı məzmunda 8.5-1-ci bənd əlavə edilsin:

"8.5-1. Qeyri-müntəzəm sərnişin daşımaları üçün formulyarın elektron qaydada tərtib edilməsi Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sistemi vasitəsilə təmin edilir və formulyar üzrə məlumatlar informasiya sisteminə daxil edilir.";

9.5. 10.2.4-cü yarımbəndə "biletlərini" sözündən sonra "(elektron qaydada əldə edilmiş biletlər istisna olmaqla)" sözləri əlavə edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 746 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 14 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"na aşağıdakı məzmunda 1.9-cu bənd əlavə edilsin:

"1.9. Avtomobil nəqliyyatı ilə yük daşımalarını həyata keçirən hüquqi şəxslər və fərdi sahibkarlar, habelə onların mülkiyyətində, istifadəsində və ya icarəsində olan avtonəqliyyat vasitələri barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə daxil edilir (ötürülür).".

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 270 (Cild I) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"na aşağıdakı məzmunda 1.9-cu bənd əlavə edilsin:

"1.9. Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında bağlanılmış müqavilələr və müntəzəm avtobus marşrutları barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə daxil edilir.".

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1233 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"ın 2.2-ci bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Avtomobil nəqliyyatının infrastruktur obyektləri sahiblərinin müraciətlərində qeyd olunan daşınmaz əmlaklarla bağlı daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış mülkiyyət, icarə və istifadə hüquqlarına dair məlumatlar ("Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əsaslandırılmış sorğu əsasında) Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə ötürülür.".

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 157 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 751 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 13 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"ın 19-cu hissəsi aşağıdakı redaksiyada verilsin:

"19. Proqrama uyğun hazırlıq keçmiş sürücülər və onlara verilmiş şəhadətnamələr barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə daxil edilir (ötürülür). Hazırlıq keçmiş sürücülərin və onlara verilmiş şəhadətnamələrin uçotu "AYNA" informasiya sistemi vasitəsilə təmin edilir.".

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 may tarixli 249 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 982 (Cild I) ilə təsdiq edilmiş "Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər üçün iş və istirahət rejimi, nəqliyyat vasitələrinin taxoqraflarla təchiz edilməsi, onlardan istifadə, onlara xidmət və fəaliyyətinə nəzarət Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. 6.2-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xidmət mərkəzlərinin (servis emalatxanalarının) registrdə qeydiyyata alınması Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sistemi vasitəsilə təmin edilir və onlar barədə məlumatlar informasiya sisteminə daxil edilir.";

14.2. 9.2-ci bəndə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Taxoqraf kartlarının verilməsi üçün elektron qaydada müraciətlərin qəbulu Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sistemi vasitəsilə də həyata keçirilir.";

14.3. aşağıdakı məzmunda 9.18-ci bənd əlavə edilsin:

"9.18. Taxoqraf kartlarının qeydiyyatı və onların verildiyi şəxslərin uçotunun aparılması Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sistemi vasitəsilə təmin edilir və onlar barədə məlumatlar informasiya sisteminə daxil edilir.".

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 977 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin (şəxslərinin), habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlığının və yenidən hazırlığının keçirilməsi Qaydası"nın 3.8-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.8. Hazırlıq və yenidən hazırlıq keçmiş operatorun məsul şəxsi (məsul şəxsləri), həmçinin beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülər və onlara verilmiş şəhadətnamələr barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sisteminə daxil edilir. Hazırlıq və yenidən hazırlıq keçmiş operatorun məsul şəxsinin (məsul şəxslərinin), həmçinin beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin və onlara verilmiş şəhadətnamələrin uçotu "AYNA" informasiya sistemi vasitəsilə təmin edilir.".

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316 (Cild I) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın 6-cı hissəsinə aşağıdakı məzmunda 95-ci sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 95. | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi | |

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 aprel tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 397) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarına buraxılış Qaydaları"nın 1.2-ci bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Operatorların uçotunun aparılması Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "AYNA" informasiya sistemi vasitəsilə təmin edilir və onların uçotu üzrə məlumatlar informasiya sisteminə daxil edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 45 **QƏRAR** Bakı şəhəri, 25 yanvar 2024-cü il

## "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında icarəsinə yol verilməyən müəssisələr haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 10 avqust tarixli 431 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) birinci hissəsinin on üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Mərkəzi Bankı və maliyyə bazarlarında fəaliyyət göstərən nəzarət subyektləri".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 9 oktyabr tarixli 162 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 1022 (Cild I) ilə təsdiq edilmiş "Qiymətli metalların və qiymətli daşların, onlardan hazırlanan məhsulların uçotu, saxlanılması, daşınması, hesabatının aparılması, habelə onlarla əməliyyatlar aparılması Qaydaları"nın 19-cu hissəsi aşağıdakı redaksiyada verilsin:

"19. Azərbaycan Respublikası Mərkəzi Bankının sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatları "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq saxlanılır və idarə olunur.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 746 (Cild I) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nın 1.7.3-cü yarımbəndində "Milli" sözü "Mərkəzi" sözü ilə əvəz edilsin.

4. "Fərdi məlumatların mühafizəsinə dair Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 161 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 827 (Cild I) 2-ci hissəsində "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

5. "Beynəlxalq standartlara uyğun xarici borc və beynəlxalq investisiyalar statistikasının təşkili, ümumiləşdirilməsi və yayılması mexanizmlərinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respub-likası Nazirlər Kabinetinin 2015-ci il 22 aprel tarixli 118 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 481 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci hissədən "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası," sözləri çıxarılsın;

5.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Beynəlxalq metodologiyaya uyğun olaraq ölkənin icmal xarici borcu və beynəlxalq investisiyalar statistikasının təşkili, ümumiləşdirilməsi və yayılması mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Dövlət Neft Fondu və mərkəzi icra hakimiyyəti orqanları arasında vəzifə bölgüsü"nün "İcraçılar" sütununun 4.3-cü və 4.6-cı bəndlərindən ", Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri, 10.5-ci bəndindən "Maliyyə Bazarlarına Nəzarət Palatası," sözləri çıxarılsın;

5.3. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Beynəlxalq standartlara uyğun xarici borc statistikası və beynəlxalq investisiyalar balansına daxil olan göstəricilərin siyahısı və strukturu"nun "2. Beynəlxalq investisiyalar balansına daxil olan göstəricilərin strukturu və siyahısı" cədvəlinin "Göstəricinin adı" sütununda hər beş halda "qiymətli borc" sözləri "borc qiymətli" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 sentyabr tarixli 408 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1936 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun tərkibi"nin "Koordinasiya Qrupunun üzvləri" bölməsindən "Xəyyam İsmayılov - Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Bank fəaliyyətinə nəzarət departamentinin bank olmayan kredit təşkilatlarına nəzarət idarəsinin rəisi" sözləri çıxarılsın.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 434 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2149 (Cild I) ilə təsdiq edilmiş "Rezidentlər və qeyri-rezidentlər tərəfindən milli valyutanın nağd şəkildə və milli valyutada ifadə olunmuş qiymətli kağızların Azərbaycan Respublikasından çıxarılması və Azərbaycan Respublikasına gətirilməsi zamanı bəyan edilməsi Qaydası"nın 2.1-ci və 2.3-cü bəndlərinə "yubiley" sözündən əvvəl "investisiya," sözü əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın 32-ci hissəsindən "İdarə Heyətinin" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 47 **QƏRAR** Bakı şəhəri, 26 yanvar 2024-cü il

## "Mühafizəsi təmin edilən mühüm əhəmiyyətli elektroenergetika obyektlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin 5-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Mühafizəsi təmin edilən mühüm əhəmiyyətli elektroenergetika obyektlərinin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahıya uyğun olaraq mühüm əhəmiyyətli elektroenergetika obyektlərinin mühafizəsi "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına təmin edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 yanvar tarixli 47 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

### Mühafizəsi təmin edilən mühüm əhəmiyyətli elektroenergetika obyektlərinin siyahısı

| Sıra №-si | Obyektin adı | Obyektin yerləşdiyi yer | Obyektin mühafizəsinin maliyyələşmə mənbəyi |
|---|---|---|---|
| 1. | "Azərbaycan" İstilik Elektrik Stansiyası | Mingəçevir şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 2. | "Şimal" Elektrik Stansiyası | Bakı şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 3. | "Bakı" İstilik Elektrik Mərkəzi | Bakı şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 4. | "Sumqayıt" Elektrik Stansiyası | Sumqayıt şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 5. | "Cənub" Elektrik Stansiyası | Şirvan şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 6. | "Qobu" Elektrik Stansiyası | Abşeron rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 7. | "Mingəçevir" Su-Elektrik Stansiyası silsiləsi | Mingəçevir şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 8. | "Şəmkir" Su-Elektrik Stansiyası silsiləsi | Şəmkir rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 9. | "Tərtər" Su-Elektrik Stansiyası | Tərtər rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 10. | 500 kV-luq "Abşeron" Yarımstansiyası | Bakı şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 11. | 500 kV-luq "Samux" Yarımstansiyası | Gəncə şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 12. | 330 kV-luq "Qobu" Yarımstansiyası | Abşeron rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 13. | 330 kV-luq "Gəncə" Yarımstansiyası | Gəncə şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 14. | 330 kV-luq "Alüminium Zavod" Yarımstansiyası | Gəncə şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 15. | 330 kV-luq "Ağstafa" Yarımstansiyası | Ağstafa şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 16. | 330 kV-luq "Ağcabədi" Yarımstansiyası | Ağcabədi şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 17. | 330 kV-luq "İmişli" Yarımstansiyası | İmişli şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 18. | 330 kV-luq "Yaşma" Yarımstansiyası | Sumqayıt şəhəri, Yaşma qəsəbəsi | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 19. | 330 kV-luq "Xaçmaz" Yarımstansiyası | Xaçmaz şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 20. | 330 kV-luq "Cəbrayıl" Yarımstansiyası | Cəbrayıl rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 21. | 220 kV-luq "Xırdalan" Yarımstansiyası | Xırdalan şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 22. | 220 kV-luq "Böyükşor" Yarımstansiyası | Sabunçu rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 23. | 220 kV-luq "Qala" Yarımstansiyası | Xəzər rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 24. | 220 kV-luq "Nizami" Yarımstansiyası | Nizami rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 25. | 220 kV-luq "Müşfiq" Yarımstansiyası | Bakı şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 26. | 220 kV-luq "Hövsan" Yarımstansiyası | Bakı şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 27. | 220 kV-luq "Ağsu" Yarımstansiyası | Ağsu şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 28. | 220 kV-luq "Masallı" Yarımstansiyası | Masallı şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 29. | 220 kV-luq "Salyan" Yarımstansiyası | Salyan şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 30. | 220 kV-luq "Səngəçal" Yarımstansiyası | Bakı şəhəri, Səngəçal qəsəbəsi | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 31. | 220 kV-luq "Sənaye Qovşağı" Yarımstansiyası | Sumqayıt şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 32. | 220 kV-luq "Qəbələ" Yarımstansiyası | Qəbələ şəhəri | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 33. | 220 kV-luq "Zabrat" Yarımstansiyası | Abşeron rayonu, Zabrat Qəsəbəsi | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 34. | 220 kV-luq "Ağdaş" Yarımstansiyası | Ağdaş rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 35. | 330 kV-luq "Goranboy" Paylaşdırıcı Məntəqə | Goranboy rayonu | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 36. | 110 kV-luq "Xındırıstan" Yarımstansiyası | Ağdam rayonu | "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 37. | 110 kV-luq "Təzəkənd" Yarımstansiyası | Ağdam rayonu | "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 38. | 110 kV-luq "Çəmənli" Yarımstansiyası | Ağdam rayonu | "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 39. | 110 kV-luq "Qovlar" Yarımstansiyası | Tovuz rayonu | "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 40. | 110 kV-luq "Hunanlar" Yarımstansiyası | Tovuz rayonu | "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 41. | 110 kV-luq "Əyyublu" Yarımstansiyası | Tovuz rayonu | "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |
| 42. | 110 kV-luq "Tərtər" Yarımstansiyası | Tərtər rayonu | "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti |

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# 7 FEVRAL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## Səfir: "Müstəqil Azərbaycanın tarixində ilk dəfə prezident seçkiləri ölkənin bütün ərazisində keçiriləcək"

**"Müstəqil Azərbaycanın tarixində ilk dəfə prezident seçkiləri ölkənin bütün ərazisində keçiriləcək".**



AZƏRTAC xəbər verir ki, bu barədə TASS agentliyinə müsahibəsində Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib.

Diplomatik nümayəndəliyimizin rəhbəri vurğulayıb: "Xüsusi olaraq qeyd etmək istəyirəm ki, 2024-cü il fevralın 7-nə nəzərdə tutulan növbədənkənar prezident seçkiləri müstəqil Azərbaycanın tarixində ilk dəfə ölkənin bütün ərazisində keçiriləcək. Artıq azad olunmuş ərazilərdə məntəqə seçki komissiyaları formalaşdırılıb, səsvermə üçün hər cür şərait yaradılıb".

P.Bülbüloğlu əlavə edib: "Şübhəsiz ki, yuxarıda sadaladıqlarım onu deməyə əsas verir ki, həm Azərbaycandakı, həm də onun hüdudlarından kənardakı vətəndaşlarımız yüksək fəallıq nümayiş etdirəcək, çiçəklənən və qüdrətli Azərbaycan naminə düzgün seçim edəcəklər".

## Bərabər imkanlar, azad seçim

### Qalib xalq möhtəşəm gələcəyə səs verəcək

**"Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri mühüm əhəmiyyət kəsb edir. Əsas məqam odur ki, bu seçkilər müstəqil ölkəmizdə, suverenliyi tam bərpa edilmiş Azərbaycanın bütün ərazilərində keçiriləcək".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. O bildirib ki, Mərkəzi Seçki Komissiyasının məlumatına görə, işğaldan azad olunmuş ərazilərdə artıq seçki məntəqələri tam şəkildə fəaliyyətə hazırdır. Azərbaycanın istənilən bölgəsində, eyni zamanda xaricdəki səfirliklərimizdə işləyən, həmin ölkələrdə çalışan vətəndaşların da seçkidə iştirak etməsi üçün bütün lazımi şərait yaradılıb.

Deputat vurğulayıb ki, bu prezident seçkiləri tək Azərbaycan üçün deyil, həmçinin Cənubi Qafqaz, bütün dünya üçün mühüm əhəmiyyət kəsb edir: "Bu gün geosiyasi vəziyyət elədir ki, məhz seçkilərin keçirilməsi bütün daxili və xarici siyasətə təsir edə biləcək amil kimi qiymətləndirilir. Başlıca məsələ odur ki, bütün namizədlərə eyni şərait yaradılıb - istər kütləvi informasiya vasitələrində özlərinin təbliğatı, proqramlarının ortaya qoyulması, istərsə də seçicilərlə görüşlərinin keçirilməsi. Ən ucqar məntəqələrdə belə bu, mümkündür. Həm namizədləri təmsil edən şəxslərin, həm də onların nümayəndələrinin görüşlərinin keçirilməsi üçün tam şərait yaradılıb".

A.Nağıyev qeyd edib ki, fevralın 7-də Azərbaycan xalqı, seçki hüququ olan hər bir vətəndaş öz sözünü deyəcək. Hər kəs gələcək perspektivlər naminə öz səsini verəcək. Dünyada seçib, seçilmək kimi çox mühüm bir məfhum var. Hər bir Azərbaycan vətəndaşı fəxarətlə öz səsini verməli, eyni zamanda öz fikrini bildirməlidir. Bundan başqa, fiziki məhdudiyyətli şəxslərin seçkilərdə iştirakı ilə bağlı da müvafiq addımlar atılıb və onlar da öz hüquqlarından rahatlıqla istifadə edə biləcəklər.

Bu gün Avropada, Qərbin digər dövlətlərində Azərbaycana həddən artıq marağın olduğunu vurğulayan deputat bildirib ki, seçkilərdə digər ölkələrdən çoxsaylı müşahidəçilər iştirak edəcəklər. "Seçkilərdə yaxın qonşularımızdan tutmuş, dünyanın hər yerindən olan nümayəndələr və beynəlxalq strukturları təmsil edən müşahidəçilər yer alacaqlar. Bu baxımdan da 2024-cü il seçkiləri mühüm əhəmiyyət kəsb edir".

Deputat sonda qeyd edib ki, qalib dövlətin seçkiləri də qalib xalqa layiq keçiriləcək.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Samux-Şəmkir Seçki Dairəsinin məntəqələrində böyük canlanma var

**Bu günlər 101 saylı Samux-Şəmkir Seçki Dairəsini əhatə edən seçki məntəqələrində böyük canlanma var. Yanvarın 17-də aşağı seçki dairələrinin üzvləri üçün maarifləndirici treninqlər başa çatdıqdan sonra məntəqələrdə hazırlıq işləri bir qədər də sürətlənmişdir.**



Dairə Seçki komissiyaları üzvlərinin iştirak etdikləri həmin treninqlərdə söylənən fikir və tövsiyələr məntəqə seçki komissiyasının üzvlərinə çatdırılmışdır. Bu tövsiyələr əsasən məntəqə üzvlərinin rol və vəzifələri, eləcə də seçki günü prosesləri və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq və seçki bülletenlərinin təsnifatı, yekun protokolların doldurulması və digər məsələlər barəsində metodiki məlumatlar olmuşdur.

Samux-Şəmkir Dairə Seçki Komissiyasının sədri Bayram Qasımov söhbət zamanı bildirdi ki, son dəqiqləşdirməyə əsasən, seçicilərin sayı 54 min 564 nəfərdir. DSK-nı əhatə edən 56 seçki məntəqəsinin 9-da veb-kamera quraşdırılmışdır ki, bu da seçkilərin şəffaf və demokratik keçirilməsinə imkan yaradacaq.

Öyrəndik ki, dairədə indiyədək 509 nəfər müşahidəçi qeydə alınmışdır. Bundan başqa, seçkiləri izləmək üçün 2 beynəlxalq müşahidəçi də qeydiyyatdan keçmişdir. Onlar Demokratik Təsisatlar və İnsan Haqları Bürosundandır.

Dairəni əhatə edən bir neçə seçki məntəqəsində olduq. Bütün məntəqələrdə hazırlıq işləri yüksək səviyyədə idi. Məntəqələr zəruri avadanlıqlarla - elektrik generatorları, rabitə və internet şəbəkəsi ilə təmin edilmişlər. Yaxın ərazilərdə təşviqat materialları vurulmuş, seçicilərə bildirişlər paylanmış, rayon mərkəzində, eləcə də kəndlərdə əhalini növbədənkənar prezident seçkilərinə çağıran plakatlar asılmışdır.

DSK üzrə 3544 nəfər ilk dəfə səs verəcək. Onlarla maarifləndirici söhbətlər aparılmış, ölkəmiz üçün taleyüklü məsələ olan bu məsul siyasi kampaniyada fəal iştirak etmələri tövsiyə olunmuşdur. Dairəni əhatə edən seçki məntəqələrində yaşı 100-dən yuxarı olan iki nəfər də qeydiyyata alınmışdır. Həmin seçicilərin səhhəti ilə maraqlanan məntəqə üzvləri onlara seçki günü məntəqələrə gəlib səs vermələri üçün hər cür kömək göstərəcəklər. Bu barədə onların özlərinə də məlumat verilmişdir.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Seçkilərin şəffaf və ədalətli keçirilməsi üçün bütün tədbirlər görülür

**Ümummilli Lider 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra dünyada qəbul edilmiş demokratik siyasi sistemə uyğun milli dövlət quruculuğu istiqamətində islahatlar həyata keçirilməyə başladı.**



Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu bu yenidənqurma işləri sonrakı illərdə də uğurla davam etdirildi. Dərin və çoxşaxəli islahatlar Cənubi Qafqaz regionunun hərtərəfli inkişafının qarşısında böyük əngələ çevrilmiş Qarabağ probleminin həll olunmasına gətirib çıxarmaqla yanaşı, həm də Azərbaycanın dünya birliyində mövqeyinin daha da möhkəmlənməsində mühüm rol oynadı. Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri də ölkəmizin beynəlxalq aləmdəki artan nüfuzunu daha da gücləndirəcək.

Bu günə qədər Azərbaycanda keçirilən seçkilər bütün ölkəni əhatə etməmişdi. 1988-ci ilin sonlarından erməni separatçılarının Qarabağa başlayan hücumları sonrakı zamanlarda torpaqlarımızın 20 faizinin işğal olunması ilə nəticələndi. Güclü, qüdrətli Azərbaycan Ordusu 2020-ci ildə 30 ilə yaxın davam edən işğala son qoydu. Xalqımız Zəfər qazandı. Ona görə də 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkiləri Zəfər seçkisi də adlandırılır.

Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri xalqımız üçün əlamətdar hadisə olacaq. Çünki müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq prezident seçkiləri keçiriləcək. Artıq ölkəmizin bütün ərazilərində, o cümlədən işğaldan azad edilmiş Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda seçicilər öz iradələrini ifadə edəcəklər. Bu, Azərbaycan xalqının son illərdə əldə etdiyi ən böyük tarixi nailiyyətdir.

Növbədənkənar prezident seçkiləri mahiyyət etibarilə ərazi bütövlüyümüzün və suverenliyimizin təsdiqidir və suverenliyimizin təntənəsi kimi yadda qalacaq.

Bu gün demokratik seçkilərin keçirilməsi üçün ölkədə əlverişli siyasi mühit hökm sürür. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinin yüksək səviyyədə, azad, ədalətli və şəffaf keçirilməsi üçün Mərkəzi Seçki Komissiyası tərəfindən dairə və məntəqələrdə zəruri işlər aparılır. Səsvermə keçiriləcək bütün dairə məntəqələri seçki prosesinin tam şəffaf və demokratik şəraitdə təşkili üçün əlverişli avadanlıq və texniki vasitələrlə təmin olunub. Vətəndaşların seçki günü rahat səs vermələri üçün hər cür şərait yaradılıb.

Mərkəzi Seçki Komissiyasının "Seçki-2024" Müstəqil Media Mərkəzi də yaradılıb. Mərkəzin yaradılmasında başlıca məqsəd seçkilərdə aşkarlığın və şəffaflığın yüksək səviyyədə təmin edilməsində mühüm rolu olan yerli və beynəlxalq media nümayəndələrinə daha geniş imkanlar təmin etməkdir. Mərkəz seçkiləri hərtərəfli, operativ və obyektiv işıqlandırmaqda, habelə məlumatları almaqda və dərhal ictimailəşdirməkdə onlara yardımçı olacaq. Media nümayəndələri müasir informasiya-kommunikasiya texnologiyaları və zəruri texniki avadanlıqlarla tam təchiz olunan mərkəzdəki kompüterlər, telefon və faks aparatlarından, o cümlədən ödənişsiz internetdən sərbəst istifadə edə biləcəklər.

Müstəqil Media Mərkəzində Azərbaycan, ingilis və rus dillərində müntəzəm olaraq seçkilərə dair ən son məlumatlar təqdim ediləcək. Seçki prosesi ilə bağlı müxtəlif məsələlər barədə səlahiyyətli şəxslərin və ekspertlərin






rəyləri, habelə açıqlama və bəyanatlar dərhal ictimailəşdiriləcək, foto və videogörüntülər yayılacaq.

Fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkiləri ilə bağlı işğaldan azad olunmuş ərazilərdə də təşkil edilmiş məntəqələrdə "exit-poll" keçiriləcək. Bu barədə Mərkəzi Seçki Komissiyasının sədrinin müavini Rövzət Qasımov məlumat verib. Onun sözlərinə görə, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ABŞ-nin "Oracle Advisory Group" təşkilatı ilə birgə 40 seçki dairəsi üzrə 500 seçki məntəqəsində "exit-poll" keçirəcək: "Bu seçki məntəqələrindən 6-sı işğaldan azad edilmiş ərazilərdədir. Bunlar 84 saylı Füzuli Seçki Dairəsinin 75 saylı, 97 saylı, Tərtər-Naftalan-Goranboy Seçki Dairəsinin Suqovuşanda yerləşən 58 saylı Seçki Məntəqəsi, 118 saylı Ağdam şəhər Seçki Dairəsinin 57 saylı Seçki Məntəqəsi, 122 saylı Xankəndi Seçki Dairəsinin Xankəndi şəhərində yerləşən 14 saylı seçki məntəqəsi, 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd Seçki Dairəsinin Şuşada yerləşən 105 saylı Seçki Məntəqəsi və 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsinin Ağalı kəndində yerləşən 33 saylı seçki məntəqəsidir".

Amerikalı ekspert, Avrasiyada beynəlxalq münasibətlər və geosiyasət üzrə tədqiqatçı Piter Teys seçki ilə bağlı fikrini açıqlayaraq deyib ki, prezident seçkiləri Azərbaycan xalqının gələcək inkişafı və rifahı üçün mühüm fürsətdir. Bu seçkiləri Azərbaycanın müasir tarixində ən mühüm məqam adlandıran ekspert əlavə edib ki, ölkəmizdə seçki ənənəsi demokratiyanın mütərəqqi vəziyyətini mükəmməl şəkildə nümayiş etdirir. Budəfəki prezident seçkiləri ilk dəfə suveren Azərbaycan ərazisinin hər bir guşəsində baş tutacaq. Bu, əslində, Azərbaycanın müasir tarixində şanlı səhifədir.

Beləliklə, Azərbaycan xalqı 2024-cü ilin 7 fevral seçkilərinə tariximizin ən möhtəşəm Zəfərinin yaratdığı reallıqlar fonunda ortaya çıxan siyasi, iqtisadi, hüquqi, ən əsası, qlobal zərurətlər kontekstində gedir. Xalqımız sabaha, davamlı tərəqqiyə, yüksələn rifaha etimad mandatı verəcək. Bu dəfə ən layiqli namizədə ərazi bütövlüyü və suverenliyi tam bərpa edilən bütün Azərbaycan səs verəcək.

Əminik ki, seçicilər 7 fevral növbədənkənar prezident seçkilərində xalqımızın inandığı, güvəndiyi liderə etimad göstərəcəklər. Əlbəttə ki, bu inam və etimad Azərbaycanın davamlı yüksəlişinə, möhtəşəm quruculuğuna və daha böyük zəfərlərə doğru addımlamasına hesablanacaq.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

## Cəlilabad rayonu ərazisindəki məntəqələr seçkilərə hazırlığı yekunlaşdırırlar

**Seçkilər yaxınlaşdıqca bütün ölkə ərazisində olduğu kimi, Cəlilabad rayonunda da bu mühüm və taleyüklü siyasi hadisəyə diqqət və maraq artır, seçki tədbirlərinin təşkilinə xüsusi diqqət yetirilir. Rayonda seçkilərə hazırlıq, demək olar ki, başa çatmışdır.**





Rayon ərazisini əhatə edən dairə seçki komissiyalarında seçkilərə hazırlıq işləri MSK-nın tədbirlər planına uyğun şəkildə aparılmışdır. 71 saylı Cəlilabad şəhər, 72 saylı Cəlilabad kənd və 73 saylı Masallı-Cəlilabad seçki dairələrində hazırlıq işləri böyük fəallıqla aparılmışdır. Məntəqə sədrləri və üzvləri treninqlərdə iştirak edərək seçkiqabağı təşviqatın aparılması qaydaları, bildirişlərin seçicilərə çatdırılması, əyani vasitələrdən istifadə, səsvermə prosesi, protokolların doldurulması və təqdim olunması, digər prosedur məsələlər barəsində maarifləndirilmişlər. Seçkilərin şəffaflığını təmin etmək məqsədilə 20 məntəqədə veb-kameralar quraşdırılmışdır. Məntəqələr işıq, qaz, rabitə, internet və tibbi xidmətlə təmin olunmuşlar. Bütün məntəqələrdə seçki sıyahıları dəqiqləşdirilmiş, digər yerlərə gedənlərin, uzaq səfərlərdə olanların adları müəyyənləşdirilmişdir. Son məlunata əsasən, 628 müşahidəçi qeydə alınmışdır. Amma proses davam edir və bu səbəbdən onların sayının artacağı gözləniləndir.

Bu seçkilərdə də hamı bir nəfər kimi fəallıq nümayiş etdirir. Belə seçicilərdən bir neçəsi ilə söhbətləşdik. Söhbət zamanı aydın oldu ki, rayon sakinləri bu mühüm siyasi tədbiri səbirsizliklə gözləyirlər.

72 saylı Cəlilabad kənd seçki dairəsinin sədri Mehman Rzayev dedi ki, prezident seçkilərinin tarixinin önə çəkilməsi doğru qərardır: "İkinci Qarabağ müharibəsində əldə olunan Zəfər, lokal antiterror tədbirləri nəticəsində torpaqlarımızın separatçılardan təmizlənməsi və ölkənin bütün əraziləri üzərində suveren hüquqlarımızın bərpa edilməsi bütünlükdə regionda reallıqları dəyişib. Bu reallıq qarşıdakı illərdə bir çox istiqamətlər üzrə ölkəmizin və xalqımızın rifahı, təhlükəsizliyi və inkişafı üçün mühüm qərarların qəbul edilməsinə, yeni bir siyasi, iqtisadi strateji inkişaf proqramının həyata keçirilməsinə zəmin yaradıb. 7 fevral seçkilərinin çağdaş Azərbaycanın tarixində mühüm rol oynayacağına, qarşıda duran milli hədəflərimizə çatmaq üçün yeni bir başlanğıca çevriləcəyinə şübhə etmirik".

İlk dəfə səs verəcək Rəvan Qardaşxanov da söylədi ki, fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsinin davamıdır: "Mən bu seçkilərdə ilk dəfə səs verəcəyim üçün özümü xoşbəxt hesab edirəm. Çünki bu, bütün Azərbaycan ərazisində keçiriləcək ilk seçkidir. Adımı siyahıda yoxlamışam. Seçki gününü səbirsizliklə gözləyirəm".

71 saylı Cəlilabad şəhər seçki dairəsində ictimai fəal Fərid Quliyev isə qeyd etdi ki, növbədənkənar prezident seçkilərini Zəfər seçkisi də adlandırmaq olar: "Artıq Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib. Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçiriləcək. Bu seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin təntənəsi kimi yadda qalacaq".

*Seyran CAVADOV, "Azərbaycan"*

# Seçkilərdən seçkilərə

# Karbamid, metanol, polietilen borular...

## Azərbaycanın yeni müəssisələrində istehsal edilən qeyri-neft məhsullarının siyahısını uzatmaq da olar

**Azərbaycanda neft emalının və neft-kimya sənayesinin güclənməsinin əsas səbəblərindən biri bu sahədə yeni müəssisələrin istifadəyə verilməsidir. Son illər ölkədə bir sıra belə zavod tikilib, eləcə də mövcud komplekslərdə infrastruktur genişləndirilib.**

2013-cü ildə istismara verilən Metanol zavodu Azərbaycanın qaz-kimya sahəsində fəaliyyət göstərən ilk istehsalat obyektidir. Bakının Qaradağ rayonunda yerləşən bu zavodun qurulmasında İngiltərənin "ICI" firmasının aşağıtəzyiqli metanol istehsalı texnologiyası tətbiq edilib. Zavod 2016-cı ilin noyabr ayında SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) törəmə müəssisəsi olan "SOCAR Methanol" MMC tərəfindən təhvil alınıb, 2018-ci ilin oktyabr ayından isə şirkətin strukturuna daxil edilib.

Ümumi ərazisi 36,5 hektardan ibarət müəssisənin illik istehsal gücü 561 min ton təşkil edir. İstehsal prosesinə xammal-qaz qarışığının, yüksəktəzyiqli su buxarının hazırlanması, xammalın su buxarının iştirakı ilə riforminqi, riforminq qazı əsasında metanolun sintezi və xam metanolun zənginləşdirilməsi bölmələri daxildir.

Zavodda təmizlik dərəcəsi 99,99 faiz olan "A" markalı texniki metanol istehsal edilir və bu, beynəlxalq normalara əsasən təmiz metanol məhsulu sayılır. Məhsul beynəlxalq REACH sertifikatına malikdir ki, bu da Avropa bazarlarında onun davamlı və dayanıqlı satış dinamikasını təmin edir.

Metanolun keyfiyyəti zavodun AZS ISO/IES-17025:2020 standartının tələblərinə uyğun akkreditə olunmuş Mərkəzi laboratoriyası və beynəlxalq keyfiyyət təftiş şirkəti tərəfindən mütəmadi yoxlamadan keçirilir. Metanol zavodu "ISO 9001:2015 Keyfiyyət idarəetmə sistemi", "ISO 14001:2015 Ekologiya idarəetmə sistemi", "ISO 45001:2018 Sağlamlığın mühafizəsi və əməyin təhlükəsizliyi idarəetmə sistemi" və "ISO 50001:2018 Enerji idarəetmə sistemi" beynəlxalq standartları üzrə sertifikatlaşdırılıb.

İstehsal olunan metanolun satışı SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi tərəfindən həyata keçirilir. Ümumi satışın əksəriyyəti ixraca yönəldilir.

Zavodun yerləşmə mövqeyi istehsal olunan məhsulun səmərəli şəkildə xarici bazarlara daşınmasında əhəmiyyətli rol oynayır. Belə ki, ixraca göndərilən məhsul "Azərbaycan Dəmir Yolları" QSC-nin Qaradağ stansiyasından Gürcüstan Dəmir Yolu İdarəsinin Parto-Tskali stansiyasına, oradan isə Gürcüstanda yerləşən Kulevi dəniz limanına göndərilir. Daşınma zavoda məxsus 252 çənli vaqonlar vasitəsilə aparılır. Öhdəliklərin vaxtında və keyfiyyətli şəkildə yerinə yetirilməsi üçün müəssisənin ərazisində hazır məhsulun saxlanılması üçün ümumi tutumu 48 min ton olan iki rezervuar var.




Daxili bazara satışlar zamanı isə məhsul vaqon-sisternlərlə Qaradağ stansiyasından Səngəçal stansiyasına göndərilir, eyni zamanda alıcılara məxsus xüsusi yük avtomobilləri vasitəsilə daşınır. Daxili bazar üzrə məhsulun böyük hissəsi "Azneft" İstehsalat Birliyinə tədarük olunur.

Metanol zavodunda istehsalat prosesinin ekoloji cəhətdən təmiz olması, ətraf mühitə zərərli təsirlərin azaldılması məsələsi daim diqqət mərkəzindədir. Zavodda istismar edilən istehsalat və məişət-sanitar tullantı sularının təmizlənməsi qurğuları mütəmadi olaraq texniki baxışdan keçirilir, tullantıların çeşidlənməsi nəzarətdə saxlanılır. Biznes prosesinin təhlükəsiz idarə edilməsi, aktivlərin bütövlüyü, ətraf mühitin mühafizəsi, bütün işlərin və əməliyyatların keyfiyyətlə yerinə yetirilməsi zavod qarşısında duran ən başlıca vəzifələrdən biridir.

Son dövrün nailiyyətlərindən biri də Yüksək Sıxlıqlı Polietilen (YSPE) zavodunun istifadəyə verilməsidir. Müəssisənin təməli 2015-ci ilin oktyabr ayında qoyulub, açılış mərasimi isə 2019-cu ilin fevralında keçirilib. Zavod Sumqayıt Kimya Sənayesi Parkının ərazisində yerləşir.

İllik istehsal gücü 120 min ton təşkil edən YSPE beynəlxalq standartlar səviyyəsində inşa olunub. Zavodun tikintisində polimer istehsalı sahəsində tanınmış "INEOS" şirkətinin texnologiyalarından istifadə edilib. Zavodun ümumi təsərrüfat və istehsalat infrastrukturu sahəsində soyuducu qüllə, azot istehsalı və kondensasiya qurğuları, ölçü cihazları və texniki hava sistemi, ümumi elektrik altstansiyası, saxlanma çənləri, kimyəvi qatqılar kamerası, ümumi İdarəetmə Otağı (dispetçer məntəqəsi), laboratoriya, hazır məhsul anbarı və s. mövcuddur.

Zavodda müxtəlif çeşidli YSPE istehsal olunur. Böyük hissəsi ixrac üçün nəzərdə tutulan bu məhsullara yerli bazarda da kifayət qədər tələbat var. YSPE-dən müxtəlif növ plyonka, su və qaz nəqli üçün yüksək təzyiqə davamlı borular, istehlak malları (qab-qacaq, vedrələr, zənbillər və s., meyvə-tərəvəz üçün plastik qutular və zibil konteynerləri, butulka, kanistra, çəllək) və kimyəvi maddələr üçün konteynerlərin, eləcə də metal borular üçün örtüklərin hazırlanmasında istifadə edilir.

Azərbaycanın karbamidə olan tələbatı isə SOCAR-ın Karbamid zavodu tərəfindən təmin edilir. Müəssisənin təməli 2011-ci ildə qoyulub, açılış mərasimi 2019-cu ilin əvvəlində baş tutub. Sumqayıt şəhərində yerləşən zavodun layihələndirilməsi və tikintisi ammonyak istehsalı üzrə Danimarkanın "Haldor Topsoe" və karbamid istehsalı üzrə Niderlandın "Stamicarbon B.V" şirkətlərinin texnologiyası əsasında Cənubi Koreyanın "Samsung Engineering" şirkəti tərəfindən həyata keçirilib. Finlandiyanın "Neste Engineering Solutions" şirkəti layihənin idarə edilməsi üzrə məsləhət və müstəqil təftiş xidmətləri göstərib. Tikintinin pik vaxtında zavodun inşasına ümumilikdə 3600 nəfərdən artıq işçi cəlb olunub və 18 milyon adam-saatdan çox iş həcmi qəzasız şəraitdə yerinə yetirilib.

Zavod istismara verildiyi vaxt ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihə olub. Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti hesabına həyata keçirilib. Daha sonra Cənubi Koreyanın İxrac-İdxal Bankından və bir neçə digər bankdan dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib. Həmçinin layihə ilə bağlı vergi və rüsumların, habelə digər xərclərin ödənilməsi məqsədilə SOCAR tərəfindən təxminən 100 milyon avro məbləğində vəsait ayrılıb.

Karbamid zavodu il ərzində 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücünə malikdir. Zavod istismara verilənədək azot gübrələri Azərbaycana idxal edildiyi halda, hazırda bu müəssisə həm daxili bazarın tələbatını tam ödəyə bilir, həm də istehsal olunan məhsulun 70 faizdən çox hissəsini ixraca yönəldir. Nəticədə daha əvvəl idxal üçün sərf edilən valyuta vəsaiti ölkədə qalır, eyni zamanda qeyri-neft ixrac gəlirləri artır.

Azərbaycanın neft emalı və neft-kimya müəssisələrinin yerləşdiyi coğrafi məkanların sayı da getdikcə artır. 2018-ci ildə istifadəyə verilən "Star" SOCAR-ın Azərbaycandan kənarda inşa etdiyi ilk neft emalı zavodudur. "Star" həm də əsas payı SOCAR-a məxsus olan Türkiyənin yeganə neft-kimya kompleksi "Petkim"i xammalla təmin edir.

Bütün bunlar təkcə neft emalı və neft-kimya sahəsinin uğurları deyil, ölkəmizin sənayeləşmə istiqamətində apardığı islahatların nəticəsi, ümumən iqtisadi gücünün, qüdrətinin göstəricisidir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*




# Orta dəhliz ortaq maraqların təminatına hesablanıb

## Azərbaycan bu qlobal beynəlxalq nəqliyyat marşrutunda da açar ölkə olmaq iddiasındadır

**İndi dünyada çox şey dəyişib. Texnika və texnologiyaların inkişafı bir çox məsələnin həllini asanlaşdırıb, istehsal sahələrinin konveyer üsuluna keçməsi məhsul istehsalının dəfələrlə artmasına səbəb olub.**

İstehsalın artması isə məhsulların daha tez satışının həyata keçirilməsini tələb edir. Yəni hazır məhsulların vaxtında bazara çıxarılması vacib məsələyə çevrilir. Buna nail olmağın yeganə yolu isə daşımaların sürətlə yerinə yetirilməsidir. Sürətin təmin edilməsi də öz növbəsində nəqliyyat marşrutlarının və vasitələrinin hərəkətinin günün tələblərinə cavab verməsi ilə bağlıdır.

Hazırda qlobal ticarətdə mal göndərən və onu alan iki mühüm faktora xüsusi diqqət yetirir - sürət və maya dəyərinin aşağı olmasına. Son dövr dünyada yeni ticarət marşrutlarının yaradılması uğrunda başlanan mübarizə də bununla bağlıdır.

Əvvəlki yazılarımızda qeyd etdiyimiz kimi, Çin istehsal etdiyi məhsulları dünya bazarına tez və təhlükəsiz ixrac etmək üçün milyardlarla dollar xərcləyib, "Bir kəmər, bir yol" layihəsini gerçəkləşdirməyə çalışır. Azərbaycan isə indi Orta dəhliz adlanan bu beynəlxalq əhəmiyyətli nəqliyyat marşrutunun açar ölkəsi olmaq iddiasındadır. Çünki bu yol ən çox ölkəmizdə şaxələnir. Belə ki, Azərbaycana daxil olan yüklər Rusiya bazarı ilə yanaşı, Şimali Avropaya da daşınır. Eyni zamanda yükləri İran vasitəsilə cənubda yerləşən ölkələrə daşımaq mümkündür. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti burada mühüm rol oynayır. Ona görə ki, şərqdən gələn yükləri Gürcüstan üzərindən Türkiyəyə göndərməkdə heç bir problem yoxdur. Qardaş ölkənin inkişaf etmiş nəqliyyat infrastrukturunun yükləri Avropaya, Yaxın Şərqə və Şimali Afrikaya çatdırmaq imkanı var. Digər tərəfdən, Gürcüstan üzərindən yüklərin Qara dəniz vasitəsilə Şərqi Avropaya göndərilməsi ən qısa yoldur.

44 günlük Vətən müharibəsindəki tarixi Zəfərimiz ölkəmizə daha bir imkan yaratdı. Söhbət Zəngəzur dəhlizindən gedir. Bu dəhlizin açılması bir yandan nəqliyyatın şaxələndirilməsinə yeni töhfə verə bilər, digər tərəfdən yüklərin göndərilməsinin məsafəsini qısaldar.

Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata görə, indiyəcən bu yol açılmalı idi. Amma Ermənistanın ikili siyasəti nəticəsində bu, hələ mümkün olmayıb. Buna baxmayaraq, Zəngəzur dəhlizi gec-tez açılacaq. Artıq ermənilər də bunu dərk edirlər.

İndi keçək əsas məsələyə. Ölkəmiz qeyd etdiyimiz kimi, beynəlxalq Orta dəhlizdə açar ölkə olmağa iddialıdır. Lakin gəlin görək, iddiamızla imkanımız üst-üstə düşürmü? Yəni biz "Şərq-Qərb", "Şimal-Cənub" marşrutlarının fasiləsiz işləməsi üçün lazımi addımlar atmışıqmı?

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji planlaşdırma şöbəsinin müdiri Aqil Əsədov bununla bağlı yazır ki, böyük İpək yolunun bərpası istiqamətində davamlı işlər görən, tədbirlər həyata keçirən Azərbaycan, nəhayət, 2005-ci ildə "Şimal-Cənub" nəqliyyat dəhlizinə də qoşuldu: "Beləliklə, ölkənin "Şərq-Qərb" (böyük İpək yolu) və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində Avropa və Asiyanın mühüm nəqliyyat tranzit qovşağına çevrilmək imkanları daha da artdı. Onu da qeyd edək ki, Azərbaycan yeganə ölkədir ki, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri layihələrinin ikisində də iştirak edir.

Bu gün "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu Çinin elan etdiyi, Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin dəstəklədiyi "Bir kəmər, bir yol" iqtisadi inkişaf strategiyasının tərkib hissəsinə çevrilib. BTQ-nin başlıca vəzifəsi Çindən və Cənub-Şərqi Asiyanın digər ölkələrindən Avropaya yüklərin daşınmasıdır. İnamla deyə bilərik ki, bu dəmir yolu qitələrarası daşımalar üçün böyük imkanlar vəd edir. Avrasiyanın nəqliyyat xəritəsini yeniləyən BTQ Azərbaycanı əhəmiyyətli tranzit daşımalar mərkəzinə çevirib və bu yol ilə gələcəkdə 15 milyon tonadək yük daşımaq mümkün olacaq".

Ölkəmizdə Orta dəhlizin və "Şimal-Cənub" marşrutunun fəaliyyəti üçün çox iş görülsə də, bu istiqamətdə əlavə tədbirlər də həyata keçirilib. Xəzər dənizindən yüklərin bir sahildən digərinə qısa zamanda və fasiləsiz daşınması üçün güclü donanma yaradılıb, avtomobil yollarımız beynəlxalq standartlara uyğun yenidən qurulub. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı iritutumlu gəmilərin giriş-çıxışının təmin edilməsinə hazırlanıb. Bunlarla yanaşı, ölkəmizdə beynəlxalq tələblərə cavab verən hava limanları fəaliyyət göstərir. Ərazilərimizin işğaldan azad edildiyi qısa zaman kəsiyində Füzuli, Zəngilan Beynəlxalq Hava limanları tikilib. Laçın hava limanında isə inşaat işləri sürətlə davam edir.

Aqil Əsədov Prezidentin 2023-cü il 23 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşınmaların təşviqinə dair 2024-2026-cı illər üçün" Fəaliyyət Planının əhəmiyyətini vurğulayaraq yazır ki, fəaliyyət planında da qeyd edildiyi kimi, bir sıra önəmli üstünlüklərə malik olan Orta dəhliz boyunca vahid tarifli "bir pəncərə" prinsipi tətbiq olunacaq. Əlverişli coğrafi mövqeyin Orta dəhliz üzərində yerləşən dövlətləri Avropa ilə Asiyanı birləşdirən əsas tranzit ölkələri kimi gündəmə gətirdiyini qeyd edən müəllif Orta dəhlizin əsas üstünlüyünün bütün iştirakçı dövlətlərin bu marşrutun funksionallığının artırılması üçün güclü siyasi iradə nümayiş etdirdiyində görür: "Dəhliz boyunca yerləşən ölkələr arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq getdikcə genişlənir ki, bu da yükdaşımalar, yüklərin cəlb edilməsi, logistika ilə bağlı məsələlərin uzlaşdırılmasına geniş imkanlar yaradır. Çindən Avropaya gedən yük qatarı Orta dəhliz ilə 12 gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət edəcək. Bu da Asiya ilə Avropa arasında qlobal ticarətdə dəhlizin nə qədər sərfəli və təhlükəsiz olduğunu nümayiş etdirir. Eyni qatar Cənub dəhlizi üzrə Süveyş kanalı üzərindən gəmi ilə 20 min kilometr yol qət edir. İstər dəniz, istərsə də dəmir yolu üzərindən daşınmalarda Orta dəhliz zaman və məsafə baxımından daha səmərəlidir ki, bu da daşınma xərclərinin daha az olması ilə dəhlizin cəlbediciliyini artırır". Bizə elə gəlir ki, artıq şərhə ehtiyac yoxdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Ötən il 71 mindən çox abonent ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunub

**2023-cü ildə Laçın şəhərinin yeni içməli və tullantı su şəbəkələri istismara verilib, Füzuli şəhərində yeni layihənin icrasına başlanılıb. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən bildirilib ki, Şuşa şəhərinin içməli su təminatında dayanıqlığın artırılması məqsədilə Zarıslıçay nasos stansiyasının və mərkəzi su anbarının inşası da başa çatıb.**

Keçən il həmçinin Qazax şəhərinin içməli və tullantı su sistemləri istismara verilib, Yevlax və Balakən şəhərlərində layihələrin ilkin mərhələsi üzrə işlər yekunlaşıb, Gəncə, Mingəçevir, Şəki, Şirvan, Salyan, Neftçala şəhərlərində içməli və tullantı su şəbəkələrinin tikintisi davam edib.

Neftçala şəhərinin və ətraf kəndlərin keyfiyyətli içməli su ilə təmin olunması üçün Şirvan-Muğan qrup su kəmərindən Neftçala rayonuna 38 km uzunluğunda ikinci magistral su kəmərinin istismara verilməsi də ötən il reallaşıb. Neftçala rayonunun 11, Salyan rayonunun 6 kəndinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə Şirvan-Muğan qrup su kəmərindən 3-cü magistral su kəmərinin inşasına başlanılıb. Ötən il eyni zamanda İsmayıllının 9, Hacıqabulun 8, Tovuzun 7, Qazaxın və Ağstafanın hər birinin 3 kəndində layihələr icra olunub. Bakıətrafı kənd və qəsəbələrdə içməli və tullantı su şəbəkələrinin, Pirşağı Tullantı Sutəmizləyici Qurğusunun kollektorlarının tikintisi isə davam edib.

Ümumilikdə 2023-cü ildə 1 içməli və 5 tullantı sutəmizləyici qurğu, 4 suqəbuledici qurğu, 6 əks-osmos qurğusu, 30 su anbarı, 12 su və kanalizasiya nasos stansiyası inşa olunub. Eyni zamanda 1037 km içməli, 179 km tullantı su xətləri çəkilib, 26 subartezian quyusu qazılıb. Görülmüş işlər nəticəsində 71 mindən çox abonent ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunub.






Azərbaycan Respublikası Prezidentliyinə namizəd, Milli Cəbhə Partiyasının sədri, deputat

# Razi Nurullayevin Seçki Platforması

***Azərbaycan yeni seçkilərə öz suverenliyini və sərhədlərini tam bərpa edən bir ölkə kimi gedir. İkinci Qarabağ müharibəsində qazanılan tam zəfər ölkənin sosial dövlət olaraq inkişafını zəruri edir. Bu inkişaf xalqımızı dünyanın ən varlı və xoşbəxt xalqlarından biri etmək missiyası daşımalıdır. Bunu əsas götürərək, Milli Cəbhə Partiyası və onun prezidentliyə namizədi Razi Nurullayev Azərbaycanın sosial dövlət olaraq inkişafını və sosial demokratiyanın cəmiyyətdə bərqərar olmasını vacib hesab edir.***

***Azərbaycan Respublikasının Prezidentliyinə namizəd olaraq Razi Nurullayev inanır ki, ölkənin gələcəyi və inkişafı, sosial layihələrin həyata keçirilməsi indi qarşımızda duran əsas vəzifədir. İnsan ləyaqətinin uca tutulması, yüksək təhsil, əhalinin yaşlı təbəqəsinin sosial hüquqlarının qorunması və sosial təminatının artırılması, gənclərin iş və sosial həyatının təminatı, asudə vaxtının səmərəli təşkili bizim üçün əsas prioritetdir. Biz bununla sosial-demokratiya ideyasını ölkədə gerçəkləşdirəcək, savadlı, sosial hüquqları qorunan və təminatı olan cəmiyyət formalaşdıracağıq. Bunun üçün kompleks islahatlar aparılmasını zəruri hesab edirik.***

***Azərbaycanın inkişafı və perspektivləri ideoloji prinsiplərin təbliği, sosial dövlətin inkişafı, təhsil, sosial təminatlar, biznes mühitinin keyfiyyətinin yaxşılaşdırılmasından keçir.***

## 5. Biznes sahəsində

- ✓ Əlverişli biznes mühiti üçün şəffaflıq və daha az vergi ödəmələri ilə yeni biznes mühiti formalaşdırılacaq. Bu sahədə əsas şüarımız "Vergini ödə, şəffaf ol, cinayət pullarını verilən maliyyə amnistiyası ilə leqallaşdır" olacaq. İş adamları bizim hakimiyyətimizin ən mötəbər şəxsləri olacaq və iş mühitinə əngəl törədən məmurlar haqqında ən sərt tədbirlər görüləcək. Ölkədə genişmiqyaslı maliyyə amnistiyası həyata keçiriləcək;
- ✓ Sadələşdirilmiş vergi məbləğinin hazırkı 200 mindən 350 minə qaldırılması təmin ediləcək;
- ✓ Fiziki şəxslərin müflis elan edilməsi haqqında qanun layihəsi hazırlanıb ictimaiyyətin müzakirəsinə veriləcək və qəbul olunacaq. Azərbaycanda yalnız hüquqi şəxslərin müflisliyi haqqında qanun mövcuddur;
- ✓ Bank faizlərinin aşağı salınması üçün ciddi işlər aparılacaq və dövlətin imkanları daxilində olan bütün vasitələrdən istifadə ediləcək;
- ✓ Biznes mühiti şəffaflaşdırıldıqdan, vergi güzəştləri tətbiq edildikdən sonra ölkəyə investisiya qoyuluşu ilə bağlı layihələr hazırlanaraq, qəbul ediləcək. Əsas məqsədimiz xarici investorların ölkəyə sərmayə yatırmasının təminatı və etibarlılığının qorunmasıdır;
- ✓ Bununla yanaşı, yerli investorlara əlavə güzəşt paketləri təqdim olunacaq.

## 6. Dövlət-vətəndaş münasibətlərində qarşılıqlı etimad mühitinin yaradılması. Məhkəmə-hüquq islahatları

- ✓ Məhkəmə sisteminin tam azad və sərbəst, düzgün qərar verməsi üçün gərgin iş aparılacaq və iki il ərzində bu, təmin ediləcək. Məhkəmə hakimlərinin, işçilərinin, prokurorluq orqanı işçilərinin, polis orqanlarının əməkhaqları minimum iki-üç dəfə, bəzi sahələr üzrə isə dörd dəfə artırılacaq. Bundan sonra, sıfır səviyyə rüşvət və korrupsiya kampaniyası elan ediləcək və qanunu pozanlar ən qatı şəkildə cəzalandırılacaq, əmlakı müsadirə olunmaqla cinayət məsuliyyətinə cəlb olunacaqlar;
- ✓ Prokurorluğun paralel olaraq həm nəzarətçi və həm də dövlət ittihamçısı funksiyası bir-birinə ziddiyyətli funksiyadır. Prokurorluğun nəzarətçi funksiyası ilə dövlət ittihamçısı funksiyasının ayrılması təmin ediləcək;
- ✓ Ədalət mühakiməsinin nəticəvi əhəmiyyət və effektivliyini artırmaq məqsədi ilə vəkillərin prosessual səlahiyyətlərinin genişləndirilməsi təmin ediləcək;
- ✓ Vətəndaşların dövlət qurumlarına etimadının artırılması üçün məmur-vətəndaş arasında əlaqənin üz-üzə prinsipindən "onlayn" əlaqəyə keçməsini 100 faiz təmin etmək vacibdir. Bu sistemin tətbiqi müraciətlərin izlənməsini, dövlət qurumlarının adekvatlığını üzə çıxaracaq. Bu da öz növbəsində vətəndaş maraqlarının təminatına səbəb olacaq.

## 7. Dövlət maraqlarının təminatı

- ✓ Azərbaycan dövlətinin və xalqının maraqları ən ciddi prioritetimizdir. 44 günlük Vətən müharibəsindən və Azərbaycan dövlətinin möhtəşəm Zəfərindən sonra müxtəlif sosial şəbəkələr vasitəsilə Azərbaycana qarşı beynəlxalq miqyasda əks-təbliğat kampaniyası aparılır. Bu səbəbdən də "Facebook", "YouTube", "Tik-Tok" sosial platformalarının Azərbaycan nümayəndəliyinin açılması əsas hədəfimizdir. Dövlət və milli maraqlarımızın müdafiəsi üçün bu məsələdə mövqeyimiz qətidir.

## 8. Xarici siyasət prinsipləri

- ✓ Azərbaycan dövləti mövcud təbii-coğrafi, tarixi, ənənəvi, milli-psixoloji, iqtisadi və digər amilləri nəzərə almaqla öz xarici siyasətində aşağıdakılara xüsusi diqqət yetirəcək:
- ✓ Azərbaycan dövlətinin xarici ölkələrdən və beynəlxalq təşkilatlardan asılı düşməməsi, müqavimətinin artırılması, bütün istiqamətlərdə azad və ədalətli rəqabət mühitinin yaradılması üçün ölkədəki siyasi qüvvələr arasında qarşılıqlı inam və etimada nail olmaq;
- ✓ Beynəlxalq və regional təşkilatlarla, hərbi-siyasi bloklarla münasibətlərdə Azərbaycanın maraqlarını qətiyyətlə qorumaq;
- ✓ Cənubi Azərbaycandakı soydaşlarımızın milli oyanışına və milli özünüdərkinə nail olunmasına, bu prosesin genişləndirilməsinə və onların sosial-siyasi və mədəni hüquqları uğrunda apardıqları mübarizəyə hərtərəfli siyasi dəstək vermək;
- ✓ Bölgədə sülhün, əmin-amanlığın təmin olunması üçün Qafqaz xalqları ilə həmrəylik nümayiş etdirmək, onlarla iqtisadi, mədəni və s. istiqamətlərdə sıx əməkdaşlıq etmək;
- ✓ Azərbaycan-Türkiyə, Azərbaycan-Pakistan siyasi-iqtisadi və hərbi əlaqələrinə xüsusi önəm verilməklə strateji tərəfdaşlığı bütün türk dünyası miqyasınadək genişləndirmək;
- ✓ Türk dövlətləri və topluluqları ilə əlaqələri genişləndirmək, milli-mənəvi dəyərlər sistemini əlaqəli araşdırmaq və bu dəyərləri gələcək nəsillər üçün qoruya bilmək məqsədilə hərtərəfli qarşılıqlı inteqrasiyanı təmin edəcək ümumtürk mədəni-iqtisadi birliyinin gerçəkləşdirilməsinə nail olmaq;
- ✓ Sülh, əmin-amanlıq və bəşəriyyətin tərəqqisi naminə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyən, beynəlxalq hüquqa, ədalət prinsiplərinə söykənən xarici siyasət yürüdən dövlətlərlə əlaqələri hərtərəfli inkişaf etdirmək.

- Azərbaycanda mənəviyyat və milli dəyərlərimizə zərər vurmayan Qərb siyasi dəyərlərinin və hüquq sisteminin mənimsənilməsinə, Avropaya inteqrasiyaya və parlamentarizmin inkişafına nail olmaq;

- ✓ "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin tikintisinin başa çatdırılması, multimodal nəqliyyat infrastrukturunun mövcudluğunun təminatı, Bakı-Tbilisi-Qars dəmir yolu və yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihələrinin "Şərq-Qərb" nəqliyyat dəhlizinin əsas seqmentlərinə çevrilməsinə təminat vermək.

## 9. Şəhərsalma və tikinti sahəsində

- ✓ Azərbaycanın ayır-ayrı şəhər və rayonlarında, xüsusən Bakı şəhəri və Abşeron yarımadasında xaotik, qanunsuz və plansız evlər tikilib. Yüz minlərlə ev hələ də sənədsizdir və yaşamaq üçün də yararsızdır. Yol, su, qaz, işıq problemləri qalmaqdadır.
- ✓ İcazəsiz tikilən fərdi evlərin sənədləşdirilməsi ilə bağlı verilən Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamının icrası üzrə məsul Komissiyanın hesabatı araşdırılacaq və sərəncama uyğun müvafiq qərar qəbul ediləcək. Baş plana uyğun tikilməyən evlərlə bağlı xüsusi komissiya yaradılaraq, həmin evlərin dəyəri tam qaydada vətəndaşları narazı salmadan dövlət tərəfindən ödəniləcək.
- ✓ Bütün Azərbaycan ərazisində plansız və qanunsuz tikililər dayandırılacaq və buna şərait yaradan hər bir məmur və qurum ən sərt şəkildə cəzalandırılacaq. Dövlət tərəfindən infrastruktur, yaradılmış, planlaşdırılmış və fərdi evlərin tikilməsi üçün nəzərdə tutulmuş məhəllələr yaradılaraq, dövlət qiymətinə vətəndaşlara satılacaq.
- ✓ Vətəndaşlara verilən pay torpaqlarında evlərin tikintisinə istisnalarla, xüsusi hallar olarsa icazə veriləcək. Amma bu ərazilər dövlət tərəfindən yenidən planlaşdırılacaq və plansız tikililərin qarşısı alınacaq. Bu yerlərdə dövlət tərəfindən yol, su, qaz və kanalizasiya infrastrukturu yaradılacaq.
- ✓ Bakı və respublika əhəmiyyətli digər şəhərlərdə (Gəncə, Sumqayıt, Lənkəran, Şirvan, Mingəçevir, Naftalan) hündürmərtəbəli binaların tikintisi ilə bağlı ciddi analizlər və qiymətləndirmələr aparılacaq, vahid standartlar müəyyənləşdiriləcək. Şəhərin relyefi, ərazisi, sıxlıq və s. kimi amillər dəyərləndirilərək, hündürmərtəbəli binaların tikintisinə icazə veriləcək. Xaotik şəkildə bu tip tikililərin qarşısı alınacaq.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# ƏDALƏT, HÜQUQ, DEMOKRATİYA



## HƏSƏNQULİYEV QÜDRƏT MÜZƏFFƏR OĞLU

# ƏHDİMİZ ƏDALƏT, HÜQUQ, DEMOKRATİYADIR

**Əziz həmvətənlər,**
**Dəyərli seçicilər,**

*Azərbaycan Respublikasının Prezidentliyinə qeydə alınmış namizəd Qüdrət Müzəffər oğlu Həsənquliyevin "Böyük dəyişikliklər" adlanan seçki platformasının dövlət quruculuğu ilə bağlı hissəsini müzakirənizə təqdim edirik:*

### Ordu quruculuğu sahəsində:

- Silahlı Qüvvələrə Parlament nəzarətinin təşkili, silah-sursatın alışı və satışında Ali Məclisin müvafiq komitəsinin razılığının əsas götürülməsi;
- Peşəkar orduya və ordu quruculuğunda Türkiyə sisteminə keçidin 2 il ərzində həyata keçirilməsi, müdafiə nazirinin mülki şəxs olması;
- 18 yaşına çatmış oğlanların icbari qaydada və 18 yaşına çatmış qızların könüllülük əsasında 6 ay xidmət çəkməsi, oğlanların Silahlı Qüvvələrin hesabına pul ödəmələri qarşılığında bu vəzifələrini yerinə yetirməkdən azad olunması;
- Azərbaycan Silahlı Qüvvələrinin ən müasir hərbi texnika, silah və sursatla təmin olunması istiqamətində işlərin davam etdirilməsi, hərbi sənaye kompleksinin inkişaf etdirilməsi;
- Silahlı Qüvvələrin hərbçilərin əməkhaqlarının onların layiqli həyatını təmin edəcək səviyyəyə çatdırılması;
- Peşəkar hərbçilər üçün hərbi xidmət müddətinin 20 il nəzərdə tutulması, həmin müddətin başa çatması ilə ehtiyata gedən hərbçilərin dövlət hesabına mənzillə təmin olunması;
- Xidmətdə olan hərbçilərin həyatının 170 min manat məbləğində sığorta olunması;
- Şəhid ailələrinə, xidməti vəzifələrini yerinə yetirərkən sağlamlığını itirmiş hərbçilərə və müharibə veteranlarına ödənilən pensiya və müavinətlərin həcminin ilkin mərhələdə ən azı iki dəfə artırılması;
- İstedadlı gənclərin hərbi məktəblərə daxil olmasının stimullaşdırılması.

### Qarabağın bərpası, Ermənistanla münasibətlərin tənzimlənməsi istiqamətində görüləcək işlər:

- Ermənistanın ədalətli, beynəlxalq hüquqa əsaslanan sülhə məcbur edilməsi və bu ölkədən təzminat tələb olunması;
- Ermənistan tərəfindən Zəngəzur üzərindən Naxçıvana və Türkiyəyə maneəsiz gediş-gəliş təmin olunmayana qədər Ermənistanla kommunikasiya xətlərinin açılmaması;
- Ermənistanla sülh sazişi imzalanandan sonra Qərbi Azərbaycandan olan soydaşlarımızın Ermənistana öz evlərinə qayıtmasına imkan yaradılacağı halda Qarabağda yaşamış ermənilərin qayıtmasına şərait yaradılması;
- Gələcəkdə milli zəmində qarşıdurmaların baş verməməsi üçün ermənilərin Ermənistanda, azərbaycanlıların Azərbaycanda yaşaması istiqamətində Ermənistan və beynəlxalq tərəfdaşlarla danışıqların aparılması;
- Ermənistanla dövlətlərarası sülh sazişi imzalanandan sonra xalqların barışığı istiqamətində ciddi işlərin görülməsi;
- İşğaldan azad olunmuş ərazilərə girişin məhdudlaşdırılmasının dərhal ləğv olunması;
- Xankəndidən olan 16 min məcburi köçkünün və Qərbi Azərbaycandan olan, ağır şəraitdə yaşayan qaçqınların, onlar Ermənistana, vaxtilə zorla qovulduqları ata-baba yurdlarına qayıdanadək, qısa zaman kəsiyində
- Xankəndidə və ermənilərin köçüb getdiyi digər yaşayış məntəqələrində yerləşdirilməsi;
- Kənd yerlərində yaşamış məcburi köçkünlərə özlərinə istədikləri formada, təsdiq olunmuş layihə əsasında evlər tikmək, həyətyanı təsərrüfat yaratmaq imkanının yaradılması, vəsaiti olmayanlara dövlət tərəfindən maliyyə yardımının göstərilməsi;
- İşğaldan azad olunmuş ərazilərdə torpaq islahatlarının həyata keçirilməsi, kənd sakinlərinə pay torpaqlarının verilməsi;
- Qarabağa investisiya yatıran sahibkarlara güzəştli kreditlər verilməsi, bu məqsədlə Dövlət Neft Fondunun vəsaitlərinin əhəmiyyətli hissəsinin yerli banklarda yerləşdirilməsi;
- İşğaldan azad olunmuş ərazilərdə Azərbaycanın digər bölgələrindən olan insanlara ev almaq və tikmək hüququnun tanınması.

### Vətəndaş cəmiyyəti quruculuğu sahəsində:

- Azərbaycan dövlətinin xarici ölkələrdən və beynəlxalq təşkilatlardan asılı vəziyyətə düşməməsi, xarici təzyiqlərə müqavimətinin artırılması, sosial-iqtisadi sahədə islahatların aparılması, iqtisadiyyatda azad bazar və ədalətli rəqabət mühitinin formalaşdırılması üçün ölkədəki siyasi qüvvələr arasında qarşılıqlı inam və etimadın əldə edilməsi;
- İş dalınca xarici ölkələrə getmiş və həmin ölkənin vətəndaşlığını qəbul etmiş soydaşlarımız Azərbaycan Respublikasının vətəndaşlığından imtina etmədiyi halda onların Azərbaycan Respublikasının vətəndaşlığı hüququnun saxlanılması, yaxud yenidən bu hüququ almaq istəyənlərə Azərbaycan Respublikası vətəndaşı pasportunun verilməsi;
- Cənublu soydaşlarımızın ölkəmizə rahat gəlib-getməsi üçün İranla viza rejiminin aradan qaldırılması, sərhəd keçid məntəqələrinin sayının artırılması və keçidin sadələşdirilməsi;
- Siyasi rəqabətin gücləndirilməsi məqsədilə siyasi partiyaların dövlət tərəfindən maliyyələşdirilməsilə bağlı ədalətli bölgü mexanizminin işlənilib hazırlanması və tətbiqi;
- Dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsi üçün kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının və müstəqilliklərinin gücləndirilməsi;
- Azərbaycan Dövlət Televiziyasının (AzTV) bazasında 24 saat ingilis və rus dillərində xəbər yayımlayan yeni teleradio şirkətlərinin yaradılması;
- Vətəndaş cəmiyyəti quruculuğu prosesinin inkişaf etdirilməsi məqsədilə qeyri-hökumət təşkilatlarının fəaliyyətinə dövlət dəstəyinin gücləndirilməsi.

### Elm, təhsil, mədəniyyət və səhiyyə sahəsində:

- Hər bir vətəndaşımıza öz intellektual potensialını və bacarığını reallaşdırmaq üçün münbit və bərabər şərait yaradılması;
- Tam orta təhsilin icbari olması, repititorluğa son qoyulması üçün orta məktəbin buraxılış imtahanlarının nəticələrinə uyğun olaraq ali və orta ixtisas məktəblərinə qəbulun həyata keçirilməsi;
- Ölkədə ali təhsilli şəxslər iqtisadi fəal əhalinin 16.6%-ni təşkil edir ki, bu, nəinki Avropada, hətta MDB-də sonuncu göstəricidir. Dünyada bu göstərici 30-40% arasında dəyişir. Yeni universitetlərin yaradılmasının stimullaşdırılması ilə 5 il ərzində vəziyyətin əhəmiyyətli səviyyədə dəyişdirilməsi;
- Ali təhsil müəssisələrinin özəlləşdirilməsi;
- Hər il ölkəmizdə təhsil alacaq Cənubi Azərbaycandan olan 1000 (min ) tələbənin təhsil haqqının dövlət tərəfindən ödənilməsi;
- Elmlər Akademiyasının ləğv edilməsi və onun bazasında özəl ali məktəblərin yaradılması;
- Elmi işlərin müdafiəsi zamanı bürokratik əngəllərin aradan qaldırılması;
- Gənc nəslin təhsilə, elmə marağının artırılması üçün gənc alimlərin sosial müdafiəsinin gücləndirilməsi;
- Yüksəkixtisaslı kadrların hazırlanması məqsədilə hər il ən azı 500 tələbənin dövlət hesabına dünyanın aparıcı universitetlərinə göndərilməsi;
- Dünyanın ilk sıralamada yer alan 200 nüfuzlu universitetini bitirən gənclərin imtahansız və müsabiqəsiz dövlət qulluğuna və büdcədən maliyyələşən idarə, müəssisə və təşkilatlara işə qəbulu;
- Ali məktəblərin idarə edilməsində professor-müəllim heyətinin rolunun yüksəldilməsi, bu məqsədlə rektorların ali məktəblərin Elmi Şurası tərəfindən seçilməsi;
- Azərbaycan dilinin və ədəbiyyatının, tariximizin, musiqimizin, təsviri incəsənətimizin, eləcə də mədəniyyətimizin digər sahələrinin inkişafı və təbliği üçün müvafiq proqramların qəbulu və həyata keçirilməsi;
- Xarici dillərin, xüsusilə də beynəlxalq dil olan ingilis dilinin öyrənilməsi üçün xüsusi dövlət proqramının qəbul edilməsi;
- Məktəblərdə Türkiyə türkcəsinin tədrisi;
- "Hər məktəbliyə kompüter, hər kəndə yüksək sürətli internet" proqramının həyata keçirilməsi;
- Təhsildə uzunmüddətli fasilələrə yol verməmək üçün orta təhsil müəssisələrində 2 tətilin nəzərdə tutulması, yay tətilinin 45 gün - iyulun 15-dən sentyabrın 1-dək, qış tətilinin isə 10 gün - dekabrın 30-dan yanvarın 10-dək müəyyənləşdirilməsi, buraxılış imtahanlarının tədris ilinin sonunda keçirilməsi;
- Orta məktəblərdə həftədə 5 günlük tədrisə keçilməsi. Məktəb tikintisini sürətləndirməklə, özəl məktəblərin tikintisini stimullaşdırmaqla 2 və 3 növbəli tədrisə son qoyulması;
- Məktəb və idman kompleksləri inşa edən fiziki və hüquqi şəxslərə güzəştli qiymətlərlə dövlətin torpaq fondundan tikinti sahələrinin ayrılması və aşağı faizlə uzunmüddətli kreditlərin verilməsi;
- Bədən tərbiyəsinə və idmana dövlət qayğısının daha da artırılması;
- Hakimiyyət orqanlarında, dövlət idarə, müəssiə və təşkilatlarında vəzifə tutan şəxslərin idman federasiyalarına rəhbər seçilməsinin qadağan olunması;
- Büdcədən maliyyələşən işçilərin əməkhaqlarının onların layiqli həyatını təmin edəcək səviyyəyə çatdırılması;
- Əksər tibb müəssisələrinin yalnız təyinati üzrə istifadə edilməsi şərtilə özəlləşdirilməsi;
- Bütün növ xəstəlklərin müalicəsinin icbari tibbi sığortaya daxil edilməsi;
- Dövlət tibb müəssisələrinin ən müasir avadanlıqlarla təmin olunması;
- Quru sərhədlərinin dərhal açılması, sərhədyanı bölgələrdə yaşayan əhalinin qonşu ölkələrə rahat və ucuz səyahət etmək, müalicə olunmaq, alış-veriş etmək hüququnun bərpa olunması.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# Böyük Qayıdışı uğurla həyata keçirən LİDER




**İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin olunması məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" qəbul edilmiş və hazırda icra olunur.**

**Ötən müddət ərzində işğaldan azad edilmiş ərazilərin bərpasına dövlət büdcəsindən 12 milyard manatadək vəsait yönəldilmiş, mühüm yol-nəqliyyat, enerji təminatı və digər infrastruktur layihələri gerçəkləşdirilmiş, onlarca yaşayış məntəqəsinin təməli qoyulmuş və artıq bir sıra şəhər, kənd və qəsəbələrdə 1276 ailə və ya 5042 nəfərin məskunlaşması təmin edilmişdir.**

**2026-cı ilədək 34500 ailənin doğma torpaqlarda layiqli şəkildə yaşayışı təmin ediləcək, həmin ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası istiqamətində mühüm addımlar atılacaqdır.**

## Böyük Qayıdışa dair Dövlət Proqramı

Prezident İlham Əliyevin 16.11.2022-ci il tarixli 3587 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir.

Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapmışdır.

Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmışdır.

## Böyük Qayıdış strategiyası

Strategiya yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş əraziləri ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir.

Belə ki, layihələndirmə işlərində tətbiq olunan yeniliklərin bir çox dövlətlər üçün nümunəvi model kimi qəbul olunması və məsələ ilə bağlı səslənən beynəlxalq etiraflar Qayıdış strategiyasının effektivliyi və perspektivliyi haqqında xəbər verir.

## Böyük Qayıdışın hədəfləri

- ☑ Ərazilərin minalardan təmizlənməsinin davam etdirilməsi;
- ☑ Təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili;
- ☑ Ərazilərdə müasir yaşayış məntəqələrinin - şəhər, qəsəbə və kəndlərin tikintisi;
- ☑ Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması;
- ☑ Əhalinin geri qayıdışının və dayanıqlı məskunlaşmanın təmin edilməsi, bu məqsədlə ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası;
- ☑ Ərazilərdə Azərbaycan xalqının milli-mədəni irsinin bərpası;
- ☑ Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi.

## Reallığa çevrilən Zəngəzur dəhlizi

Yeni nəqliyyat infrastrukturu "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin önəmli hissəsini təşkil edəcək. Zəngəzur dəhlizinin açılması bütün bölgə üçün yeni imkanlar açacaqdır. Yeni nəqliyyat dəhlizi türk dünyasını, Avropanı və bütün qonşu ölkələri birləşdirə biləcək qlobal layihədir.

## Ərazilərin bərpası və yenidən qurulması

- ☑ "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, ilkin mərhələdə 100 yaşayış məntəqəsinin (8 şəhər, 8 qəsəbə və 84 kənd) bərpa edilməsi nəzərdə tutulub. Bu günədək ümumilikdə işğaldan azad edilmiş 8 şəhərin Baş Planı hazırlanıb.
- ☑ 2022-ci ilin 19 iyul tarixindən etibarən 2 şəhərə (Laçın və Füzuli şəhərləri) və 3 kəndə (Zəngilan rayonunun Ağalı, Ağdərə rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri) ümumilikdə 1276 ailə olmaqla 5042 nəfər keçmiş məcburi köçkünün qayıdışı baş tutub.
- ☑ İşğaldan azad edilmiş ərazilərin bərpa-quruculuq işlərində dost xarici dövlətlər də yaxından iştirak edirlər. Füzuli şəhərində Özbəkistan Respublikası tərəfindən inşa edilən orta məktəb 2023-cü ilin 23 avqust tarixində istismara verilmiş, Qazaxıstan Respublikası tərəfindən inşa edilən uşaq musiqi məktəbinin tikintisi isə yekunlaşmaq üzrədir. Həmçinin Macarıstan şirkəti tərəfindən Cəbrayıl rayonunun Soltanlı kəndinin, Slovakiya şirkəti tərəfindən isə Ağdam rayonunun Qərvənd kəndinin layihələndirilməsi işləri sürətlə aparılmaqdadır.
- ☑ 5 məktəb binası Füzuli, Laçın şəhərlərində, Zəngilan rayonunun Ağalı kəndində və Ağdərə rayonunun Talış kəndində istifadəyə verilib.
- ☑ Şuşa şəhərində 1 xəstəxananın tikintisi işlərinə başlanılıb.
- ☑ Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa, Laçın və Kəlbəcər rayonlarında İşğal və Zəfər muzeyləri komplekslərinin (cəmi 8 kompleks) layihələndirilməsi işləri davam edir.
- ☑ Turizmin inkişafı istiqamətində həyata keçirilən infrastruktur layihələri çərçivəsində 5 (Şuşa - "Qarabağ", "Xarı bülbül" hotelləri, Şuşa Hotel-Konqres Mərkəzi, Zəngilan Konqres Mərkəzi, Ağdam Konqres Mərkəzi) hotel və konqres mərkəzləri bərpa və yenidən inşa olunaraq istifadəyə verilib.
- ☑ Füzuli və Zəngilan şəhərlərində beynəlxalq hava limanları istismara verilib, Laçın rayonunda hava limanının tikintisi sürətlə davam etdirilir.
- ☑ Ümumi uzunluğu 2138 km olan 22 yol layihəsi üzrə 7 yol layihəsinin tikintisi artıq başa çatdırılıb.
- ☑ Uzunluğu 47,1 km olan Bərdə-Ağdam və uzunluğu 110,4 km olan Horadiz-Ağbənd dəmir yolu xətlərinin tikintisi davam etdirilir.
- ☑ Bölgənin enerji təminatı sahəsində: 1 ədəd 330 kV-luq, 11 ədəd 110 kV-luq yarımstansiyalar, 14 su-elektrik stansiyası istismara buraxılıb, ümumi uzunluğu 709 km olan 14 elektrik verilişi xətti istifadəyə verilib.
- ☑ 12 su-elektrik stansiyasının tikintisi və ya yenidən qurulması davam etdirilir.
- ☑ Suqovuşan və Xaçınçay su anbarları təmir-bərpadan sonra istifadəyə verilib.
- ☑ İşğaldan azad edilmiş ərazilərin 115 min hektardan artıq ərazisi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

## İrimiqyaslı infrastruktur layihələri

Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 12 milyard manatadək vəsait ayrılıb.

Üç hava limanının inşa olunması, 100 kilometrlərlə dəmir yolunun çəkilməsi regionun logistik simasını tamamilə dəyişdirəcək. Minlərlə kilometr avtomobil yolu çəkiləcək. Təsdiq olunmuş investisiya planına əsasən, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq.

Bütün azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa edilib. Bütün bölgələrdə elektrik enerjisi ilə bağlı layihələr qısa müddət ərzində icra ediləcək. İşğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerjinin potensialı on min meqavat təşkil edir. Artıq bir neçə su-elektrik stansiyasının açılışı baş verib. Su elektrik enerjisinin ümumi gücü beş yüz meqavatdan çox olacaq.

İçməli su və bununla bağlı işlər, kənd təsərrüfatı işləri, bir milyon insanın doğma məkanlarına qaytarılması, yüzlərlə məktəb, xəstəxana, idman kompleksləri, mədəniyyət ocaqlarının inşası, habelə digər irihəcmli işlər Böyük Qayıdış çərçivəsində reallaşdırılacaq.

## Postmüharibə dövrü üzrə sosial dəstək

- ☑ Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək proqramı icra olunur. Bu proqram həmin şəxslərdən ibarət 126 min şəxsi əhatə edərək, onlara dəstəkyönümlü 326 min xidmət göstərilib.
- ☑ Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, postmüharibə dövründə onlara 6000, ümumilikdə ötən dövrdə 14800, həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 44 günlük Vətən müharibəsindən sonra 476 avtomobil, ümumilikdə ötən dövrdə 7600 avtomobil verilib;
- ☑ Şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları olan 104 min nəfər şəxsə 117 min aylıq sosial ödəniş təyin olunub;
- ☑ 11 min nəfərə 56,3 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib;
- ☑ 21 min nəfər şəxsin məşğulluğu təmin edilib (o cümlədən 10,4 min şəxs özünüməşğulluq proqramına cəlb olunub);
- ☑ Müharibə ilə əlaqədar əlilliyi olan 2080 şəxs 50 min nəfər reabilitasiya vasitəsi (o cümlədən 460 şəxs 481 ədəd yüksək texnologiyalı müasir protezlə) təmin olunub;
- ☑ Vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 104 min şəxsə xidmətlər göstərilib.

## Keçmiş məcburi köçkünlərə qayğı

2010-2020-ci illərdə 59 yeni qəsəbə və hündürmərtəbəli binalardan ibarət yaşayış kompleksi tikilərək istifadəyə verilib. Beləliklə, 31 min məcburi köçkün ailəsinin, yəni 118 min nəfərin mənzil-məişət şəraiti yaxşılaşdırılıb. 16 fin tipli qəsəbədən sonuncusu 2016-cı ildə ləğv edilib.

2010-2020-ci illər ərzində qaçqın və keçmiş məcburi köçkünlərin sosial problemlərinin həlli üçün 5,7 milyard manat vəsait ayrılıb. Ötən 10 ildə keçmiş məcburi köçkünlər arasında yoxsulluq həddi 23 faizdən 8 faizə düşüb. 2010-2020-ci illərdə keçmiş məcburi köçkünlərə verilmiş vahid aylıq müavinətin məbləği 1,8 milyard manat olub.

Keçmiş məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında Prezident İlham Əliyev tərəfindən iki dəfə sərəncam imzalanıb, müavinətin məbləği müvafiq olaraq 10% və 50% artıb.




**Hörmətli seçici!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Zəfər bütün regiona sülh və davamlı inkişaf imkanı qazandırıb. Prezident İlham Əliyevin gələcəyə xidmət edən strategiyası sayəsində regionun beynəlxalq statusu dəyişmiş və region ölkələrinin inkişafı üçün yeni imkanlar açılıb. Münaqişənin həlli regionun təhlükəsizliyi və kommersiya cəlbediciliyi baxımından strateji əhəmiyyətə malikdir. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək.**

**İnanırıq ki, yaranmış yeni reallıqlar fonunda bu mürəkkəb missiyanın həyata keçirilməsi üçün siz cənab İlham Əliyevi dəstəkləyəcək, bununla da gələcək tərəqqi və rifahımıza dəyərli töhfənizi verəcəksiniz.**









Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

## Böyük Quruluş Partiyasından Azərbaycan Respublikası Prezidentliyinə namizəd

# FAZİL MUSTAFANIN

## SEÇKİ PLATFORMASI

**(1 həyati + 50 vacib MƏSƏLƏ)**




### 1. Təhsilin keyfiyyətinə nəzarət - bu, təhsil müfəttişlərinin yoxlaması demək deyil!

Mənim üçün həyati məsələ təhsildir. Həm də siam ekizləri kimi bir-birindən ayrılmaz təlim və təhsil.

Bu gün ölkədə təhsilin keyfiyyətinin yüksəldilməsindən çox danışılır. Amma necə? Şübhəsiz ki, təhsilin keyfiyyətinin yüksəldilməsi, ümumilikdə, bir çox amillərlə bağlıdır. Ancaq bu amillərdən mühüm olanlarından biri də keyfiyyətə nəzarət mexanizmləri ilə bağlıdır.

Artıq müəllimlik şagirdi bazar şərtlərinə və rəqabətə hazırlayan texniki bir iş səviyyəsinə salınmışdır. Bu müəllim tipi ictimai məsuliyyətlərdən uzaqlaşmış, vəzifəsi şagirdləri mərkəzi imtahanlara hazırlamağa bərabər olan mexaniki bir texnik-müəllim olaraq tanına bilir. Etik və ədalət cavabdehliyi daşımayan bir müəllimlik modeli ortaya çıxmışdır.

Sivil dünya təcrübəsinə görə təhsilin keyfiyyətinə ən effektiv nəzarət müstəqil ekspertlər və bütövlükdə vətəndaş cəmiyyəti tərəfindən həyata keçirilənidir. Belə ki, dövlət tərəfindən müəyyən edilən standartlar əsasında apanlan təhsil prosesinin keyfiyyətinin konkret nəticələr əsasında obyektiv şəkildə qiymətləndirilməsi üçün heç bir tərəfdən asılı olmayan müstəqil qiymətləndirməyə ehtiyac var. Yalnız dövlət tərəfindən təhsilin keyfiyyətinə nəzarət edilməsi iki səbəbə görə effektiv deyil. Birincisi, təhsil standartlarını dövlət özü müəyyən edir ki, əgər təhsilin keyfiyyətsizliyi bununla bağlı olsa, obyektiv və subyektiv olaraq bu ortaya çıxarılmayacaq. İkincisi, dövlət nəzarəti heç də şəffaf olmadığından, bu nəzarətin təhsilin keyfiyyətinə də real olaraq heç bir müsbət təsiri olmur.

Bir sözlə, ölkədə təhsilin keyfiyyətinin təmin edilməsinin zəruri şərtlərindən biri kimi keyfiyyətə müstəqil nəzarət mexanizmləri formalaşdırılmalıdır. Təcili olaraq aşağıdakı işləri görməliyik:

- *2005-ci ildən qoşulduğumuz Boloniya prosesindən ya imtina etməliyik, ya da ciddi şəkildə onun prinsiplərinə əməl etməliyik.*
- *Dövlətin böyük vəsaiti hesabına xarici ölkələrin ali məktəblərində təhsil alan tələbələr mütləq qayıdıb 5 il Azərbaycanda çalışmalıdırlar. İKT, fundamental elmlər, kənd təsərrüfatı, qida təhlükəsizliyi və s. sahələrdə kadr çatışmazlığını aradan qaldırmalıyıq.*
- *Müəllimlik peşəsini seçən, yüksək bal toplayan tələbələr stimullaşdırılmalıdır.*
- *Bölgələrimizdə müəllim çatışmazlığı danılmaz faktdır. XXI əsrdə belə hallar aradan qaldırılmalıdır. Coğrafiya müəllimi fizika, biologiya müəllimi riyaziyyat dərsini keçir. Fənlərin qeyri-ixtisas müəllimləri tərəfindən tədris olunması qəbul imtahanlarında öz mənfi təsirini göstərir. Müəllimlərin regionlara həvəslə dərs deməyə getməsi üçün əlavə stimullaşdırıcı tədbirlər hazırlanmalıdır.*

Bizdə bilərəkdən təhsilin metodoloji, pedaqoji problemlərindən deyil, epizodik detalları gündəm etməyə çalışılır. Sertifikasiyadan, müəllimin uşaq döyməsindən, uşağın tik-tokda nəsə paylaşmasından bəhs edilir. Buna görə də mən istəyirəm ki:

- *bir uşaq belə təhsildən kənarda qalmasın;*
- *uşaqların azı 70 faizi məktəbəqədər təhsilə cəlb olunsunlar;*
- *çağımızın tələbinə uyğun tərbiyəçi - müəllim hazırlığı üçün proqram qəbul olunsun;*
- *şagirdlər repetitorsuz fənn proqramlarını mənimsəsinlər;*
- *müəllimlər dərs deməklə yanaşı, həm də tərbiyələndirsinlər;*
- *müəllim şagirdi döyməsin;*
- *şagirdin əlində telefon yox, kitab olsun;*
- *bütün məktəblərimiz keyfiyyətli təhsil versin, keyfiyyətdə coğrafiya faktoru götürülsün;*
- *məktəblərə direktor seçimi tanışlıq, qohumluq və maddi maraqla olmasın;*
- *elə dərsliklər yazılsın ki, şagirdlərin başqa mənbələrdə (test kitabçalarında) gözü qalmasın;*
- *məktəb məzunlarının azı 40 faizi keyfiyyətli təhsil və peşə öyrədən peşə məktəblərinə üz tutsunlar;*
- *internat məktəblərində uşaqların payına göz dikilməsin;*
- *ölkədə azı 20 müasir peşə təhsili məktəbi qurulsun;*
- *bütün ixtisaslar üzrə ali təhsil alanlar özlərinə asanlıqla iş tapa bilsinlər;*
- *ali məktəb müəllimləri o qədər maraqlı mühazirə oxusunlar ki, kənardan da dinləyicilər mühazirəni dinləməyə meyil etsinlər;*
- *müəllimlə tələbə oxuduqları kitabı müzakirə etsinlər;*
- *pullu özəl orta məktəblər hər il kasıb istedadlı uşaqlara 10 faiz yer ayırsınlar;*
- *məktəblərə əsasən kitabı bilən və intellektual şəxslər rektor təyin olunsun;*
- *mən istəyirəm ki, azı 3 universitetimiz dünyanın aparıcı reytinqlərində əhəmiyyətli yer alsın.*

### 2. Orduya, təhlükəsizlik və hüquq-mühafizə qurumlarına parlament nəzarəti faydalıdır

Orduya, təhlükəsizlik və hüquq-mühafizə qurumlarına parlament nəzarətinin həyata keçirilməsi mexanizmini müəyyənləşdirmək üçün yenidən Amerika kəşf etməyə gərək yoxdur. ATƏT-in Parlament Assambleyasının bu məsələyə dair Qətnaməsi mövcuddur və ATƏT üzvü olan ölkələrin əksəriyyətində belə bir təcrübə var. Bizdə hər hansı bir Avropa dövlətinin modelini tətbiq etmək kifayətdir. Bu məsələnin həlli üçün sadəcə siyasi iradə ortaya qoyulmalıdır. Əks halda bu sektor ciddi ictimai nəzarətdən kənarda qalacaq və problemlərin çoxu öz aktuallığını saxlayacaq. Bu qurumların ölkənin ərazi bütövlüyünün bərpa olunmasında, sabitliyin qorunmasında, kriminogen duruma nəzarətdə gördüyü çox böyük işlər var və bunu yüksək qiymətləndiririk. Lakin bunlarla yanaşı, son on ildə bu qurumlarda baş verən və dövlətin imicinə zərər yetirən hadisələrin əsas səbəbi məhz belə bir nəzarət mexanizminin olmamasından qaynaqlanmışdır. Bu isə istər ordunun, istərsə də digər qurumların nüfuzuna ciddi ziyan vurmuşdur.

Qarabağda 44 günlük savaşda əldə olunan təcrübəyə əsaslanaraq birmənalı şəkildə peşəkar ordu quruculuğuna keçilməsini zəruri hesab edirik. Hərbçilərin maaşları rütbə və vəzifəyə görə bərabərləşdirilməli, döyüş təcrübəsi olan bir çox zabitlərin tərxisinin səbəbləri araşdırılaraq onların əsassız tərxisinin qarşısını almalıyıq. Təhlükəsizlik orqanlarının və polis işçilərinin sosial vəziyyətinə xüsusi diqqət yetirməli, onların və ailə üzvlərinin yüksək yaşam standartlarını təmin etməliyik.

### 3. Yüksək mədəniyyətli azərbaycanlını necə "istehsal" edək?

Yeni çağırışlar Mədəniyyət Nazirliyinin yaradıcı, ideoloji və uzlaşdırıcı rolunun əhəmiyyətli dərəcədə yüksədilməsini tələb edir. Qarşıya rəqabətqabiliyyətli insan kapitalının inkişafına təkan verən vəzifələr qoyulmalıdır. Yüksək mədəniyyətli azərbaycanlı ölkəmizin rəqabətqabiliyyətli və təhlükəsiz milli inkişafının bərpaolunan strateji resursu və başlıca hərəkətverici qüvvəsidir. Yüksək mədəniyyətli azərbaycanlıların "istehsalı"nın ən mühüm siyasi texnologiyaları qismində elm, təhsil, ilk növbədə uşaqlar və gənclər olmaqla, insanların maarifləndirilməsi və tərbiyələndirilməsi, şəxsiyyət mədəniyyətinin, ailə mədəniyyətinin, əmək kollektivlərinin və bütövlükdə cəmiyyətin mədəniyyətinin inkişafı dayanır.

Mədəniyyət siyasəti yalnız mədəni irsin mühafizəsi üzərində qurulsa, onda biz heç vaxt dünya mədəniyyətinin dilində danışa bilməyəcək, qatıldığımız bütün beynəlxalq tədbirlərdə əvvəlki kimi etnoqrafik libasda görünəcək, folklor mərhələsində ilişib qalmış xalq sayılacağıq. Müasir dünyada mədəniyyət sahəsində mədəni irsin mühafizəsi belə çağdaş, dinamik metodlara əsasən həyata keçirilir. Məsələn, İngiltərədə 5 öz janrında populyar əsərlər yazan müəllifə Şekspirin yubileyində onun məşhur pyesləri verilir ki, onları yenidən müasir dövrə uyğun yazsınlar. İndi əsas məsələ mədəniyyətin (buna çağdaş nəzəriyyədə "simvolik sərmayə" də deyirlər) sistemli şəkildə vicdanlı seçimlərlə ixrac olunmasıdır. Neçə illərdir ki, mədəniyyət sahəsində daha çox bizim dilə tərcümə və ya təqlid formasında xaricdən idxal var.

Digər tərəfdən mədəni prosesin mərkəzdən bölgələrə doğru yayılmasına təkan vermək lazımdır. Mədəni proses ölkəboyu getmir, az qala bütün sənət qurumlarını, kitab evlərini bir küçəyə yığmışıq. Hətta paytaxtın içində belə mərkəzlə mərkəzyanı arasında uçurum var. Tiraj qalxmayınca, mədəni proses mərkəzdən kənara çıxmayınca, oxucunun sayını dəqiq bilməyəcəyik.

Mədəniyyət müəssisələrinin əlçatanlığını və hər bir uşağın əlavə təliminin bu strukturlardan keçməsini təmin etmədikcə, ayrıca xüsusi istedadlar xaric, cəmiyyətdə mədəni mühit formalaşdırmaq mümkün olmayacaq. Kitabxanaların, muzeylərin, konsert və sərgi salonlarının modern işlək modelini qurmalıyıq, yaradıcı insanı vaxtında dəstəkləyən mexanizmləri canlandırmalıyıq.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# Prezidentliyə namizəd Zahid Orucun Seçki Platforması

**➔ Qalib Gələcəyə - HƏ!**
**➔ 4-cü Respublika: Azərbaycanın Qalib Yüz İli!**
**➔ Ən böyük sərvət İnsandır!**




### ➔ Dövlət idarəçiliyinə baxış: Zəfər Yaşantısı və Ədalət Haqqı! Hamıya və Hər kəsə! Qalib yüz ili - zəkalar, ideyalar yaradacaq. Ən böyük sərvətimiz - insanımızdır.

Azərbaycanın qalib 100 ili strategiyasının fokus nöqtəsi - yeni və təkmil, çevik və rəqabətədavamlı dövlət idarəçiliyini formalaşdıran kadrlardır.

Hazırda dünyada yaşanan yalnız sistemli hərbi, siyasi-iqtisadi böhranı deyil, həm də ən başlıcası - idarəçilik böhranıdır. Bu məsələ paradoksal olaraq həm də ləyaqətli kadrlar, insan amili, idarəedici lider faktoru/ böhranı ilə bağlıdır. Dünya tarixi göstərir ki, Amerika arzularının, Sinqapur\Yaponiya möcüzələrinin bir yaradıcısı var - savadlı insan-vətəndaş. Bu gün ölkədən gedən hər bir "beyin axını" sərvətimizin damla-damla azalması deməkdir.

2018-ci ildən Azərbaycanda sözü gedən sahədə - dünyada baş verən idarəetmə inqilabına - "dövlətə peşəkarlıq və ləyaqətlə xidmət" sisteminin formalaşmasına start verilib. Konkret nəticə əsasında xidmətin dəyərləndirilməsinin "performans sistemi" burada əsas götürülür. Dövlət aparatının optimallaşması, operativ və çevik qərarların qəbul olunmasına potensialı olan, peşəkar kadrlar korpusunun formalaşması, paralel strukturların aradan qaldırılması və mövcud strukturların yenidən təşkili həm də büdcə vəsaitinə qənaət deməkdir.

Lakin dönüş yarada bilən, beyin axınını səngidən faktora çevrilən həllərə ehtiyac var. Kadr islahatları - islahatçı, təşəbbüskar kadrlar deməkdir. Kadr islahatlarının yeganə meyarı isə xalqa xidmətin örnəyi, ona verilən ən böyük qiymət - Azərbaycan xalqı tərəfindən verilən qiymətdir!

### ➔ Xarici siyasət: IV Respublika: Yüksələn Regional Güc - Azərbaycan!

Şübhəsiz ki, qalib adımız, sanbalımız bizə təkcə dost deyil, həm də düşmən ölkələr qazandırıb.

Azərbaycan regionda və dünyada tamamilə yeni reallıq yaradıb. Planetar güc potensialı qlobal piramidanın zirvəsindən regionlara doğru yönəlir. Bu reallıq yeni qüvvələr balansını, daha geniş anlamlı regional miqyasda yüksələn yeni regional gücü dünyaya tanıdacaq. Şübhəsiz ki, bu, Azərbaycan olacaq!

Tam suverenliyini bərpa edən regionun lider dövləti Azərbaycan bölgəyə kənar güclərin müdaxilə və təzyiqinin əleyhinədir. Bölgəyə sülhü bölgə ölkələri gətirə bilər.

Müşahidə missiyaları, sülhməramlı kontingent adı altında istənilən statuslu kənar qüvvəni gətirmək cəhdləri əbəsdir və Azərbaycan buna heç zaman imkan verməyəcək.

Azərbaycan kimi ölkələrlə hesablaşmağın dərk edildiyi əsr gəlir. Xalqımız buna çox yaxında əmin oldu. Beynəlxalq sistemdə güc və təzyiq siyasətinə yox deyirik. Qlobal güc sayılan ölkələrin uzun illər apardığı siyasət artıq bumeranqa çevrilib, özlərini hədəfə alıb.

Bəşəriyyət sürətli dəyişikliklərin çətin mərhələsini yaşayır, yeni təhlükələr yaranır. Azərbaycan bütün dünyanın üzləşdiyi problem və çağırışları məsuliyyətli, peşəkar şəkildə dərk və dəf edir. Bizim vəzifəmiz Azərbaycanın təhlükəsizliyini və suverenliyini etibarlı şəkildə qorumaqdır.

### ➔ IV Respublika: 4-cü Sənaye İnqilabı dövrünün iqtisadiyyatı: Zəka iqtisadiyyatıdır

Dövlətçiliyimizin yeni tarixi mərhələsində bütün sahələr: iqtisadiyyat, elm və təhsil, mədəniyyət Süni İntellekt əsrinin, 4-cü Sənaye İnqilabının çağırışlarına cavab verən rejimdə çalışmalıdır. 7 fevraldan sonra yuxarıdan direktivlər gözləyən passiv icraçı məmur sistemi yeni dövlət quruculuğunda yer ala bilməyəcək. Süni İntellekt əsrinin dövlət idarəçilik sistemi Beyin Mərkəzi kimi çalışmalı, hər bir şəraitdə problemlərin üzərinə beyin hücumunu təşkil edəcək aidiyyətli strukturlar təsis edilməli, tədqiqat və data əsaslı, ictimai rəy əsaslı idarəetmə bütün səviyyələrdə bərqərar olmalıdır.

Artıq "postrəqəmsal" eranın başlanması bəyan edilib. Elm və təhsil sistemində aşağıdan yuxarıya qədər zəka iqtisadiyyatının çağırış və tələblərinə cavab ölkənin yüksək insan kapitalına əsaslanan iqtisadi gücü - milli gücün əsas parametridir. Peşə seçimləri, əməkqabiliyyətli əhali arasında peşə bacarıqlarının uyğunsuzluğu kimi neqativ halların trendlərə çevrilməsinin qarşısını almalıyıq. Bu istiqamətdə atılacaq ilk addımlar "Elm və texnologiya siyasəti haqqında", "Süni İntellekt haqqında" və s. aidiyyətli qanunların qəbul edilməsidir. Ölkəmizin potensialı "Süni İntellekt Nazirliyinin" yaradıldığı ölkələrdən (BƏƏ) geridə deyil. Onun reallaşdırılması günün tələbidir.

### ➔ "Böyük Qayıdış" Strategiyasının "Böyük Dönüş!"lə tamamlanması

Böyük Dönüş: Qarabağa, Torpağa, Bölgələrə, Köklərimizə, Dəyərlərimizə, Kəndə.

Azad edilmiş ərazilərə Böyük Qayıdış dövlət proqramı qəbul edlib, həyata keçirilir. Qayıdış konseptinə baxışımız fərqlidir. Daha təfərrüatlı təqdim edəcəyimiz yanaşmanın yığcam izahı bundan ibarətdir ki, Qayıdış Azərbaycanın məkan müstəvisində inkişafı üçün geniş miqyaslı proqramı əhatə edən nəhəng sosial-demoqrafik milli layihəyə transformasiya edilməlidir. Bu, "Böyük Dönüş" layihəsidir.

Sözügedən layihə şərçivəsində regionlarda məşğulluq və s. problemlər səbəbindən şəhərə miqrasiya edən kənd əhalisi bağlı olduğu doğma kəndlərinə dönməlidir.

Dünyanın urbanizasiya deyil, aqrosivilizasiya formatında təşkilatlanması qlobal trend hesab edilə bilər. Böyük Dönüşün müxtəlif istiqamətlərdə reallaşdırılması həm məşğulluq, həm də ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından strateji istiqamətdir.

### ➔ Aqrar sektorun inkişafı, yaşıllaşan kəndlər "Böyük Dönüş" layihəsinin müsbət nəticəsi olacaq

XXI əsrin aqrar sektoru tamamilə fərqli, rəqəmsallaşmış sektordur. Müasir dövrün kənd təsərrüfatı milli iqtisadiyyatların yeni mühərrikinə çevrilib. Yeni mərhələdə kəndlərimiz inkişafı ilə yadda qalacaq. Biz kənd yerlərində kütləvi məşğulluğa şərait yaradacaq, kəndlilərin sahibkarlıq təşəbbüslərini dəstəkləyəcəyik.

Sakinlərin torpaq sahəsinə çıxışları mümkün olacaq. Bunun üçün iri mülkiyyətçilərin istifadəsiz qalan torpaq sahələrinin dövlət mülkiyyətinə qaytarılması gərəkdir.

Aqrar sektorda inhisardan çıxarma şəffaf hüquqi prosedurlar, vergi güzəştləri və müasir texnologiyaların tətbiqi ilə müşayiət olunmalıdır. Effektiv suya qənaət texnologiyalarını tətbiq etmək, meliorasiya və suvarma sistemini bərpa etmək lazımdır.

Dövlət kənd təsərrüfatı kooperativlərinin təşkili üçün genişmiqyaslı layihələr həyata keçirəcək. "Kənddən şəhərə", "tarladan mağaza rəflərinə" kəndli kooperativlərinə qədər birbaşa məhsul tədarükçüsü olmasına şərait yaradılacaq. Effektiv olmayan vasitəçilər aradan qaldırılacaq.

Azərbaycan kəndinin inkişafında dönüş yaratmaq üçün sərhəd kəndlərində məskunlaşdırmanın möhkəmləndirilməsinə dair ayrıca - milli təhlükəsizliyin mühüm demorqafik, iqtisadi və sosial əsası kimi yeni inkişaf konsepsiyası hazırlanacaq.

Kiçik və orta biznes, sahibkarlıq subyektlərinin inkişafı məşğulluğun təmin edilməsində aparıcı mövqeyə malikdir. Dünya Bankının məlumatlarına əsasən, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı payı müvafiq olaraq 50 və 60 %-dən yuxarıdır. Belə ki, dünyanın inkişaf etməkdə olan ölkələri də iqtisadi dayanıqlılığın gücləndirilməsi, rəqabətqabiliyyətliliyin artırılması və iqtisadi aktivliyin təmin edilməsi üçün KOS-un inkişafı istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi, Azərbaycan iqtisadiyyatında payının qısa zamanda qabaqcıl ölkələrdəki faizə qədər yüksəlməsi ön şərtdir. Bu kəsimdən olan şəxslərə öz bizneslərini asan qurmağa imkan verən liberal şərtlər yaradılmalı, iş görmək istəyən hər kəsə ölkəmizdə fürsətlər məkanı kimi mühit formalaşmalıdır.

### Dövlət idarəçiliyində struktur və inzibati islahatlar

Azərbaycanda mərkəzi və yerli icra strukturlarının fəaliyyəti regionlara aid edildikdə, onların arasında sıx koordinasiyanın olmaması, məmur problemi də əlavə olunmaqla vətəndaş məmnunluğuna maneələr yaradır, sosial narazılıqlara səbəb olur. Bu məsələnin həllinin bir yolu - mərkəzin səlahiyyətlərinin yerli idarəçilik qurumlarına ötürülməsi ola bilər. Vətəndaş narazılığına səbəb olan nə varsa, onun çevik həlli üçün səlahiyyətlər də yerli qurumlara verilməlidir.

Məmurlar vəzifəyə təyin edilərkən "Azərbaycana xidmət edirəm" andı içməlidir. Vətəndaşın olduğu kimi, Vətənin də hər kəsdən gözləntisi var. Dövlətimizin, Millətimizin uğuru son nəticədə hərənin öz iş yerində xidmətindən, onun keyfiyyətindən asılıdır. Bu gün dünya daxili siyasətində, xarici siyasətində, milli müdafiədə, təhsildə, elm və texnologiyada, səhiyyədə, və s. sahələrdə ölkələr misli görünməmiş çağırışlarla üzləşirlər. Buna görə ölkələr sədaqət və məsuliyyət, eləcə də peşəkar və enerjili insanlardan asılıdır.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# 7 fevral 2024



# VARLI VƏTƏNDAŞ VARLI ÖLKƏ!



## Prezidentliyə müstəqil namizəd Əliyev Fuad Ağasi oğluna SƏS VER!

**Hörmətli Azərbaycan Respublikasının vətəndaşları!**
**Əziz seçicilər!**

7 fevral 2024-cü il tarixi Azərbaycan dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı kimi əlamətdar olacaqdır.

Bu günü Azərbaycan tarixinə qızıl hərflərlə yazmaq, gələcək nəsillər üçün suveren Azərbaycanı qoruyub yaşatmaq, ata-babalarımızdan bizə əmanət qalan dövlətçiliyimizi əmin dövlət başçısına etibar etmək Sizin əlinizdə olacaqdır. Müstəqil ölkənin müstəqil vətəndaşları olaraq seçkiyə gəlmək və layiq bildiyiniz namizədə səs vermək seçki günü ölkəmiz adına görə biləcəyiniz ən şərəfli iş və böyük vəzifədir.

"Vətəndaş Birliyi" seçki qərargahı vətəndaşlarımızın gələcək rifahı, dövlətimizin əbədi müstəqilliyi və suverenliyimizin qorunması üçün təsis olunmuş və Prezident seçkilərində mənim namizədliyimi irəli sürmüşdür. Vətəndaşlarımızın şəxsimə olan etimadını və inamını doğrultmaq üçün Prezident seçkilərində namizəd olmağı qəbul etmiş və bu məsuliyyəti dərindən dərk edərək seçkilərdə iştirakı şərəfli vəzifə hesab etmişəm.

Bu gün nəinki bizim dostlarımız, hətta bizi sevməyən bədxahlar belə ölkəmizin qazandığı uğurlardan və qələbələrdən heyranlıqla bəhs edirlər. Azərbaycanın bugünkü inkişafının davamlılığını təmin etmək, onu məkrli təsirlərdən qorumaq hər bir vətəndaşın və dövlətə rəhbərlik edən şəxsin çiyinlərinə ali və böyük məsuliyyət qoyur.

Bu böyük missiya və şərəfli işi davam etdirmək üçün qatıldığım Prezident seçkilərində mənə güvənəcəyinizə əminliyimi ifadə edirəm.

"Vətəndaş Birliyi" seçki qərargahının müəyyənləşdirdiyi və namizəd kimi rəhbər tutduğum prinsipial tezislər:

- ✓ MİLLİ BARIŞ, MƏSULİYYƏTLİ HAKİMİYYƏT.
- ✓ PREZİDENT XALQIN XİDMƏTİNDƏ OLMALIDIR!
- ✓ NEYTRAL AZƏRBAYCAN.
- ✓ İNSAN ZƏKASI NEFT VƏ QAZDAN DAHA ƏHƏMİYYƏTLİDİR.
- ✓ KORRUPSİYA YOX, YÜKSƏK QİYMƏTLƏRƏ YOX, İNHİSARÇILIĞA YOX.
- ✓ AŞAĞI VERGİ, DÖVLƏT QAYĞISI, LAYİQLİ MAAŞ.
- ✓ VARLI VƏTƏNDAŞ - VARLI ÖLKƏ.

## "Vətəndaş Birliyi" seçki qərargahının namizədi Fuad Əliyevin SEÇKİ PROQRAMI:

### İdarəetmədə islahatlar:

- ❖ Azərbaycanda dövlət idarəetməsində vətəndaş cəmiyyətlərinin iştirakının gücləndirilməsi;
- ❖ Ölkənin ərazi idarəetməsində islahatlar aparılması. Prezidentin 7 region üzrə nümayəndəliyinin formalaşdırılması. Mövcud icra hakimiyyətlərinin səlahiyyətlərinin bələdiyyələrə verilməsi;
- ❖ Nazirlər Kabinetinin səlahiyyətlərinin vitse-prezidentlik institutu ilə əvəz edilməsi;
- ❖ İdarəçilik sistemində bürokratiyanın qarşısını almaq məqsədilə dövlət idarələrinin təmərküzləşdirilməsi;
- ❖ Ordu quruculuğunda çağırış sistemindən imtina edilməsi, peşəkar döyüş qabiliyyətli ordunun qurulması.

### Sosial-iqtisadi hədəflər:

- ❖ Əhali üçün yanacaq və elektrik enerjisi qiymətlərinin 2024-cu il aprelin 1-dən aşağı salınması;
- ❖ Azərbaycanda yaşayış minimumunun, habelə sosial müavinət və pensiyaların artırılması. İnflyasiya göstəricilərini nəzərə alaraq minimum aylıq əməkhaqqının 500 manata qədər artırılması. Pensiya yaşının kişilər üçün 62, qadınlar üçün 59 yaş həddində müəyyən edilməsi.
- ❖ Müəllimlərin və həkimlərin maaşlarının artırılması ilə təhsil sistemində və tibdə korrupsiyaya qarşı ünvanlı islahatların aparılması. Həkim və müəllimlərin 5 ildən bir əlavə sertifikasiya imtahanlarının ləğv olunması;
- ❖ Ali təhsil sistemində rəqəmsal, habelə innovativ və nanotexnologiyalar üzrə mütəxəssislərin hazırlanmasına xüsusi diqqətin ayrılması. Mühəndislik və informasiya texnologiyaları kimi ixtisasların populyarlaşdırılması;
- ❖ Azərbaycan təhsilində 1985-ci ildən əvvəl dünyada ən yaxşı hesab edilən orta məktəb təhsili ənənələrinin bərpa edilməsi. Kurikulumdan imtina edilməsi;
- ❖ Vətəndaşların ödədiyi vergilərin azaldılması;
- ❖ Çörək istehsalının satışına və qiymətlərinə nəzarətin dövlətin inhisarçılığında olması;
- ❖ Bakı şəhəri və digər böyük şəhərlərdə 7 mərtəbədən yüksək binaların tikilməsinə rəsmi qadağa qoyulması.

### Beynəlxalq fəaliyyət:

- ❖ Azərbaycanın neytral ölkə statusunun rəsmi elan edilməsi;
- ❖ NATO və KTMT-yə bitərəf münasibətin saxlanması;
- ❖ Şanxay Əməkdaşlıq Təşkilatına və Avrasiya İqtisadi Birliyinə qoşulmaq istiqamətində fəaliyyət göstərilməsi və Türkdilli dövlətlərlə əməkdaşlığın gücləndirilməsi. Ölkəmizin GUAM təşkilatından çıxması;
- ❖ Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə ata-baba torpaqlarına qayıdışının beynəlxalq müstəvidə ədalətli həllinə nail olunması.

**Əziz seçicilər, seçkiyə gəlin və gələcəyinizə səs verin!**
**Layiqli həyatınızı FUAD ƏLİYEV ilə qazanın!**

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

## Əziz seçicilər!

7 fevral 2024-cü il tarixində Azərbaycan Respublikasının vətəndaşları prezident seçkisində iştirak edəcək və öz konstitusion hüquqlarından istifadə edərək ölkənin gələcək rəhbərini müəyyənləşdirəcəklər.

Bu seçki ilk dəfə Xalq-Ordu birliyi nəticəsində ərazi bütövlüyü və suverenliyi təmin olunmuş ölkəmizin bütün ərazisini əhatə edəcəkdir. Uşaqdan-böyüyə şanlı Vətən müharibəsi Zəfərində payı olan qalib vətəndaşlarımız bu seçkidə yeni qalibiyyət dastanı yazacaqlar.

Azərbaycanın sərhədlərinin tamlığı, suverenliyi, dünya birliyində layiqli yerini tutması, ölkədə demokratiyanın daha da inkişaf etməsi və vətəndaşlarımızın layiqli həyat səviyyəsinin təmin olunması üçün siyasi proseslərdə təmsil olunan Böyük Azərbaycan Partiyası bu seçkilərdə mənim namizədliyimi irəli sürmüşdür.

Bu böyük məsuliyyət və vəzifəni dərk edərək prezident seçkilərində iştirak edirəm. Namizədliyim üçün mənə dəstək göstərmiş minlərlə partiya üzvümüz və vətəndaşlarımızın etimadını doğrultmaq ən böyük amalımdır. Seçki Platforması ilə tanış olduqdan sonra bu seçkilərdə mənə etimad göstərəcəyinizə inanıram.

Sizləri seçkilərdə fəal iştirak etməyə dəvət edirəm.




Böyük Azərbaycan Partiyasının Azərbaycan Respublikası Prezidentliyinə namizədi

# Elşad Musayevin Seçki Platforması

# Böyük və Güclü Azərbaycan Naminə!

### Dövlətçilik və qanunçuluq

- Dövlətin vətəndaşlar qarşısında vəzifə qoymaqla yanaşı, həm də vətəndaşın hüquqlarının layiqli təminatçısına çevrilməsi;
- Demokratik hüquqi bazanın təkmilləşdirilməsi, daha demokratik və qanuni prinsiplər əsasında idarəçiliyin həyata keçirilməsi;
- Dövlətin bütün vətəndaşlar qarşısında bərabər imkanlar yaratması və hər kəsin savadı, qabiliyyəti müqabilində cəmiyyətdə mövqe qazanmasına nail olunması;
- Qanunların icra mexanizmlərinin təkmilləşdirilməsi;
- Tutduğu vəzifədən asılı olmayaraq, hamının qanun qarşısında bərabərliyinin ədalətli təmin olunması;
- Məhkəmələrdə və digər hüquq-mühafizə orqanlarında yalnız qanunlara əsaslanan qərarların verilməsinə nail olunması.

### Azərbaycanın milli təhlükəsizliyi və ordu quruculuğu

- Ölkənin milli təhlükəsizliyinin bütün sferalarda layiqli təminatı;
- Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasının uğurla həyata keçirilməsi;
- Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsinin milli ideya kimi gündəmdə saxlanması;
- Qazax rayonuna aid 7 kəndin və Kərki kəndinin işğaldan azad olunması;
- Ermənistanın sülhə məcbur edilməsi, delimitasiya və demarkasiya proseslərinin həyata keçirilməsi;
- Zəngəzur dəhlizinin açılması, tarixi torpaqlarımızla, Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın pozulmuş hüquqları ilə bağlı məsələlərin gündəmdə saxlanılaraq həll olunması;
- İşğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması;
- Böyük Qayıdışın təmin olunması;
- Azərbaycanda güclü ordu quruculuğunun davam etdirilməsi, müasir silahlı qüvvələrin formalaşdırılması, Azərbaycan Ordusunun dünyanın ən güclü orduları siyahısında mövqeyinin möhkəmləndirilməsi;
- Silahlı Qüvvələrin maddi-texniki təminatının ən müasir silahlarla daha da gücləndirilməsi;
- Azərbaycanın silah-sursat istehsalının təkmilləşdirilməsi və genişləndirilməsi.

### Sosial-iqtisadi inkişaf

- İşsizliyin aradan qaldırılması, yüksək əməkhaqqı, pensiya, müavinətlər, uşaq pulu vermək üçün ölkənin daha güclü iqtisadi inkişafına nail olunması;
- Neft-qaz strategiyasının uğurla davam etdirilməsi;
- Qeyri-neft sektorunun inkişaf etdirilməsi, xırda və orta biznesin stimullaşdırılması;
- Alternativ enerji resurslarının inkişaf etdirilməsi, "yaşıl enerji" strategiyasının reallaşdırılması;
- İnvestisiyaların təşviqi, sahibkarlığın inkişaf etdirilməsi, əlverişli biznes mühitinin təmin edilməsi;
- Xüsusi mülkiyyətin toxunulmazlığına təminat verilməsi;
- Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün dövlətin maliyyə dəstəyinin təmin edilməsi, kənd təsərrüfatı infrastrukturunun yenidən yaradılması;
- Turizmin inkişaf etdirilməsi;
- Regionların sosial-iqtisadi inkişafına nail olmaq üçün infrastrukturun yenilənməsi, yeni xidmətlər və istehsal sahələrinin, yeni iş yerlərinin yaradılması, yerli səviyyədə büdcələrin formalaşdırılması;
- Yoxsulluğun aradan qaldırılması üçün dövlət siyasətinin dərinləşdirilməsi;
- Dövlətin sosial müdafiə və sosial təminat xərclərinin artırılması, əməkhaqlarının və sosial ödənişlərin artım dinamikasına nail olunması;
- Şəhid ailələrinə, əlillərə, müharibə veteranlarına, aztəminatlı vətəndaşlara, uşaqlara, tələbələrə güclü dövlət dəstəyinin təmin edilməsi;
- Uşaqların daha yaxşı qidalanması, maddi və tibbi ehtiyaclarının təmin edilməsi, anaların sosial hüquqlarının genişləndirilməsi, çoxuşaqlı ailələrə dövlət dəstəyinin artırılmasına nail olunması.

### Təhsil, səhiyyə və mədəniyyət

- Azərbaycanda müasir təhsil infrastrukturunun formalaşdırılması, təhsilin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin əməkhaqqının artırılması;
- Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin kəskin artırılması;
- Gənclərin xaricdə təhsil almaları üçün dövlət proqramlarının genişləndirilməsi;
- Rəqəmsal transformasiya, süni intellekt, müasir texnologiyalar kimi dövrün çağırışlarına gəncliyin cəlb olunması;
- Müasir texnologiyaların tətbiq olunmasında gəncliyin rolunun artırılması və stimullaşdırılması;
- Vətəndaşların sağlamlığının qorunması, göstərilən tibbi xidmətlərin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi;
- Əhalinin bütün tibbi xidmətlərə və dərmanlara əlverişli şərtlərlə çıxışının təmin edilməsi;
- Səhiyyə infrastrukturunun müasir tələblərə uyğun yenidən qurulması;
- Əhalinin ödənişsiz dispanserizasiyasının davamlı təşkil edilməsi;
- İcbari tibbi sığorta sisteminin inkişafı və əhatə dairəsinin, xidmətlər zərfinin genişləndirilməsi;
- Azərbaycan mədəni irsinin qorunması üçün yeni proqramların başladılması;
- Ölkəmizin mədəniyyət infrastrukturunun davamlı inkişaf etdirilməsi;
- Kino və teatr sənətinin inkişafı üçün dövlət proqramlarının hazırlanması və tətbiqi;
- İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus mədəni irsin bərpasının davam etdirilməsi və bu irsin dünyada tanıdılması.

### Gənclər və idman

- Gənclərin cəmiyyətdə rolunun artırılması, milli ruhda tərbiyə alması, intellektual inkişafı, cəmiyyət həyatına inteqrasiyası, dövlət idarəçiliyinə cəlb olunması üçün dövlət dəstəyinin artırılması;
- Gənclərin məşğulluğu, biznes fəaliyyətinin təşkili, karyera quruculuğu üçün dövlətin diqqəti və dəstəyinin artırılması;
- Vətən müharibəsindəki şanlı Zəfərin əldə edilməsində Azərbaycan gənclərinin möhtəşəm rolu nəzərə alınmaqla vətənpərvərlik hisslərinin daha da gücləndirilməsi üçün xüsusi proqramlar həyata keçirilməsi;
- Gənclər arasında sağlam həyat tərzinin təşviqi, onların zərərli vərdişlərdən, kənar təsir və ideologiyalardan qorunması üçün proqramlar həyata keçirilməsi;
- Azərbaycan idmanına dövlət dəstəyinin daha da artırılması.

### Dövlət və ictimai münasibətlər

- Ölkədə mövcud siyasi dialoqun daha da dərinləşdirilməsi;
- Ölkənin taleyi və milli maraqlarla bağlı məsələlərdə ölkədaxili siyasi qüvvələrlə məsləhətləşmələrin aparılması;
- Kənar qüvvələrin hakimiyyətlə müxalifət, siyasi qüvvələr arasındakı münasibətlərə müdaxilə etmə cəhdlərinin qarşısının alınması;
- Ölkəmizə qarşı aparılan qərəzli və çirkin kampaniyalara qarşı iqtidar və müxalifətin birgə fəaliyyətinin təmin edilməsi.

### Xarici siyasət

- Azərbaycanın milli maraqlarına və beynəlxalq hüquqa əsaslanan müstəqil, prinsipial və təşəbbüskar xarici siyasət aparması;
- Vətən müharibəsindən sonra ölkəmizin xeyrinə yaranmış yeni reallığın beynəlxalq müstəvidə qəbul etdirilməsi;
- Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanımağa, eyni zamanda sülh müqaviləsi bağlamağa məcbur edilməsi;
- Vətən müharibəsi dövründə və sonra Azərbaycan diplomatiyasının uğurlu fəaliyyətinin davam etdirilməsi;
- Vətən müharibəsindən sonra bəzi xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı aparılan qərəzli və çirkin kampaniyanın qarşısının alınması üçün tədbirlər görülməsi;
- Azərbaycanın dünyanın aparıcı təşkilatlarında və tədbirlərində təmsil olunmasının, beynəlxalq təşkilatlara rəhbərlik etməsinin təmin olunması;
- Qardaş Türkiyə ilə strateji müttəfiqlik əlaqələrinin daha da dərinləşməsinin təmin olunması;
- Türk Dövlətləri Təşkilatının gücləndirilməsi üçün ölkəmizin səylərinin daha da artırılması;
- Vətən müharibəsi dövründə Azərbaycana dəstək verən ölkələrlə münasibətlərin daha da dərinləşdirilməsi;
- Azərbaycanın islam həmrəyliyi prinsipinə və müsəlman ölkələrinin legitim maraqlarına dəstək verməsi;
- Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqa verdiyi dəstəyin davam etdirilməsi.

**Əziz seçici,
Böyük və Güclü Azərbaycan Naminə
ELŞAD MUSAYEVƏ
səs ver!**

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı




## "Tesla"nın yeni elektromobili

**ABŞ-nin elektromobil istehsalçısı "Tesla" 2025-ci ilin ortalarında "Redwood" kod adlı yeni modelini istehsal etməyi planlaşdırır. Elektromobil geniş kütlə üçün nəzərdə tutulur.**



Şirkətin sahibi İlon Mask artıq uzun müddətdir ki, "Tesla"nın aşağı büdcəli elektromobillər istehsal etmək planları barədə məlumat verib. "Redwood"un start qiymətinin təxminən 25 min dollar olacağı gözlənilir. Belə büdcəli elektromobillər sayəsində şirkət daha ucuz satış qiymətinə sahib benzin mühərrikli avtomobillərlə və digər ucuz elektromobillərlə rəqabət apara biləcək. Şirkət yeni modeldən həftədə təxminən 10 min elektromobil istehsal etmək niyyətindədir.

## Robotlaşdırılmış restoran

**ABŞ-nin Kaliforniya ştatında dünyada ilk dəfə olaraq tamamilə robotlaşdırılmış restoran açılacaq. "CaliExpress by Flippy" adlanacaq restoranda bütün istehsal prosesləri süni intellekt tərəfindən idarə olunacaq. Bu ideya Amerikanın "Cali Group", "Miso Robotics" və "PopID" şirkətlərinə məxsusdur.**



Restoran Amerikanın ənənəvi "fast-food"unun hazırlanmasında ixtisaslaşacaq. Menyuya hələ ki üç növ burger, "kartof fri" və salat daxil edilib. Onların hazırlanması üçün "Flippy" istehsalı olan bir neçə tamamilə robotlaşdırılmış qril aparatı quraşdırılacaq.

Robot aşpaz komandası xüsusi yazılmış proqram təminatı tərəfindən idarə olunacaq. Özünəxidmət köşkləri vasitəsilə sifariş vermək üçün əvvəlcədən "PopID" hesabı yaradılacaq. Sifariş verildiyi zaman köşk müştərilərin əvvəlki səfərlər tarixçəsinə əsasən tövsiyələr verəcək. Mətbəxin divarları şəffaf şüşədən olduğu üçün müştəri yeməyin hazırlanması prosesini müşahidə edə biləcək.

"CaliExpress by Flippy"in tezliklə istifadəyə veriləcəyi bildirilir.

## Elektron dəri

**Çinin Cənub Elm və Texnologiya Universitetinin alimləri biomimetik strukturlara malik termotənzimləyici elektron dəri hazırlayıblar.**



Elektron dəri elastik termoelektrik cihazı hidrogel kompozit materialı ilə birləşdirərək insan bədəninin termorequlyasiya mexanizmini təqlid edir.

Elektron dəri ətraf mühitin temperaturu müsbət 10-45 dərəcə arasında olduqda, səthin temperaturunu +35 dərəcədə saxlamaq qabiliyyətinə malikdir.

## İki ekranlı noutbuk

**"Asus" şirkəti iki qatlanan ekranlı "Zenbook Duo" kompüterini təqdim edib. Kompüter menteşələrlə bərkidilmiş üç hissədən - iki ekran və klaviaturadan ibarətdir.**



Ekranların diaqonalı 14 düym, təsvir ölçüsü 2880x1800 pikseldir. Ümumilikdə isə, kompüterdə 19,8 düymlük panel var.

Şirkətdən bildirilib ki, yeni cihaz müxtəlif rejimlərdə istifadə oluna bilər. "Zenbook Duo"nun bir ekranı və klaviatura tərəfindən gizlədilmiş ikinci ekranı var. Həmçinin displeylər klaviaturadan ayrıla və masaya quraşdırıla bilər. Hər iki toxunma ekranını planşet kimi də istifadə etmək mümkündür.

Yeni kompüter "Intel Core Ultra 9 185H" prosessoruna, 32 giqabayt operativ yaddaşa və 2 terabata qədər daxili yaddaşa, iki "Thunderbolt 4" porta, USB-A konnektora və HDMI çıxışa sahibdir.

## "Motorola" yeni smartfon üzərində çalışır

**"Motorola" şirkəti yeni qatlana bilən smartfon üzərində çalışır. "Motorola RAZR+" adlı cihazın render fotosu təqdim edilib.**

Fotodan görmək olur ki, smartfon xarici görünüşcə əvvəlki "RAZR" modellərindən, demək olar, fərqlənməyəcək. Yeni model elastiki daxili ekrana, daxili ekranın yuxarı mərkəz hissəsinə yerləşdirilmiş kiçik dairəvi çıxıntıya və ikili arxa kameraya sahib olacaq. Smartfonun bu ilin birinci yarısında təqdim olunacağı gözlənilir.

## Yeni neyron şəbəkəsi

**BƏƏ-nin Süni Zəka Universitetinin tədqiqatçıları insanın əl yazısına bənzər şriftləri tərtib etməyi bacaran neyron şəbəkəsi yaradıblar. Bu şəbəkənin təlimatlandırılması üçün əl yazısı nümunəsinin kiçik bir fraqmenti kifayət edir.**



Əl yazısı ilk olaraq ingilis dilində tərtib edilib. Lakin növbəti mərhələlərdə mütəxəssislər neyron şəbəkəsinə digər dillərdə də əl yazısının tərtib edilməsini "öyrədəcək"lər.

Neyron şəbəkəsi əl yazısını tərtib edən digər sistemlər ilə müqayisə edilib. Bunun üçün 3 neyron şəbəkəsi tərəfindən tərtib edilən nümunələr 100 nəfərə göstərilərək, ən yaxşı variantı seçmək təklif edilib. Məlum olub ki, onların 81 faizi məhz yeni neyron şəbəkəsinin tərtib etdiyi nümunəni seçib.

## Robotlar zavodlarda çalışacaq

**Robototexnika sahəsində fəaliyyət göstərən "Figure" startapı "BMW" ilə əməkdaşlıq müqaviləsi bağlayıb. Bu çərçivədə şirkət "Figure"nin insanabənzər robotlarını ABŞ-nin Cənubi Karolina ştatındakı zavodunda istifadə edəcək.**



Qeyd edək ki, bu, "Figure"nin ilk kommersiya məqsədli müqaviləsidir. "BMW"nin icraedici direktoru Bret Edkokun sözlərinə əsasən, zavoddakı istehsalat prosesində ilk olaraq az sayda robotdan istifadə ediləcək. Məhsuldarlıq üzrə təyin edilmiş göstəricilərə nail olunsa, onların sayı artırılacaq.

Şirkətin məlumatına görə, robotlar zavodun müxtəlif istehsalat bölmələrinə inteqrasiya ediləcək.

## Şəffaf televizor

**Cənubi Koreyanın "LG" şirkəti şəffaf OLED ekrana sahib yeni televizorunu təqdim edib. "LG SIGNATURE OLED T" adlı televizor qeyri-adi dizaynı ilə seçilir.**

Naqilsiz şəkildə çalışan şəffaf televizora səs və görüntü "Zero Connect Box" adlı xüsusi stansiya vasitəsilə ötürülür. Oyun konsollarını qoşmaq istədikdə isə onları birbaşa televizora deyil, məhz "Zero Connect Box"a qoşmaq lazım gələcək.

Yeni cihazın nə zaman və hansı qiymətə satışa çıxacağı barədə məlumat verilməyib.

## "Xiaomi"nin kiçikölçülü şarj cihazı

**"Xiaomi" yeni şarj cihazını satışa çıxarıb. Cihaz şirkətin öncəki "power bank" modellərindən kiçik həcmi ilə seçilir.**



Şarj cihazının ölçüləri 113 x 53 x 10 mm, çəkisi isə 93 qram təşkil edir. Bu da cihazı gün ərzində gəzdirməyi daha rahat edir. Yeni "power bank" sadəcə bir ədəd USB Type-C girişinə sahibdir. O, 18 vatta kimi çıxış gücünə sahib enerji mənbəyi vasitəsilə şarj olunur. Cihazın 100 faiz enerji yığması üçün 2 saat vaxt lazımdır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Əlahiddə Ümumqoşun Orduda gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kurslarının buraxılışı olub





**Əlahiddə Ümumqoşun Orduda növbəti gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kurslarının uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, mərasimdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi anıldıqdan sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Polkovnik Mahmud Əmirov kurslar zamanı keçirilən məşğələlərdən danışıb və məzunları kursları uğurla başa vurmaları münasibətilə təbrik edib.

Məzunlar adından çıxış edən Şahin Cəfərov kursları əvvəl bitirən məzunlar kimi şərəflə xidmət edəcəklərinə, növbəti kurslarda iştirak edəcək gənclərə nümunə olacaqlarına söz verib.

Məzunları təbrik edən Əlahiddə Ümumqoşun Ordu Komandanın müavini, general-mayor Məhəmməd Həsənov bildirib ki, hazırda dünyanın güclü orduları sırasında olan Azərbaycan Ordusu ötən ili böyük uğurlarla başa vurub.

Qeyd olunub ki, 2024-cü ildə də ölkəmizdə ordu quruculuğunun daha müasir metodlarla həyata keçirilməsi, maddi-texniki bazanın inkişaf etdirilməsi, döyüş hazırlığının ən müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılması prioritet vəzifələr kimi müəyyənləşdirilib. Bu da hərbi qüdrətimizin daha da artmasına şərait yaradacaq. Əminliklə deyə bilərik ki, Əlahiddə Ümumqoşun Orduda da bu istiqamətdə tədbirlər həyata keçiriləcək, bundan sonra da muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsi və müdafiə potensialının daha da gücləndirilməsi üçün lazımi addımlar atılacaq.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Kurs birinciləri xatirə lövhələrinə buraxılış emblemlərini vurduqdan sonra tribuna önündən təntənəli keçid olub.

# "Environmental Protection First" Koalisiyası Amuldağ qızıl yatağında monitorinq aparmağa hazırdır

**"Environmental Protection First" Koalisiyası Amuldağ qızıl yatağında monitorinq aparmağa hazır olmasına dair bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir:**

*"Environmental Protection First" Koalisiyası Ermənistan vətəndaş cəmiyyəti təşkilatlarının Amuldağ (Amulsar) qızıl yatağında ətraf mühitə ziyan vuran dağ-mədən sənayesi işlərinin dayandırılmasına dair etiraz bəyanatını dəstəkləyir.*

*Biz Ermənistandan olan həmkarlarımıza səsimizə səs verdikləri üçün təşəkkür edirik. Bu həmrəyliyin nəticəsidir ki, bu yaxınlarda Arazdəyəndə də başlanılması planlaşdırılan işlər dayandırıldı.*

*Ermənistanda 100-dən çox vətəndaş cəmiyyəti təşkilatı və ekofəalın qeyd etdiyi kimi, "Amulsar qızıl yatağı" layihəsi biomüxtəlifliyə və su ehtiyatlarına təhlükə törədir. Ermənistan hökuməti və "Lydian Armenia" şirkəti yatağın ətraf mühitə təsirinin qiymətləndirilməsinin nəticələrini nəzərə almayıb.*

*Beynəlxalq qurumlar tərəfindən də fəaliyyətinə dəfələrlə etiraz edilmiş, əleyhinə qərarlar qəbul edilmiş Amuldağ (Amulsar) qızıl yatağının istismarı nəticəsində formalaşan ağır metal tərkibli mədən tullantıları Bərgüşad (Vorotan) çayına axıdılaraq Həkəri çayı vasitəsilə Araz çayını çirkləndirir. Amuldağ (Amulsar) qızıl yatağının bu cür istismarı Qafqaz dağları ilə əhatə olunmuş region və onun əhalisi üçün ciddi təhdiddir.*

*Amuldağ yatağı təbii mineral su yatağı olan İstisu (Cermuk) şəhərindən 13 kilometr məsafədə yerləşir, yatağın istismarı İstisu mineral bulaqlarına məhvedici zərər vurur. Yataq həm də Arpaçay və Bazarçay arasındakı ərazidə yerləşir. Hər iki çay Azərbaycan ərazisindən keçərək Araz çayına tökülür. Amuldağ yatağının istismarında çoxdan qadağan edilmiş, ətraf mühit üçün yüksək təhlükə törədən zəhərli maddələrin istifadəsi təbiəti məhv edir, çay sularının turşulaşmasına, suyun zəhərlənməsinə səbəb olur. Qızıl hasilatının bu çayın sularını çirkləndirməsi ilə yanaşı, əraziyə yaxın yerləşən Ermənistanın ən böyük şirin su gölü olan Göyçə (Sevan) gölünün ekosisteminə də mənfi təsir göstərir. Eyni zamanda bu sənaye Xəzər dənizi hövzəsi üçün də ciddi təhlükə törədir.*

*Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisindən axan Arpaçay, eləcə də Bazarçay Araz çayına və oradan da Xəzər dənizinə tökülür. Beləliklə, bu, təkcə Azərbaycanın deyil, həm də İranın, eləcə də digər Xəzəryanı ölkələrin ekologiyasına ciddi ziyan vurur.*

*Qızıl yatağını "Lydian Armenia" şirkəti istismar edir. Bu şirkətin tam payçısı Böyük Britaniyanın "Lydian International" şirkətidir. Şirkətin əsas səhmdarları "Orion Mine Finance" (ABŞ), "Resource Capital Funds" (ABŞ), "Merk Investments" və "Tocqueville Asset Management LP" şirkətləridir.*

*EPF Koalisiyası olaraq biz də Ermənistan hökumətini və bu yataqda qızıl hasilatına cəlb edilmiş şirkətləri heç bir ekoloji normaları nəzərə almadan istismarı aparılan "Amulsar qızıl yatağı"ndakı işləri dərhal dayandırmağa çağırırıq.*

*Biz Ermənistanın və digər xarici ölkələrin ekologiya və səhiyyə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları, beynəlxalq qurumlarla birgə "Amulsar qızıl yatağı"nda monitorinqə başlamağa hazırıq.*

*Ermənistan hakimiyyəti hərəkətlərinin məsuliyyətini dərk etməli, dağ-mədən sənayesi müəssisələrinin qapılarını ekoloji monitorinqlər üçün açmalıdır.*

*İmza:*

***Amin Məmmədov,***
***"Sudan İstifadə Sahəsində Mütəxəssislər" İctimai Birliyi,***
***Pərvanə Vəliyeva,***
***"Sağlamlığa Xidmət" İctimai Birliyi,***
***Sabit Bağırov,***
***Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu,***
***Qəmzə Yusubova,***
***Ekoloji Maarifçilik və Monitorinq İctimai Birliyi".***

Qeyd edək ki, "Environmental Protection First" Koalisiyası Ermənistan hakimiyyətinə müraciət ünvanlayaraq Amuldağ yatağında Azərbaycanın və digər xarici ölkələrin ekoloji və səhiyyəyönümlü QHT-lərinin monitorinq aparmasına şərait yaradılmasını tələb edib. Koalisiyanın yaydığı bəyanatda deyilir ki, Ermənistan etdiyi hərəkətlərin məsuliyyətini dərk etməli, dağ-mədən sənayesi müəssisələrinin qapılarını ekoloji monitorinqlər üçün açmalıdır, heç bir ekoloji normaları nəzərə almadan istismarı aparılan Amuldağ yatağındakı işlər dərhal dayandırılmalıdır. Koalisiya həmçinin Ermənistanda 100-dən çox vətəndaş cəmiyyəti təşkilatı və ekofəalın Amuldağdakı istismarın biomüxtəlifliyə, su ehtiyatlarına ciddi təhlükə törətməsi barədə fikirlərini dəstəkləyib. Azərbaycan QHT-ləri həmçinin Ermənistanın ekotəşkilatlarına və ekofəallarına "Environmental Protection First" Koalisiyasının səsinə səs verdikləri üçün təşəkkür edib.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3789**
**Sifariş 147**

**Qiyməti 60 qəpik**